

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 04 - aprel 2019



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**№ 04 - aprel 2019**



TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




**Qaynar xətt**
**539-76-75**

# Mündəricat



## RƏSMİ MƏLUMAT


Pekində 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumu keçirilib ....4
Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib ....9
"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanı ....11




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ölkə Prezidentinin tapşırıqları təxirəsalınmadan icra edilir ....15
Ədliyyə naziri Bərdədə vətəndaşları qəbul edib ....28
CISCO şirkətinin nümayəndə heyəti ilə görüş ....29
Ədliyyə Akademiyasının beynəlxalq əlaqələri genişlənir ....30
Özbəkistanla ədliyyə sahəsində səmərəli əməkdaşlıq edilir ....31
Ədliyyə Nazirliyinin nümayəndə heyəti beynəlxalq konfransda iştirak edib ....32
Ümumdünya Səhiyyə Təşkilatının nümayəndəsi ilə Penitensiar xidmətdə görüş ....33
Ədliyyə orqanlarında vətəndaşlara xidmət səviyyəsi yüksəlir ....34
On milyonuncu vətəndaşa doğum haqqında şəhadətnamə təntənəli təqdim olunub ....35
Ədliyyə sahəsində innovasiyalara dair brifinq keçirilib ....36
Notariat sahəsində beynəlxalq əlaqələr genişlənir ....37
Ədliyyə Akademiyasının məlumatları ....38

Yerli özünüidarəetmə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq genişlənir ........................................42
Vətəndaşların bələdiyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib ....................................................................................42
Ədliyyə Nazirliyinin Məhkəmə ekspertizası mərkəzinə qulluğa qəbulla bağlı növbəti müsabiqə elan edilir........43

## HÜQUQ NƏZƏRİYYƏSİ

Nigar Səlimli. Yerli sosial-iqtisadi inkişafda subvensiyanın rolu ..................................................................................44

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1507-VQD nömrəli Qanunu .........................................................................................................................................................................46
“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1537-VQD nömrəli Qanunu ..........................................................................................47
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1538-VQD nömrəli Qanunu .....................................................................49
“Mediasiya haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanunu ..........50
"Azərbaycan dilinin Orfoqrafiya Normaları"nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı ..........................................................................65
Azərbaycan dilinin Orfoqrafiya Normaları .................................................................................................................65

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb
səhifələnmiş, “Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
“Ədliyyə Nəşriyyat Evi” MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: “Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1833 Tiraj:1100 ədəd



# Pekində 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumu keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev forumda iştirak edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak etmək üçün aprelin 24-27-də bu ölkədə işgüzar səfərdə olub.**

Səfər zamanı Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü olub.

Görüşdə Çinin dövlət başçısı Azərbaycan tərəfinin və şəxsən Prezidentinin Çin-Azərbaycan münasibətlərinin inkişafına, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə reallaşdırılmasına böyük diqqət yetirdiyini və bunu yüksək qiymətləndirdiyini bildirib, Azərbaycanın Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından olduğunu vurğulayıb, Böyük İpək Yolu üzərində yerləşən ölkəmizin bu yolun bərpasında təbii tərəfdaşı olduğunu, əməkdaşlığımızın bir sıra nəticələrini və xalqlarımıza real fayda verdiyini qeyd edib, ortaq səylərimizlə "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazır olduğunu vurğulayıb.

Çin rəhbərinin Azərbaycanda da ölkəmizin xeyirxah dostu kimi tanındığını deyən Prezident İlham Əliyev birgə səylərimizlə əməkdaşlığımızın irəlilədiyini və bundan sonrakı qarşılıqlı fəaliyyətin yollarını müəyyən etdiyini bildirib, Forumun keçirilməsinin çox böyük əhəmiyyət kəsb etdiyini qeyd edərək Azərbaycanın lap əvvəldən bu təşəbbüsü dəstəklədiyini vurğulayıb, 2015-ci ildə Çinə dövlət səfərini və



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü

"İpək Yolu İqtisadi Kəməri" haqqında Anlaşma Memorandumunun imzalandığını xatırladıb. Bildirib ki, bu gün bizim siyasi münasibətlərimiz yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqə saxlayırıq.

Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu daxili və xarici siyasətinin həyata keçirildiyini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanda sabitliyin təmin olunduğunu, xalqımızın rifah halının yüksəldiyini, iqtisadi sahədə inkişafa nail olunduğunu bildirib, Çinin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəklədiyini vurğulayıb. O, "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Trans-Xəzər nəqliyyat dəhlizinin əhəmiyyətini qeyd edib.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycanın "Vahid Çin" siyasətini ardıcıl surətdə dəstəklədiyini vurğulayıb, Çinin bütün sahələrdə əldə etdiyi böyük uğurlarla bağlı təbriklərini çatdırıb.

Söhbət zamanı infrastruktur, logistika, energetika, turizm, kənd təsərrüfatı, investisiya, informasiya-kommunikasiya texnologiyaları, təhsil və humanitar sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yanla görüşdə də Çin-Azərbaycan münasibətlərinin və iqtisadi sahədə əməkdaşlığın inkişafı, ticarət dövriyyəsinin artırılması, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, investisiya qoyuluşu və digər məsələlər müzakirə edilib.

Aprelin 26-27-də Pekində 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Forumda iştirak edib.

37 dövlət və hökumət başçısının, beynəlxalq təşkilatların rəhbərlərinin qatıldığı və "Bir kəmər, bir yol əməkdaşlığı, ümumi parlaq gələcəyin qurulması" mövzusunda keçirilən Forum çərçivəsində 12 panel iclası və digər tədbirlər təşkil olunub.

İkinci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunun açılış mərasimində çıxış edən Çin Xalq Respublikasının Sədri Si Cinpin ilk forumdan sonra təşəbbüsü dəstəkləyən ölkələr arasında səmərəli əməkdaşlığın qurulduğunu, hazırda "Bir kəmər, bir yol" təşəbbüsünün 150 ölkə tərəfindən dəstəkləndiyini, bu sıraya bir sıra nüfu-




*Çin Xalq Respublikasının Sədri Si Cinpinin forumda çıxışı*

zlu beynəlxalq təşkilatların da daxil olduğunu diqqətə çatdırıb. O, bu layihənin həm də ölkələr arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığı da əhatə etdiyini vurğulayıb. Çin lideri iqtisadi, ticari, maliyyə və digər sahələrdə xüsusi əhəmiyyəti ilə seçilən bu təşəbbüsün qədim İpək Yolu üzərində yeni dəyərlərin formalaşmasına da dəstək göstərdiyini, qloballaşmanın iqtisadiyyata mənfi təsirlərini azaltdığını, bu layihənin beynəlxalq səviyyədə yüklərin daşınmasına və beləliklə də milli gəlirlərin artmasına, regional inkişafa ciddi təkan verdiyini bildirib. Həmin layihənin həyatın bütün sahələrinə, xüsusilə də sosial məsələlərə inkişaf baxımından ciddi təsir göstərdiyini deyən Çinin dövlət başçısı mədəni-humanitar əlaqələrin genişlənməsində də yeni mərhələnin başlandığını vurğulayıb.

Sonra Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev, Misir Prezidenti Əbdülfəttah Sisi, Malayziyanın Baş naziri Mahathir Mohammad, Pakistanın Baş naziri İmran Xan, BMT-nin baş katibi Antonio Quterreş "Bir kəmər, bir yol" təşəbbüsünün əhəmiyyətindən danışıblar. Onlar bəşəriyyəti narahat edən məsələlərə diqqət çəkib, mövcud problemlərin həllində və dünya iqtisadiyyatının dinamik inkişafında bu layihənin böyük rol oynadığını bildiriblər. Bununla da forumun birinci hissəsi başa çatıb.

Dövlət başçıları səviyyəsində "Daha parlaq birgə gələcəyin qurulması" mövzusuna həsr olunan Forumun ikinci hissəsində dövlətimizin başçısı İlham Əliyev çıxış edərək Çin Xalq Respublikasının yaradılmasının 70-ci ildönümü münasibətilə Prezident Si Cinpini və Çin xalqını təbrik edib, bu illər ərzində Çin Xalq Respublikasının bütün sahələrdə tərəqqi və inkişafa nail olduğunu vurğulayıb, Azərbaycanın lap əvvəldən dəstəklədiyi "Bir kəmər, bir yol" təşəbbüsünün nəqliyyat bağlılığını təmin etməklə yanaşı, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirdiyini, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət etdiyini və beynəlxalq ticarət üçün yeni imkanlar yaratdığını qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın sürətli iqtisadi inkişafından bəhs edərək əsas hədəfimizin iqtisadiyyatımızı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq və inkişaf üçün dayanıqlı imkanlar yaratmaq olduğunu söyləyib, infrastruktur layihələrinin çox önəmli olduğuna toxunaraq




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumda çıxışı*

müasir nəqliyyat infrastrukturunun yaradılmasının Azərbaycanın prioritetləri sırasında olduğunu bildirib. Dövlətimizin başçısı infrastrukturun inkişafına, həmçinin çox əlverişli biznes mühitinin yaradılması ilə dəstək verildiyini qeyd edərək bu sahədə Azərbaycanın Dünya Bankının ən son "Doing Business" hesabatına görə, nailiyyətlərini diqqətə çatdırıb, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əhəmiyyətindən bəhs edib.

Sülh və təhlükəsizlik haqqında danışarkən, Prezident İlham Əliyev Ermənistan və Azərbaycan arasında olan münaqişəni qeyd edib, 25 ildən çox müddət ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistanın işğalı altında olmasını, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsini, BTM Təhlükəsizlik Şurasının qəbul etdiyi erməni qoşunlarının ərazimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin yerinə yetirilməməsini diqqətə çatdıraraq, münaqişənin təkcə ölkəmiz üçün yox, regional sabitlik və sülh üçün ciddi bir problem olduğunu vurğulayıb. Bildirib ki, Ermənistan və Azərbaycan arasında olan münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Dövlətimizin başçısı Forumun ikinci günündə "İnkişaf üçün yeni mənbələrin araşdırılması məqsədilə əməkdaşlığın təşviqi", "Qarşılıqlı siyasətin gücləndirilməsi və daha yaxın tərəfdaşlığın qurulması" və "BMT-nin 2030-cu il Gündəliyini həyata keçirmək üçün yaşıl və dayanıqlı inkişafın təşviqi" mövzusuna həsr olunan sessiyalarında da iştirak edib.

Forumun yekununda Birgə Kommünike qəbul olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanımın adından Forumda iştirak edən dövlət və hökumət başçılarının şərəfinə verilən ziyafətdə iştirak edib.

Səfər zamanı Pekində Prezident İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin görüşü olub. Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunub və bu əlaqələrin bütün sahələri əhatə etdiyi, əmtəə dövriyyəsinin artdığı vurğulanıb, siyasi, iqtisadi, energetika, infrastruktur, investisiya, kənd təsərrüfatı, neft-qaz, nəqliyyat, sənaye, əczaçılıq, təhsil, mədəniyyət, humanitar sahələrdə əməkdaşlığın,



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü*

o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf perspektivləri müzakirə olunub. Hökumətlərarası komissiyanın uğurla fəaliyyət göstərdiyi bildirilib və iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müzakirə edilib. Prezident Vladimir Putin bəyan edib ki, Rusiya bundan sonra da Minsk qrupunun həmsədr ölkəsi kimi münaqişənin həlli istiqamətində səylərini əsirgəməyəcək.

Azərbaycan Prezidenti İlham Əliyev həmsədr ölkə qismində Rusiyanın bu münaqişənin həllində səylərini yüksək qiymətləndirib. Ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

Pekinə səfəri çərçivəsində dövlətimizin başçısının həmçinin, bir sıra şirkətlərin rəhbərləri ilə görüşlər keçirib.

"ZTE" Korporasiyasının sədri Li Cisue ilə görüşdə dünyada telekommunikasiya avadanlıqlarının ən böyük təchizatçılarından olan şirkətin ölkəmizlə tərəfdaşlıq əlaqələrini gücləndirmək niyyəti ifadə olunub, İKT-nin inkişafı sahəsində görülən işlər qeyd olunub, əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulanıb.

"CETC" Korporasiyasının baş direktoru Vu Mançin ilə görüşdə Çinin radioelektronika sahəsində ixtisaslı şirkətlərindən olan Korporasiyanın Azərbaycan ilə əməkdaşlığından məmnunuq ifadə edilib, əlaqələrin inkişaf etdiyi bildirilib.

"Huawei" şirkətinin sədri Lian Xua ilə görüşdə şirkətin 15 ildən çoxdur Azərbaycanda uğurla fəaliyyət göstərdiyi vurğulanıb, əməkdaşlığın perspektivli olduğu bildirilərək İKT infrastrukturu, ağıllı kənd təsərrüfatı, ağıllı şəhər və ağıllı ev, rəqəmsal iqtisadiyyat, rəqəmsal təhsil və digər sahələrdə reallaşdırıla biləcək layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

"China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy ilə görüşdə ölkəmizdə müxtəlif sahələrə dair birgə bir neçə layihənin həyata keçirilməsindən, Azərbaycandakı investisiya mühitindən, xarici sərmayədarlar üçün yaradılan şəraitdən məmnunluq bildirilib, ölkəmizdə yaxşı sərmayə imkanlarının olduğu diqqətə çatdırılıb.

"China Poly Group" Korporasiyasının sədri Su Nianşa ilə görüşdə şirkətin Azərbaycanla bir sıra sahələrdə əməkdaşlıq qurduğu və fəaliyyətlərini genişləndirməkdə maraqlı olduğu vurğulanıb, sənaye müəssisələrinin yaradılması, kənd təsərrüfatı, İKT, turizm və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğu qeyd olunub, əməkdaşlığın müxtəlif sahələri ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Aprelin 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri başa çatıb.



# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

**Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Dövlətimizin başçısı keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirib. "İslahatlara alternativ yoxdur", - deyən Prezident İlham Əliyev vurğulayıb ki, son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkə yoxdur.

Birinci rübdə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlətimizin başçısı ilin əvvəlindən ümumi daxili məhsulun, sənaye istehsalının,




qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğunu bildirib. Qeyd edib ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır. İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini diqqətə çatdıran ölkə rəhbəri minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını, problemli kreditlərlə bağlı məsələnin və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu vurğulayıb.

"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik", - deyən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının əhəmiyyətindən danışıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən dövlətimizin başçısı bildirib ki, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həll olunmalıdır.

Sonra Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, kənd təsərrüfatı naziri İnam Kərimov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev görülən işlərlə bağlı məruzə ediblər.

Prezident İlham Əliyev yekun nitqində hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını, ölkədə aparılan islahatların beynəlxalq qurumlar tərəfindən dəstəkləndiyini bildirib. Dövlətimizin başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışıb. Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq. Ağsu, İsmayıllı və Şamaxı rayonlarında baş verən zəlzələnin fəsadlarının uğurla aradan qaldırıldığını deyən dövlətimizin başçısı Azərbaycan vətəndaşlarını əmin edib ki, dövlət hər zaman onların yanında olacaq.

Sonda Prezident İlham Əliyev 2019-cu ilin də xalqımız üçün uğurlu olacağına əminliyini ifadə edib.

## Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir.

Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir.

Eyni zamanda, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsi daha da yaxşılaşdırılmalı, müvafiq infrastrukturun yenilənməsi işləri davam etdirilməli, məhkəmə icraatında müasir informasiya texnologiyalarının tətbiqinin üstünlüklərindən hərtərəfli istifadə edilməli, digər mühüm məsələlər həll olunmalıdır.

Ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının bütün məhkəmələrinin sədrlərinə və hakimlərinə tövsiyə edilsin ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər.

2. Cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, müvafiq qanun layihələrini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

3. Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, aşağıdakı məsələlərə dair normativ hüquqi aktların layihələrini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər:

3.1. sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi

bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması;

3.2. məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin vahid məhkəmə təcrübəsi formalaşdırmaq vəzifəsinin və həmin vəzifənin icra olunması mexanizminin təsbit edilməsi;

3.3. hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması;

3.4. hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılması;

3.5. məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə müvafiq olaraq diferensiasiya edilməsi;

3.6. məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun müəyyən hissəsinin məhkəmə aparatları işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilməsi;

3.7. məhkəmə icraatının obyektivliyini daha dolğun şəkildə təmin etmək üçün bütün məhkəmə iclaslarının fasiləsiz audioyazısının aparılması və protokolun məhkəmə iclasının audioyazısına uyğun tərtibi tələbinin müəyyən edilməsi;

3.8. mülki işlər, habelə inzibati xətalara, iqtisadi və inzibati mübahisələrə dair işlər üzrə məhkəmə ekspertizasının keçirilməsi və ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsi, məhkəmə prosesi tərəflərinin ekspertiza təyin edilməsi ilə bağlı hüquqlarının genişləndirilməsi.

4. Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, xüsusən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə, apellyasiya instansiyası məhkəmələrinə, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına və Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına tövsiyə edilsin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə tapşırılsın ki, mülki prosessual qanunvericiliyi kompleks şəkildə birgə təhlil edib, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi barədə təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

5. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki:

5.1. hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə müvafiq məlumatların qəbulu üçün qaynar xətt yaratsın;

5.2. hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosedurlarında şəffaflığı daha da artırsın, bu sahədə tətbiq edilən meyarları təkmilləşdirsin;

5.3. hüquq pozuntularına və Hakimlərin Etik Davranış Kodeksinin pozulması hallarına yol verən hakimlərin intizam məsuliyyətinin labüdlüyünü təmin etsin;

5.4. ədalət mühakiməsinin həyata keçirilməsində aşkarlığın və qərəzsizliyin daha dolğun şəkildə təmin edilməsi məqsədilə aşağıdakı sahələrdə "Məhkəmələr və hakimlər

haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə məhkəmələrin riayət etməsinin mütəmadi monitorinqini aparsın:

5.4.1. məhkəmə qərarlarının elektron qaydada dərc edilməsi;

5.4.2. məhkəmələrdə işlərin təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi;

5.4.3. qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin edilməsi.

6. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki:

6.1. məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün ciddi tədbirlər görsün;

6.2. ədalət mühakiməsinin keyfiyyətinin artırılması məqsədilə məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi sahəsində fəaliyyətini gücləndirsin;

6.3. məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində müəyyən edilmiş, sistemli xarakter daşıyan nöqsanların aradan qaldırılması üçün müvafiq mexanizm yaradılması barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

7.1. məhkəmələrin və digər orqanların qərarlarının qanunla müəyyən edilmiş müddətdə icrasının təmin edilməsi, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, icra məmurlarının süründürməçilik və sui-istifadə hallarına yol vermələrinin qarşısının alınması məqsədilə ciddi tədbirlər görsün;

7.2. məhkəmələrin və digər orqanların qərarlarının icrasının sürətləndirilməsi və effektivliyinin artırılması məqsədilə bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.3. məhkəmələrin və digər orqanların qərarlarının icrasının alternativ mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı qabaqcıl beynəlxalq təcrübəni öyrənsin və həmin təcrübənin Azərbaycan Respublikasında tətbiqinin mümkünlüyü barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.4. məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi ilə bağlı beynəlxalq təcrübəni təhlil etsin və müvafiq təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.5. ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə:

7.5.1. "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılmasını təmin etsin;

7.5.2. "Elektron məhkəmə" informasiya sistemində dərc edilən məhkəmə qərarları üzrə müxtəlif meyarlar əsasında effektiv axtarış aparmaq üçün müvafiq funksional imkan yaradılması məqsədilə tədbirlər görsün;

7.5.3. fiziki və hüquqi şəxslərin "Elektron məhkəmə" informasiya sistemindən istifadəsinin təşviqi üçün tədbirlər görsün;

7.6. mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərini həyata keçirsin.

7.7. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturunun və maddi-texniki təchizatının yaxşılaşdırılması üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.8. birinci instansiya məhkəmələrində kargüzarlığın

aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

8. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsini mütəmadi təhlil etsin və bu fəaliyyətin keyfiyyətinin artırılması üçün tədbirlər görsün.

9. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki, vəkillərin hakimlərlə və cinayət təqibini həyata keçirən orqanların əməkdaşları ilə qeyri-prosessual münasibətlərə yol verməsinin qarşısının alınması üçün tədbirləri gücləndirsin.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

10.1. bu Fərmanın 3.1-ci və 3.4-3.6-cı bəndlərində nəzərdə tutulmuş layihələrin hazırlanmasında iştirak etsin;

10.2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə aşağıdakı məsələlər barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

10.2.1. məhkəmələrdə mövcud olan iş yükünü nəzərə alaraq, onlara məhkəmə icraatının təmin edilməsi, o cümlədən kargüzarlığın aparılması üçün ayrılan vəsaitin ehtiyaclara uyğun artırılması;

10.2.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə məhkəmə infrastrukturunun təkmilləşdirilməsi və məhkəmələrdə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması məqsədilə əlavə maliyyə vəsaitinin ayrılması.

11. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın və Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına tövsiyə edilsin ki, sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrin məhkəmədənkənar həlli vasitələrinin genişləndirilməsi məqsədilə, xarici dövlətlərin qabaqcıl təcrübəsi nəzərə alınmaqla ölkəmizdə səmərəli beynəlxalq arbitraj prosedurlarının təşviqinə dair birgə təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

12. Məhkəmələrin fəaliyyətinin daha optimal şəkildə qurulması, ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və məhkəmələrdə işlərə baxılma müddətlərinin qısaldılması məqsədilə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı 200 nəfər artırılsın.

13. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

13.1. dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin dəqiq proqnozlaşdırılmasını və mərkəzləşdirilmiş uçotunu təmin etmək məqsədilə cari ilin və növbəti illərin dövlət büdcəsində dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsaitin birbaşa Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına ayrılması barədə müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

13.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 3 aprel 2019-cu il*
*N 604*

# Ölkə Prezidentinin tapşırıqları təxirəsalınmadan icra edilir

## ◆ Prezidentin 2019-cu il 3 aprel tarixli Fərmanından irəli gələn məsələlərin Ədliyyə Nazirliyinin Kollegiya iclasında müzakirəsi






**Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanından irəli gələn vəzifələrin təxirəsalınmadan icrasının təşkili ilə bağlı Ədliyyə Nazirliyinin aprelin 4-də Kollegiya iclası keçirilib.**

Kollegiyada çıxış edən ədliyyə naziri Fikrət Məmmədov ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı tərəqqisini vurğulayıb, əhalinin rifahının yüksəldilməsinə, dövlət idarəçiliyinin təkmilləşdirilməsinə yönələn ardıcıl tədbirlərdən danışıb. Bildirib ki, imzalanan Fərman dövlətimizin başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olmaqla, həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsidir. Fərman bu sahədə islahatların dərinləşdirilməsini, yeni mərhələdə müasir çağırışlara uyğun və sistemli davam etdirilməsini şərtləndirməklə ədliyyə və məhkəmə sisteminin gələcək inkişafı üçün strateji prioritetləri müəyyən edən mühüm "yol xəritəsi"dir.

İclasda ölkə başçısının rəhbərliyi ilə ötən dövrdə aparılan islahatlar çərçivəsində ədliyyə və məhkəmə sisteminin inkişafı üzrə bir çox mühüm tədbirlərin həyata keçirildiyi, o cümlədən qanunvericiliyin təkmilləşdirildiyi, xüsusi dövlət proqramlarının qəbul edildiyi, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdığı, məhkəmə və ədliyyə infrastrukturunun yaxşılaşdığı qeyd olunub, məhkəmə-hüquq sistemində kompleks qanunverici, institusional və praktiki tədbirlərin görülməsini nəzərdə tutan dövlət başçısının proqram xarakterli Fərmanı ilə Ədliyyə Nazirliyinin üzərinə mühüm vəzifələrin qoyulduğu vurğulanıb.

Bununla əlaqədar Kollegiyada ölkə başçısının tapşırıqlarının vaxtında, dürüst və dönmədən icrasının təmin olunması, o cümlədən məhkəmə qərarlarının icrasının effektivliyinin artırılması, bu sahədə süründürməçilik və sui-istifadə hallarına yol verilməsinin qarşısının qətiyyətlə alınması, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin geniş və səmərəli tətbiqi ilə bağlı konkret işlərin görülməsi müəyyən edilib.

Eyni zamanda, məhkəmə qərarlarının icrasının sürətləndirilməsi məqsədilə bu sahədə qanunvericiliyin ətraflı təhlil edilməsi, Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, mediasiya institutunun və beynəlxalq arbitraj prosedurlarının təşviqi, məhkəmə qərarlarının icrası və məhkəmə ekspertizası fəa-

liyyətinin alternativ mexanizmlərinin tətbiqi təcrübəsinin öyrənilməsi və müvafiq təkliflərin təxirəsalınmadan hazırlanması diqqətə çatdırılıb.

Vurğulanıb ki, Fərmanda məhkəmə fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması, qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin edilməsi, hakimlərin təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması ilə bağlı ciddi və konkret tədbirlərin müəyyən edilməsi məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsinə, ədalət mühakiməsinin effektivliyinə və əlçatanlığına, vətəndaş məmnunluğuna xidmət edir.

İclasda cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması, o cümlədən məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, məhkəmə icraatının effektivliyinin təmini, məhkəmə infrastrukturunun yenilənməsi və təchizatın yaxşılaşdırılması, habelə cəza siyasətinin humanistləşdirilməsinə dair dövlət başçısının tapşırıqlarının icrası üzrə nazirliyin vəzifələri müzakirə edilib.

Kollegiyanın qərarı əsasən Fərmanın icrasının təşkili ilə bağlı xüsusi tədbirlər planı təsdiq olunub, aidiyyəti orqanlarla birgə müvafiq qanunvericilik layihələrinin hazırlanması üzrə əlaqələndirmə işçi komissiyası yaradılıb.

İclasda həmçinin, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

## ◆ Prezident Fərmanından irəli gələn nazirliyin icra xidmətinin vəzifələrinin müzakirəsinə həsr olunmuş ümumrespublika müşavirəsi



Ölkə Prezidenti İlham Əliyevin aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ədliyyə və məhkəmə sisteminin gələcək inkişafı üçün strateji prioritetləri müəyyən edən mühüm "yol xəritəsi" olub. Fərmandan irəli gələn vəzifələr təxirəsalınmadan Ədliyyə Nazirliyinin Kollegiya iclasında müzakirə edilib, onun icrasının təşkili məqsədilə nazirliyin rəhbərliyi və məsul şəxslərindən ibarət xüsusi Komissiya yaradılıb, Tədbirlər Planı təsdiq edilib, geniş maarifləndirmə işləri aparılır.

Nazirliyin icra xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi üzrə dövlət başçısının qarşı-



da qoyduğu vəzifələrlə bağlı bütün icra və probasiya qurumlarının, regional ədliyyə idarələri rəhbərlərinin iştirakı ilə aprelin 20-də ümumrespublika müşavirəsi keçirilib.

Çıxış edən Ədliyyə naziri Fikrət Məmmədov ədalət mühakiməsinin səmərəli həyata keçirilməsində məhkəmə qərarlarının icrasının mühüm əhəmiyyətini qeyd edib, icra işinin yaxşılaşdırılması üzrə görülən tədbirləri və qarşıda duran vəzifələri vurğulayıb. Dövlət başçısının növbəti dəfə ölkə rəhbəri seçilməsinin bir illiyi ərəfəsində imzalanmış Fərmanın işin müasir çağırışlara uyğun qurulmasına xidmət etdiyi bildirilib, məhkəmə qərarlarının icrasının sürətləndirilməsi və effektivliyinin artırılması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi, yeni İcra Məcəlləsi layihəsinin hazırlanması, alternativ icra mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi barədə məlumat verilib. İcra xidməti tərəfindən vətəndaşların hüquqlarının və qanuni mənafelərinin qorunması, məhkəmə qərarlarının tam və vaxtında icrasının təmin edilməsi, bu sahədə süründürməçilik və sui-istifadə hallarının qarşısının qətiyyətlə alınması, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi üzrə konkret göstərişlər verilib.

Müşavirədə yerli icra qurumlarının fəaliyyətində nöqsan və çatışmazlıqlar qeyd olunub, vətəndaşlardan daxil olan, o cümlədən dövlət başçısının tapşırığı ilə bölgələrdə keçirilən səyyar qəbullar zamanı, habelə qaynar xətlərə edilən şikayət və siqnalların narahatlıq doğurduğu vurğulanıb. Bəzi icra məmurları tərəfindən vəzifə borclarına laqeyd münasibət bəslənilməsi, icra intizamının, etik davranış qaydalarının pozulması, işlərin süründürülməsi və vətəndaşların haqlı narazılığına səbəb olan digər neqativ hallar diqqətə çatdırılıb. Bu sahədə işin səmərəliliyinin artırılması, nöqsanların səbəb və şəraitinin aradan qaldırılması yolları ətraflı təhlil edilib.

Qeyd olunub ki, son illər ərzində 170-dən çox icra məmuru ciddi intizam məsuliyyətinə cəlb edilib, onlardan 51-i tutduğu vəzifədən azad olunub və ya ədliyyə orqanlarından xaric edilib, 6 nəfərin qanun pozuntuları barədə materiallar istintaqa verilib.

İclasda mövcud problemlərlə bağlı yerli icra qurumlarının rəhbərləri dinlənilib. Fəaliyyətində kobud qanun pozuntularına yol vermiş icra məmurları barəsində qəti tədbirlər görülüb, 16 nəfər icra və probasiya qurumlarının əməkdaşları ciddi intizam məsuliyyətinə cəlb edilib, o cümlədən 3 nəfər ədliyyə orqanlarından xaric edilib və ya tutduğu vəzifədən azad olunub, bütün yerli qurumların rəhbərlərinə işlərində ciddi dönüş yaradılması tapşırılıb.

Neqativ hallara, o cümlədən qeyri-prosessual münasibətlərə yol verən işçilərlə bağlı bundan sonra da ən qəti tədbirlərin görüləcəyi vurğulanıb. Xidmətin işinin dövlət başçısının Fərmanından irəli gələn tələblərə uyğun qurulması, vətəndaş məmnunluğunun yüksəldilməsi, qanunvericiliyin tələblərinə, habelə etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyi qeyd olunub, tabe qurumların fəaliyyətinə tələbkarlığın və nəzarətin gücləndirilməsi, icra məmurlarının məsuliyyət hissinin və peşəkarlığının artırılması ilə bağlı və s. konkret tapşırıqlar verilib.

Sonra müşavirə "İcra sahəsinə dair qanunvericiliyin tətbiqinin bəzi məsələləri" mövzusunda təlimlə davam edib, iclas iştirakçılarını maraqlandıran praktiki suallar cavablandırılıb.

## ◆ Prezidentin 2019-cu il 3 aprel tarixli Fərmanından irəli gələn məsələlərin Məhkəmə-Hüquq Şurasının iclasında müzakirəsi

**Aprelin 5-də Məhkəmə-Hüquq Şurasının bütün apelyasiya məhkəmələri sədrlərinin, hakim assosiasiyaları rəhbərlərinin, habelə vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə geniş iclası keçirilib.**

İclasda ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn vəzifələr müzakirə olunub.

Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insanların rifahının yaxşılaşdırılmasına yönələn hərtərəfli





sosial-iqtisadi islahatlar barədə məlumat verib, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə mütərəqqi tədbirlərə toxunub.

Xüsusilə ötən il dövlət başçısının təşəbbüsü ilə məhkəmə icraatının sadələşdirilməsi və təkmilləşdirilməsinin, o cümlədən elektron icraat mexanizminin yaradılmasının əhəmiyyətini bildirib. Ölkə Prezidentinin yüksək etimadı ilə aparılmış təyinatlar nəticəsində hakim vakansiyalarının əksəriyyətinin, habelə ali və apellyasiya məhkəmələrinin bütünlüklə komplektləşməsinin süründürməçilik hallarının qarşısının alınmasına, işlərə vaxtında və daha keyfiyyətli baxılmasına xidmət etdiyini vurğulayıb.

İclasda məhkəmə islahatlarının dərinləşdirilməsi barədə proqram xarakterli Fərmanın imzalanması ilə bu sahədə islahatların keyfiyyətcə yeni mərhələyə keçdiyi bildirilib, onun məhkəmə-hüquq orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması üçün "yol xəritəsi" olduğu, nəzərdə tutulmuş tövsiyə və tapşırıqların dərhal icrasına başlanıldığı vurğulanıb.

Qeyd edilib ki, əhalinin, xüsusilə ölkənin iqtisadi inkişafında mühüm rol oynayan sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması məqsədilə yeni məhkəmənin təşkili, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması barədə işlərin davam etdirilməsi, hakimlərin və məhkəmə işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, məhkəmələrin infrastrukturu və təchizatının yaxşılaşdırılması, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, habelə hakim ştatlarının sayının 200 vahid artırılması ilə bağlı tövsiyə və tapşırıqlar ölkəmizdə məhkəmə sisteminin inkişafına əsaslı təsir göstərəcəkdir.

Məhkəmə fəaliyyətinə kənar müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və bununla bağlı məsuliyyət tədbirlərinin gücləndirilməsi barədə qarşıda qoyulan vəzifənin məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsinə xidmət etdiyi bildirilib. Hakimlərin fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun qarşısında bərabərliyinin təmin olunması və ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən əməl edilməsinin vacibliyi vurğulanıb.

Məhkəmə-Hüquq Şurasında çıxış edən Ali Məhkəmənin sədri Ramiz Rzayev ölkə başçısının qeyd edilən Fərmanının məhkəmə sistemində islahatlara vüsət verdiyini vurğulayıb, hüquqi yanaşmanın sabitliyinin təmin edilməsi və vahid məhkəmə təcrübəsinin formalaşdırılması, bu sahədə müvafiq mexanizmlərin işlənilməsinin xüsusi əhəmiyyətini bildirib.

İclasda hakimlərin müstəqilliyinin təmin edilməsi, onların fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə qaynar xətt yaradılması, hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi işinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin həyata keçirilməsində aşkarlığın və qərəzsizliyin təmin edilməsi məqsədilə məhkəmə qərarlarının elek-

tron dərci, işlərin elektron bölüşdürülməsi, qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin olunması üzrə mütəmadi monitorinqlərin keçirilməsi barədə konkret tapşırıqlar verilib.

Bu məqsədlə Şurada informasiya və kommunikasiya texnologiyaları, habelə Məhkəmə monitorinqi sektorlarının yaradılması qərara alınıb. Ədalət mühakiməsinin səmərəliliyinin artırılması və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə müvafiq qanun layihələrinin aidiyyəti orqanlarla birgə işlənilməsi məqsədilə işçi qrupu yaradılıb, əhatəli tədbirlər planı hazırlanaraq qəbul edilib.

İclasda çıxış edənlər, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələri Fərmanın qarşıda mühüm vəzifələr qoyduğunu vurğulayıb, dövlət başçısına məhkəmə hakimiyyətinin inkişafına verilən mühüm önəmə görə dərin ehtiramını ifadə ediblər.

## Fərmanın icrasının təşkili ilə bağlı Ali Məhkəmədə müşavirə

**Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanından irəli gələn vəzifələrin icrasının təşkili ilə bağlı Azərbaycan Respublikasının Ali Məhkəməsində 4 aprel 2019-cu il tarixdə Ramiz Rzayevin sədriliyi ilə geniş müşavirə keçirilib.**



Müzakirələrdə ölkə başçısının rəhbərliyi ilə aparılan islahatlar çərçivəsində məhkəmə sisteminin inkişafı üzrə bir çox mühüm tədbirlərin həyata keçirildiyi, o cümlədən qanunvericiliyin təkmilləşdirildiyi, xüsusi dövlət proqramlarının qəbul edildiyi, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdığı, məhkəmə və ədliyyə infrastrukturunun müasirləşdirildiyi, məhkəmə-hüquq sistemində kompleks tədbirlərin həyata keçirilməsi ilə bağlı işlərin yerinə yetirildiyi qeyd edilib.

Dövlət başçısı yeni fərmanla bu sahədə islahatların dərinləşdirilməsi, məhkəmələrə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılmasının yeni mərhələdə müasir çağırışlara uyğun və sistemli davam etdirilməsi, məhkəmə sisteminin gələcək inkişafı üçün strateji prioritetləri müəyyən etmişdir.

Fərmanın icrası ilə bağlı Ali Məhkəmənin sədri tərəfindən 4 aprel 2019-cu il tarixli müvafiq əmr imzalanıb və xüsusi komissiya yaradılıb.

Komissiya tərəfindən fərmandan irəli gələn məsələlərin icrası ilə bağlı tədbirlər planı işlənib hazırlanıb və təxirə salınmadan həyata keçirilməsinə başlanılıb.

## Fərmanın icrasının təşkili ilə bağlı Baş Prokurorluqda əməliyyat müşavirəsi

Aprelin 9-da Baş prokuror Zakir Qaralovun sədrliyi ilə keçirilmiş geniş əməliyyat müşavirəsində ölkə Prezidenti tərəfindən əhalinin layiqli həyat səviyyəsinin təmin olunması və dövlət-vətəndaş münasibətlərinin müasir çağırışlara uyğun formalaşmasına yönəlmiş institusional tədbirlərin müvəffəqiyyətlə həyata keçirildiyi vurğulanıb, dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının əhəmiyyəti qeyd olunaraq sənədin icrası üzrə görülən işlər diqqətə çatdırılıb.

Müşavirədə ölkə Prezidentinin yeni Fərmanından irəli gələn vəzifələrin vaxtında və səmərəli icrasını təmin etmək məqsədilə 4 aprel 2019-cu il tarixdə Baş Prokurorluqda İşçi Qrupun yaradıldığını qeyd edən Baş prokuror cəza siyasətinin

humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi ilə əlaqədar müvafiq qanun layihələrinin hazırlanmasının, həmçinin məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsininin mütəmadi təhlil edilməsinin zəruriliyini vurğulayıb.

Fərmanda vahid məhkəmə təcrübəsinin formalaşdırılması vəzifəsinin və həmin vəzifənin icra olunması mexanizminin təsbit edilməsinə münasibət bildirən Baş prokuror cinayət təqibi orqanlarında başlanmış cinayət işlərinin istintaqı zamanı cinayət qanunvericiliyinin müddəalarına düzgün istinad edilməklə əmələ obyektiv hüquqi qiymət verilməsi, cinayət işlərinin yüksək peşəkarlıqla istintaq edilməsi, prokurorlar tərəfindən ibtidai araşdırmanın



həm prokurorluq, həm də digər istintaq orqanlarında keyfiyyətlə aparılması istiqamətində kəsərli tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Əməliyyat müşavirəsində Baş prokuror Fərmandan irəli gələn vəzifələrin icrası ilə əlaqədar ilkin mərhələdə Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin fəaliyyət keyfiyyətinin artırılması məqsədilə tərkibinin yenidən formalaşdırılması üçün Müsabiqə komissiyasının təşkil olunması və növbəti mərhələdə isə dövlət ittihamının müdafiəsini həyata keçirən bütün prokurorların eyni prosedurlar əsasında müsabiqə yolu ilə vəzifəyə təyin edilmələri barədə göstəriş verib.

Tədbirdə çıxışlar edilərək Fərmanın qarşıda mühüm vəzifələr qoyduğu vurğulanıb. Sonda bildirilib ki, Baş Prokurorluqda həmin Fərmanın tələblərindən irəli gələn vəzifələrin vaxtında və səmərəli yerinə yetirilməsi təmin ediləcəkdir.

## ◆ Fərmanın icrası çərçivəsində "Elektron məhkəmə" informasiya sisteminin ictimai təqdimatı






**Aprelin 30-da Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhəri Sabunçu Məhkəmə Kompleksində vətəndaş cəmiyyəti üçün "Azərbaycanda elektron məhkəmənin tətbiqi və inkişafı perspektivləri" mövzusunda ictimai təqdimat keçirilib.**

Tədbirdə nazirliyin rəhbərliyi, Prezident Administrasiyasının məsul nümayəndələri Milli Məclisin deputatları, hakimlər, dövlət ittihamçıları və vəkillər, ictimai xadimlər, ədliyyə naziri yanında İctimai Komitənin üzvləri və digər vətəndaş cəmiyyətinin təmsilçiləri, çoxsaylı KİV rəhbərləri, blogerlər, alimlər və tələbələr










iştirak ediblər.

Açılışda Ədliyyə nazirinin müavini Azər Cəfərov çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlardan, o cümlədən vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılması, məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə görülən işlərdən, bu sahədə beynəlxalq təcrübədən danışıb *(Çıxışın tam mətni jurnalımızın bu sayında oxucuların diqqətinə təqdim olunur).*

Sonra "Elektron məhkəmə" informasiya sistemi üzrə İşçi Qrupun rəhbəri, hakim Ramin Qurbanov sistemin innovativ imkanları, nazirliyin İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə ədliyyə sahəsində tətbiq olunan yeniliklər, İcra baş idarəsinin elektron informasiya üzrə qrup rəhbəri Tural Məmmədov məhkəmə qərarlarının icrası işinin elektronlaşdırılması, İnformasiya texnologiyaları üzrə baş məsləhətçi, beynəlxalq ekspert Goran Edström elektron ədliyyə infrastrukturunda məlumat təhlükəsizliyi barədə əyani təqdimatlarla çıxış ediblər.

Bildirilib ki, dövlət başçısının 2014-cü il 13 fevral tarixli Sərəncamı "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinə geniş yol açıb, bu istiqamətdə ötən dövrdə xarici mütəxəssislərin iştirakı ilə xeyli işlər görülüb, hazırda sistem Naxçıvan Muxtar Respublikasını da əhatə etməklə ölkə məhkəmələrinin və icra qurumlarının əksəriyyətində tətbiq olunur.

Məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən elektron məhkəmənin tətbiqi ədalət mühakiməsinə ictimai etimadı artırır, vətəndaşların, o cümlədən sahibkarlıq subyektlərinin məhkəmələrə elektron qaydada onlayn rejimdə daha asan və rahat müraciət etməyə imkan verir, məhkəmə baxışını tezləşdirir, süründürməçilik hallarının qarşısını alır.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə ötən ilin dekabrında Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Qanununda dəyişikliklər edilərək iqtisadi mübahisələr üzrə işlərə kağızsız, elektron qaydada baxılmasına keçilib, hakim və sahibkar arasında münasibətlərin tamamilə elektron qaydada tənzimlənməsi təmin edilib.

Elektron məhkəmənin komponentlərindən olan "elektron şəxsi kabinet" vasitəsilə, həmçinin məhkəmələrə elektron qaydada iddia verilməsi, məhkəmə proseslərinin izlənilməsi, sənədlərin elektron mübadiləsi, məhkəmə qərarlarının elektron dərci, işlərin hakimlər arasında təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi mümkündür.

Diqqətə çatdırılıb ki, icra orqanlarının fəaliyyətinin effektivliyinin artırılması, bu fəaliyyətdə operativliyin və şəffaflığın təmin olunması məqsədilə "Elektron icra" sistemi yaradılaraq tətbiq olunur. Sistem icra sənədlərinin elektron qeydiyyatını aparır, icra qurumları ilə məhkəmələr arasında kağızsız əlaqələrin qurulmasına, icra işinə elektron nəzarətin həyata keçirilməsinə, müxtəlif dövlət qurumlarının informasiya sistemləri ilə qarşılıqlı məlumat mübadiləsinin aparılmasına imkan verir.

Həmçinin mütərəqqi beynəlxalq standartlar nəzərə alınaraq müasir məhkəmə və ədliyyə elektron infrastrukturunun qurulması, əsas və









ehtiyat məlumat mərkəzlərinin yaradılması və məlumat təhlükəsizliyinin təmin olunması istiqamətində Dünya Bankı birgə görülən işlərdən danışılıb. Bildirilib ki, dünyada hələ ki yalnız "Airbus" şirkətinin tətbiq etdiyi daşınar konteyner tipli məlumat mərkəzi Azərbaycanda elektron məhkəmə sistemi üçün yaradılıb ki, bu da elmin ən son yeniliklərinə əsaslanaraq, həm də fövqəladə hallara qarşı davamlı olmaqla məlumatların təhlükəsizliyinin və etibarlı qorunub saxlanılmasına imkan verir.

Tədbir iştirakçılarına ədliyyə sahəsində tətbiq olunan innovasiyalar, o cümlədən notariat hərəkətlərinin rəsmiləşdirilməsini asanlaşdıran "Elektron notariat" informasiya sistemi, məsafədən notariat xidmətlərinin göstərilməsinə imkan verən elektron ədliyyə köşkü, notariusların xüsusi səyyar çantası, mobil notariat proqram təminatı və digər yeniliklər barədə məlumat verilib.

Sonra sual-cavab sessiyası keçirilərək, iştirakçılar arasında fikir mübadiləsi aparılıb. Vəkillər Kollegiyasının sədri Anar Bağırov, millət vəkili Fazil Mustafa, "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz, Mətbuat Şurasının sədr müavini Umud Mirzəyev, vətəndaş cəmiyyətinin təmsilçiləri Rauf Zeyni, Mirvari Qəhrəmanlı, Novella Cəfəroğlu, Əliməmməd Nuriyev və digərləri çıxış edərək Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən tədbirləri təqdir edib, bu sahədə yeniliklərin geniş ictimaiyyətə təqdim olunmasının əhəmiyyətini vurğulayıb, bu işdə kütləvi informasiya vasitələrinin və vətəndaş cəmiyyətinin dəstək göstərmələrini qeyd ediblər.

Çıxış edənlər həmçinin, hakimlərin və vəkillərin müstəqilliyinin möhkəmləndirilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi, məhkəmələrə ictimai inamın artırılması, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunması, tətbiq olunan elektron sistemlərdən vətəndaşların daha geniş bəhrələnməsi, digər dövlət orqanlarının informasiya sistemlərinə inteqrasiyanın genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüb, elektron məhkəmə sisteminin inkişaf perspektivlərinə dair təkliflər səsləndiriblər.

İctimai təqdimat iştirakçılar tərəfindən maraqla qarşılanıb, qaldırılan suallar ətraflı cavablandırılıb.

## Azərbaycanda elektron məhkəmənin tətbiqi və inkişaf perspektivlərinə həsr olunmuş təqdimatda

# ədliyyə nazirinin müavini Azər Cəfərovun çıxışı

Xanımlar və cənablar!

Vacib bir fəaliyyətin - "Elektron məhkəmə" informasiya sisteminin təqdimatını dinləyib, fikir mübadiləsi aparmaq məqsədilə toplaşmışıq.

Toplantıda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul əməkdaşlarının, Milli Məclisin deputatlarının, vətəndaş cəmiyyəti və kütləvi informasiya vasitələri nümayəndələrinin, alimlərin, dövlət ittihamçıları və vəkillərin iştirakından məmnunluq duyuruq. Hər birinizi salamlayırıq.

Yaşadığımız texnoloji mühi-

tə keçid dövründə elektron məhkəmənin tətbiqi sürətlə aktuallaşmağa başlamışdır. Məsələyə xüsusi diqqət yetirən dövlət başçısı cənab İlham Əliyevin belə bir sistemin yaradılması ilə bağlı 2014-cü ilin fevral Sərəncamı bu işə geniş yol açmışdır.

Ötən dövr ərzində xarici mütəxəssislərin yaxından iştirakı ilə bu sahədə xeyli işlər görülmüş və hazırda sistem Naxçıvan Muxtar Respublikasını da əhatə etməklə ölkə məhkəmələrinin və icra qurumlarının əksəriyyətində tətbiq olunur. Bir az dəqiq desək, məhkəmələrin 61, icra qurumlarının 40 faizində.

Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında dövlət başçısının növbəti, bu ayın əvvəlində imzaladığı Fərmanı isə elektron məhkəmə ilə ölkənin bütün ərazisinin, başqa sözlə, qalan məhkəmə və icra qurumlarının, hətta penitensiar müəssisələrin də əhatə olunmasına və sistemin bütövlükdə ahəng işləməsinin təmin olunmasına yönəlmişdir.

İlk baxışdan işlərin o qədər də intensiv getmədiyi təəssüratı yarana bilər, mətbuatda belə fikirlər səslənibdir. Bununla bağlı bildirmək istərdim ki, sistem əhatəli olmaqla özündə 130 milyona yaxın məlumatı əks etdirir, mürəkkəb mexanizmləri ehtiva edir, çoxsaylı komponentlərdən ibarətdir. Onun fəaliyyətinin təmin edilməsi üçün ciddi hazırlıq işlərinin aparılması, elmi tutumu olan texnikanın mövcudluğu tələb olunur. Bu eyni zamanda uzun sürən prosesdir, məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər uzun yolu əhatə edir.

Fikrimi davam etdirərək bildirim ki, ədalət mühakiməsinin rəqəmsallaşdırılması sahəsində ən böyük nailiyyətlər əldə etmiş ölkələrdən olan Sinqapurda bu işə ötən əsrin 85-ci ilində başlanılıb və proses bu yaxınlara qədər davam edirdi. Ölkəmizə münasibətdə müqayisə üçün yada salım ki, bu ölkə bir şəhərdən ibarətdir, hakimlərinin sayı bizdəkindən bir neçə dəfə azdır və onun bütün birinci instansiya məhkəmələri vahid binada yerləşir. Digər ölkələrdə də məsələn, ABŞ-da bu iş 25 ildən artıqdır ki, aparılır.

Sistemin bəzi məziyyətləri barədə ilkin məlumat yəqin ki, yerinə düşər.

Onlardan biri və ən öncəsi ölkə məhkəmələrinin Vahid Portalıdır. Portal məhkəmələrə müxtəlif məsələlər üzrə elektron qaydada onlayn rejimdə daha rahat müraciət etməyə, cavab almağa, məhkəməyə müraciət nümunələri ilə tanış olmağa imkan verir, çoxsaylı digər funksiyaları yerinə yetirir.

O daim ictimailəşməkdədir. Artıq ona olunan müraciətlərin sayı bir milyon yarıma yaxınlaşmışdır. Müraciətlər Rusiya, Ukrayna, Türkiyə, ABŞ, Braziliya, Kanada, Almaniya, Böyük Britaniya, Fransa, İndoneziya, Hindistan kimi və s. çoxsaylı ölkələrdən də edilir.

"Məhkəmə prosesi iştirakçısının şəxsi kabineti" də elektron məhkəmə sisteminin vacib modullarındandır. Bu kabinet proses iştirakçıları üçün ədalət mühakiməsinə əlçatanlığı daha da asanlaşdırır, hakim və tərəf arasında münasibətləri elektron müstəviyə keçirir. Təbii ki, məhkəmə baxışını tezləşdirir, süründürməçilik hallarının qarşısını alır. Bu kabinetdən istifadə proses iştirakçılarına məhkəməyə sənədləri elektron formatda ötürmək, məhkəmə işinin materialları ilə ətraflı tanış olmaq, proseslər barədə məhkəməyə gəlmədən xəbər tutmaq kimi və s. çoxsaylı imkanlar açır.

Elektron məhkəmənin strukturunda məhkəmə qərarlarının vahid bazası da yer almışdır. Bu bazada yekun məhkəmə qərarları cəmləşir ki, bu da hakimlərə, vəkillərə və digər hüquqşünaslara məhkəmə təcrübəsinə yiyələnməyə şərait yaradır və beləliklə, onlara düzgün qərarlar qəbul olunmasında, müdafiənin düzgün qurulmasında köməklik edir. Düşünürük ki, baza, həm də mübahisə tərəflərinin mediasiyaya üz tutması üçün faydalı olacaqdır.

İcra orqanlarının fəaliyyətinin effektivliyinin artırılması, bu fəaliyyətdə operativliyin və şəffaflığın təmin olunması məqsədilə elektron məhkəmənin tərkib hissəsi kimi yaradılan "Elektron icra" sisteminin də bir çox üstünlükləri vardır. Sistem icra sənədlərinin elektron qeydiyyatını aparır, icra qurumları ilə məhkəmələr arasında kağızsız əlaqələrin qurulmasına, icra işinə elektron nəzarətin həyata keçirilməsinə, müxtəlif dövlət qurumlarının informasiya sistemləri ilə qarşılıqlı

məlumat mübadiləsinin aparılmasına imkan verir.

"Elektron məhkəmə" informasiya sistemi daim əldə olunan təcrübəyə əsasən yenilənir, qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində prosedurlarda baş verən dəyişikliklər orada nəzərə alınır, bir sözlə, inkişafdadır.

Ötən ilin dekabrında qanunvericiliyə mülki və iqtisadi mübahisələr üzrə məhkəmə baxışının təyin edilməsi müddətlərinə, iclasların təxirə salınmasının maksimal həddinə, habelə bəzi kateqoriya işlər üzrə sadələşdirilmiş icraat qaydalarına dair və s. yeniliklər sistemin funksiyalarında dərhal nəzərə alınmışdır.

Yeri gəlmişkən qeyd edim ki, bu dəyişikliklərdən sonra məhkəmələrə iki minə yaxın iddia tələbi elektron versiyada verilmişdir.

Hörmətli tədbir iştirakçıları, elektron məhkəmənin ən vacib komponentləri və innovativ imkanları, məhkəmə qərarlarının icrası sahəsinin elektronlaşdırılması, ədliyyə sahəsində tətbiq olunan digər texnoloji innovasiyalar, elektron ədliyyə infrastrukturunun məlumat təhlükəsizliyi barədə müfəssəl təqdimatlar gözlənildiyindən bu qısa məlumatla kifayətlənmək istərdim.

İndi isə təqdimatları həyata keçirəcək əməkdaşlarımızı təqdim edim. Hakim, "Elektron məhkəmə" informasiya sistemi üzrə işçi qrupun rəhbəri, Avropa Şurasında Komissiyanın prezidenti Ramin Qurbanov, Ədliyyə Nazirliyi İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə, İcra baş idarəsinin Elektron informasiya üzrə qrup rəhbəri Tural Məmmədov, işçi qrupda informasiya texnologiyaları üzrə baş məsləhətçi, isveçli mütəxəssis Qoran Edström.

Qeyd olunan sahələrlə daha sıx işləyən struktur qurumlarımızın rəhbərləri də tədbirdə iştirak edirlər, onlar təqdimat edənlərlə yanaşı sizi maraqlndıran sualları cavablandırmağa çalışacaqlar.

Ümid edirik ki, təqdimatlar maraqlı keçəcək.

Tədbiri aparmaq üçün sözü nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini Aynur xanım Sabitovaya verirəm.

*Diqqətinizə görə sağ olun.*

## Fərmandan irəli gələn məsələlərə dair brifinq

**Ölkə Prezidenti İlham Əliyevin aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı bu sahədə islahatların yeni mərhələdə müasir çağırışlara uyğun və sistemli həyata keçirilməsinə rəvac verib.**

Ədliyyə və məhkəmə sistemi üçün mühüm "yol xəritəsi" olan Fərmanın Ədliyyə Nazirliyi tərəfindən təxirəsalınmadan icrasına başlanılıb, o cümlədən bu mühüm sənədin müstəsna əhəmiyyəti barədə ardıcıl maarifləndirmə tədbirləri, ictimai müzakirələr davam etdirilir.

Aprelin 11-də Ədliyyə Nazirliyinin və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin müasir binasında "Məhkəmə islahatlarında yeni mərhələ" mövzusunda brifinq keçirilib.

Tədbirdə Ədliyyə Nazirliyinin, Məhkəmə-Hüquq Şurasının, Vəkillər Kollegiyasının və Mətbuat Şurasının rəhbər şəxsləri, hakimlər və digər hüquqşünaslar, millət vəkilləri, vətəndaş cəmiyyətinin və çoxsaylı kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Brifinqin açılışında dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanının əhəmiyyəti barədə geniş ictimai müzakirələrin aparıldığı vurğulanıb, hazırkı tədbirin bu mühüm sənədin mahiyyətinin və istiqamətlərinin əhaliyə daha dolğun və ətraflı çatdırılmasında önəmi qeyd olunub.

Sonra nazirliyin aidiyyəti struktur qurumlarının, Məhkəmə-Hüquq Şurası Aparatının rəhbərləri və digər çıxış edənlər məhkəmə-hüquq sistemində aparılan islahatlar və bu islahatların dərinləşməsində Fərmanın müstəsna əhəmiyyəti, qanunvericilik və institusional yeniliklər, alternativ mexanizmlərin təşviqi, vəkilliyin fəaliyyətinin gücləndirilməsi və digər mövzularda çıxışlar ediblər.

Bildirilib ki, dövlət başçısının rəhbərliyi ilə son illər əda-



lət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər davam etdirilir, məhkəmə sistemi müasirləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır, işlərə daha operativ və keyfiyyətlə baxılması, məhkəmələrdə şəffaflığın artırılması və elektron məhkəmə sisteminin tətbiqinin genişləndirilməsi ilə bağlı mühüm işlər görülür.

Bununla əlaqədar məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik daim təkmilləşdirilir, təkcə ötən ilin sonunda dövlət başçısının qanunvericilik təşəbbüsü ilə Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda məhkəmələrin işinin səmərəliliyinin artırılması, məhkəmə icraatının elektron qaydada aparılması, işlərə daha tez və sadələşdirilmiş qaydada baxılması, həmçinin məhkəmə qərarlarının yayılmasının, məhkəmə statistikasının elektronlaşdırılması, vətəndaşların məhkəmələrə onlayn müraciət imkanlarının yaradılması məqsədilə əsaslı dəyişikliklərin edilməsi barədə yeni qanunlar qəbul olunub.

Diqqətə çatdırılıb ki, aprelin 3-də imzalanan Fərman dövlət başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olmaqla məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların tərkib hissəsidir. Kompleks qanunverici, institusional və praktiki tədbirlərin görülməsini nəzərdə tutan Fərmanın icrasının təşkili məqsədilə Ədliyyə Nazirliyi tərəfindən aidiyyəti qurumlarla birgə Əlaqələndirmə Komissiyası yaradılıb, tədbirlər planı təsdiq olunaraq həyata keçirilir.

Brifinqdə Fərmanla Ədliyyə Nazirliyinin üzərinə düşən bir sıra mühüm vəzifələrə toxunulub, o cümlədən ədliyyə və məhkəmə fəaliyyəti, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı yeni qanun layihələrinin hazırlanması, Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin geniş tətbiqi, mediasiya institutunun və beynəlxalq arbitraj prosedurlarının təşviqi, icra və ekspertiza fəaliyyətinin alternativ mexanizmlərinin tətbiqi təcrübəsinin öyrənilməsi ilə bağlı tədbirlərin görülməsi vurğulanıb.

Çıxışlarda dövlət başçısının Fərmanının vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin daha etibarlı təmin olunmasına, ədalət mühakiməsinə ictimai etimadın yüksəlməsinə xidmət etdiyi qeyd olunub, bu mühüm sənədin vaxtında və dürüst icrasının məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsinə, məhkəmələrə kənar müdaxilələrin qarşısının alınmasına, qeyri-prosessual münasibətlərin, süründürməçiliyin və digər neqativ halların yolverilməzliyinin, məhkəmə qərarlarının ədalətliliyinin və vaxtında tam icrasının təmin olunmasına, şəffaflığın artırılmasına, hakimlərin iş yükünün azalmasına, işlərə baxılmasının keyfiyyətinin yüksəlməsinə, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsinə imkan yaradacağı bildirilib.

Sonra sual-cavab sessiyası keçirilib, iştirakçılar arasında fikir mübadiləsi aparılıb, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Tədibirin yekununda Nərimanov Rayon Məhkəməsinin müasir binası və "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə tanışlıq olub, media-tur təşkil edilib.

## ◆ Fərmandan irəli gələn məsələlərin vətəndaş cəmiyyəti institutları ilə ictimai müzakirəsi




**Ölkə Prezidenti İlham Əliyevin aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı məhkəmə sisteminin inkişafına, ədalət mühakiməsinin effektivliyinə və əlçatanlığına, vətəndaş məmnunluğuna xidmət edir.**

Dövlət başçısının proqram xarakterli Fərmanından irəli gələn vəzifələr Ədliyyə Nazirliyinin Kollegiyasında dərhal müzakirə olunub və xüsusi tədbirlər planı qəbul edilərək bu mühüm sənədin icrasına başlanılıb.

İctimaiyyət tərəfindən böyük maraqla və rəğbətlə qarşılanan ədliyyə və məhkəmə sisteminin gələcək inkişafı üçün "yol xəritəsi" olan Fərmanla qarşıda duran vəzifələrin icrasına dair aprelin 8-də Ədliyyə Nazirliyində geniş ictimai müzakirə keçirilib.

Nazirliyin və Mətbuat Şurasının rəhbər şəxslərinin, ədliyyə naziri yanında İctimai Komitə üzvlərinin və digər vətəndaş cəmiyyəti, eləcə də media nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə məhkəmə-hüquq sistemində aparılan islahatlar və bu islahatların dərinləşməsində Fərmanın müstəsna əhəmiyyəti, qanunvericilik və institusional yeniliklər, alternativ mexanizmlərin təşviqi, mediasiya prosesinin tətbiqi ilə bağlı yeni qəbul olunmuş "Mediasiya haqqında" Qanunun mahiyyəti barədə faydalı fikir mübadiləsi aparılıb.

Ədliyyə Nazirliyinin aidiyyəti struktur qurumlarının rəhbərləri çıxışlar edərək ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq son illər həyata keçirilən tədbirlər, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, məhkəmələrə əlçatanlığın asanlaşdırılması, infrastrukturun müasirləşdirilməsi, məhkəmə qərarlarının icrasının yaxşılaşdırılması, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin tətbiqi, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı görülən işlər barədə məlumat verib, dövlət başçısının Fərmanının bu sahədə islahatların yeni mərhələdə, müasir çağırışlara uyğun və sistemli davam etdirilməsini şərtləndirdiyini vurğulayıblar.

Mətbuat Şurasının və vətəndaş cəmiyyətinin təmsilçiləri imzalanan Fərmanın ölkə Prezidentinin məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olduğunu qeyd edərək, bu mühüm sənədin vətəndaşların hüquqlarının məhkəmə müdafiə-

sinin daha etibarlı təmin olunmasına, ədalət mühakiməsinə ictimai etimadın yüksəlməsinə xidmət etdiyini söyləyiblər.

Bildirilib ki, məhkəmə-hüquq sistemində kompleks qanunverici, institusional və praktiki tədbirlərin görülməsini nəzərdə tutan Fərmanda verilmiş tapşırıq və tövsiyələrin vaxtında və dürüst icrası məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsinə, məhkəmələrə kənar müdaxilələrin qarşısının alınmasına, qeyri-prosessual münasibətlərin, süründürməçiliyin və digər neqativ halların yolverilməzliyinin, məhkəmə qərarlarının ədalətliliyinin və vaxtında tam icrasının təmin olunmasına, şəffaflığın artırılmasına, hakimlərin iş yükünün azalmasına, işlərə baxılmasının keyfiyyətinin yüksəlməsinə, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsinə imkan yaradacaqdır.

Eyni zamanda, mübahisələrin məhkəmədən kənar həlli üsullarından olan mediasiyanın ölkəmizdə tətbiqi ilə bağlı qəbul olunmuş "Mediasiya haqqında" yeni Qanunun əhəmiyyətindən danışılıb, bu institutun mülki işlər və iqtisadi, ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəməyə getmədən tərəflərin qarşılıqlı razılığı ilə həllində rolu qeyd olunub, onun tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədini daşıdığı vurğulanıb. Qeyd olunub ki, mediasiyanın düzgün və səmərəli tətbiqi həm də məhkəmələrdə iş yükünün xeyli azalmasına səbəb olacaqdır.

Tədbirdə dövlət başçısının Fərmanının və "Mediasiya haqqında" Qanunun ayrı-ayrı məqamları barədə faydalı diskussiyalar aparılıb, bir sıra təkliflər səsləndirilib.

## ◆ Fərmanın icrası çərçivəsində alternativ icra mexanizmlərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi

**Ölkə Prezidenti cənab İlham Əliyevin aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanından irəli gələn vəzifələrin Ədliyyə Nazirliyi tərəfindən təxirəsalınmadan icrasına başlanılaraq konkret tədbirlər müəyyən edilib.**



Litva Ədliyyə Nazirliyində görüş

Dövlət başçısının Fərmanında məhkəmə qərarlarının icrasının effektivliyinin artırılması, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, alternativ icra mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi barədə verilmiş tapşırığa uyğun olaraq Ədliyyə Nazirliyinin rəhbər şəxslərindən və hakimlərdən ibarət nümayəndə heyəti Litvada tanışlıq səfərində olub.

Səfər zamanı "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin tətbiqi, özəl icra qurumlarının fəaliyyəti ilə bağlı Litvanın təcrübəsi ilə tanışlıq olub, bu ölkənin ədliyyə naziri vəzifəsini müvəqqəti icra edən nazirin müavini Zydrunas Plytnikas, Ali Məhkəmənin sədri Rimvydas Norkus, Ali İnzibati Məhkəməsinin sədri Ramunas Gadliauskas, Milli Məhkəmə Administrasiyasının direktoru Reda Moliene, Ədliyyə Nazirliyinin Özəl İcra Qurumları üzrə Departamentinin rəisi Jolita Sinkeviciute və digər rəsmi şəxslərlə görüşlər keçirilib, Litvanın məhkəmə sistemi, icra xidmətinin işinin spesifik xüsusiyyətləri, məhkəmə və icra sahəsində istifadə olunan elektron sistemlərin funksionallıqları barədə təqdimatlar keçirilib, səmərəli müzakirələr aparılıb.

Görüşlərdə hər iki ölkədə

ədliyyə və məhkəmə sistemində aparılan islahatlar barədə faydalı fikir və təcrübə mübadiləsi aparılıb, bu sahədə əldə olunan nailiyyətlərə və tətbiq olunan yeniliklərə qarşılıqlı maraq göstərilib.

Nümayəndə heyətinə Litvada özəl icra qurumlarının fəaliyyətinin təşkili və icra məmurlarına Ədliyyə Nazirliyinin keçirdiyi müsabiqə əsasında müvafiq lisenziyaların verilməsi, icra məmurlarının köməkçiləri institutu, icraata daxil olan icra sənədlərinə və şikayətlərə baxılması, onların təmin olunması mexanizmi, icra hərəkətlərinin elektron sistem vasitəsilə həyata keçirilməsi barədə ətraflı məlumat verilib, bu sahədə qanunvericilik aktları ilə tanış olunub.

# Ədliyyə naziri Bərdədə vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**




Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin yerlərdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq aprelin 12-də ədliyyə naziri Fikrət Məmmədov Bərdə rayonunda Bərdə, Tərtər, Ağdam və digər rayonlardan olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri yerli ədliyyə orqanlarının və məhkəmənin işi, habelə Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi Bərdə "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Nazir müşavirədə ədliyyə fəaliyyətinin dövlət başçısının tələbləri səviyyəsində təkmilləşdirilməsi, xüsusilə icra işinin yaxşılaşdırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tapşırıq və tövsiyələr verib. Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyətini qeyd edən nazir bu mühüm sənədin ədliyyə və məhkəmə fəaliyyətinin gələcək inkişafı üçün "yol xəritəsi" olduğunu, bu sahədə islahatların yeni inkişaf mərhələsinə keçdiyini vurğulayıb, kompleks qanunvericilik, institusional və praktiki tədbirlər nəzərdə tutan proqram xarakterli Fərmanından irəli gələn vəzifələrin vaxtında, dürüst və dönmədən icrasının təmin olunmasını diqqətə çatdırıb.

# CISCO şirkətinin nümayəndə heyəti ilə görüş




**Aprelin 25-də Ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

IT texnologiyaları sahəsində dünyada tanınmış lider şirkətlərdən olan CISCO-nun Azərbaycanla səmərəli əməkdaşlığından məmnunluğunu ifadə edən nazir ölkə Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi ilə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, bu sahədə tətbiq olunan rəqəmsal texnologiyalar, o cümlədən "Elektron məhkəmə" informasiya sisteminin, probasiya fəaliyyətində elektron nəzarət vasitələrinin - elektron qolbağın tətbiqi, elektron ədliyyə köşkü və digər innovasiyalar barədə ətraflı məlumat verib.

Dövlət başçısının aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının bu istiqamətdə işlərin yeni mərhələsi olmaqla daha sistemli və müasir çağırışlara uyğun həyata keçirilməsinə, qabaqcıl texnologiyaların geniş tətbiqinə təkan verdiyi vurğulanaraq bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsini şərtləndirdiyi qeyd olunub.

CISCO-nun vitse-prezidenti vurğulayıb ki, Azərbaycanda həm möhkəm sabitlik var, həm də ölkə Prezidenti dünyada nadir liderlərdəndir ki, müasirliyə, rəqəmsallaşmaya xüsusi önəm verir və bu, dövlət siyasətinin mühüm istiqamətlərindədir. Bütün bunları nəzərə alaraq Azərbaycanla əməkdaşlıq etmək bizim əsas prioritetlərimizdəndir.

Qonaq həmçinin, dövlətimizin başçısı ilə görüşlərində Prezident tərəfindən ölkədə bütün sahələrdə, o cümlədən ədliyyə fəaliyyətində müasir texnologiyaların tətbiqinə böyük diqqət göstərildiyinin və bunun təzahürü olaraq Azərbaycana səfərlər edərkən dinamik proqresə nail olunmasının şahidi olduğunu söyləyib. Q.Didrix ədliyyə və məhkəmə sistemində yenilikləri böyük maraqla qarşılayaraq əldə olunan nailiyyətlərdən heyranlığını ifadə edib və bu münasibətlə Azərbaycan tərəfini təbrik edib. O, ölkəmizin qabaqcıl təcrübəsinin bir çox digər dövlətlər üçün örnək olmaqla faydasını vurğulayıb, qarşılıqlı fəaliyyətin genişləndirilməsinə və həyata keçirilən islahatlara dəstək verməyə hazır olduqlarını qeyd edib.

Görüşdə CISCO şirkətinin ədliyyə və məhkəmə sistemində həyata keçirdiyi layihələr, o cümlədən IT texnologiyaları üzrə tədris və digər qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

# Ədliyyə Akademiyasının beynəlxalq əlaqələri genişlənir

**Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərlə beynəlxalq hüquq əməkdaşlığının dərinləşdirilməsinə böyük əhəmiyyət verilir, o cümlədən Ədliyyə Akademiyasının Avropanın tanınmış institutları ilə təcrübə mübadiləsi sahəsində əlaqələri genişlənir.**



Ədliyyə Nazirliyində görüş



"Moldova Milli Ədliyyə İnstitutu ilə Ədliyyə Akademiyası arasında əməkdaşlıq" haqqında Memorandumun imzalanması

Aprelin 3-4-də Moldova Milli Ədliyyə İnstitutunun direktoru Diana Skobioalanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olub.

Səfər zamanı Ədliyyə Akademiyasında nümayəndə heyəti ilə görüş keçirilib, qonaqlar akademiyanın fəaliyyəti ilə tanış olublar. Qarşılıqlı fəaliyyəti daha da dərinləşdirmək məqsədilə "Moldova Milli Ədliyyə İnstitutu ilə Ədliyyə Akademiyası arasında əməkdaşlıq" haqqında Memorandum imzalanıb. Memorandumun implementasiyası çərçivəsində hakimlər və prokurorlar, hakimliyə və prokurorluğa namizədlər, ədliyyə sahəsində işləyən digər kateqoriya şəxslər üçün yüksək keyfiyyətli tədrisin təşviqi, tərəflərin ən yüksək standartlara uyğun olaraq məhkəmə tədrisinin təmin edilməsi üzrə potensialın artırılması nəzərdə tutulur.

Ədliyyə nazirinin müavini Azər Cəfərov ilə görüşən qonaqlar ölkəmizə səfərlərindən məmnunluqlarını bildirib, Azərbaycan və Moldova arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin müxtəlif, o cümlədən hüquqi sahədə inkişafını vurğulayıblar. İki ölkənin təhsil qurumları arasında imzalanmış Memorandumun uğurla icra olunacağına və qarşılıqlı fəaliyyətə əlavə töhfələr verəcəyinə əminlik ifadə olunub.

Moldova nümayəndə heyəti nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub.

Səfər çərçivəsində İnstitutun direktoru xanım D.Skobioala Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə Bakıda insan alverinə qarşı mübarizəyə dair keçirilmiş beynəlxalq seminarda iştirak edib və "İnsan alverinə qarşı mübarizə sahəsində hakimlərin və prokurorların təlimləndirilməsi" mövzusunda təqdimatla çıxış edib.

Qonaqlar həmçinin Bakının müasir rəmzlərindən sayılan möhtəşəm Heydər Əliyev Mərkəzi ilə də tanış olub.

# Özbəkistanla ədliyyə sahəsində səmərəli əməkdaşlıq edilir






**Aprelin 25-26-da Özbəkistanın paytaxtı Daşkənd şəhərində Daşkənd Hüquq Baharı Beynəlxalq Forumu keçirilib.**

Dünyanın 44 ölkəsindən 1000-dən çox nümayəndənin, o cümlədən ədliyyə, məhkəmə və digər orqanların, maliyyə institutlarının rəhbərlərinin, hakimlərin, vəkillərin və elm xadimlərinin qatıldığı Forumda Azərbaycan Ədliyyə nazirinin müavini Məhərrəm Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Tədbiri giriş nitqi ilə Özbəkistanın Ədliyyə naziri Ruslanbəy Dövlətov açıb. İnteraktiv dialoq şəraitində aparılan tematik konfranslar və dəyirmi masalarda müasir dünyada konstitusiya hüququnun rolu, qanun yaradıcılığı prosesi, hüquqi yardımın əlçatanlığı, məhkəmə ekspertizası fəaliyyəti, o cümlədən özəl ekspertiza, bu sahədə beynəlxalq əməkdaşlıq, korrupsiyaya qarşı mübarizə və digər bir çox aktual mövzular üzrə faydalı fikir və təcrübə mübadiləsi aparılıb.



Özbəkistanın Ədliyyə naziri Ruslanbəy Dövlətov ilə görüş

Forumda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlar və tətbiq olunan yeniliklər, o cümlədən elektron ədliyyə köşkü, elektron məhkəmə və elektron icra informasiya sistemlərinin tətbiqi, probasiya xidmətinin fəaliyyəti, bu sahədə innovasiyaların hüquq elminə və dövlət idarəçiliyinə təsiri məsələləri iştirakçıların diqqətinə çatdırılıb.

Səfər çərçivəsində Özbəkistanın Ədliyyə naziri R.Dövlətovla görüş keçirilib. Görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub, hər iki dövlətdə ədliyyə sahəsində aparılan islahatlar barədə faydalı fikir mübadiləsi aparılıb, Azərbaycan təcrübəsinə böyük maraq göstərilib. Ölkələrimizin ədliyyə orqanları arasında əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb, qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə edilib.

Dövlətimizin başçısının məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq səfər zamanı nümayəndə heyətimiz Özbəkistan Ədliyyə Nazirliyinin yeni inşa olunmuş Respublika Məhkəmə Ekspertizası Mərkəzinin binasına baş çəkərək fəaliyyəti və iş şəraiti ilə tanış olub, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

# Ədliyyə Nazirliyinin nümayəndə heyəti beynəlxalq konfransda iştirak edib



**Aprelin 24-25-də Fransanın Strasburq şəhərində Avropa Şurasının mənzil qərargahında İnsan Hüquqları və Qanunun Aliliyi Baş direktorluğunun təşkilatçılığı ilə "Həbsxanalarda sıxlıq probleminə cavablar" mövzusunda konfrans keçirilib.**

Avropa Şurasının üzv və müşahidəçi ölkələrinin həbsxana və probasiya xidmətlərinin, beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələrinin, eləcə də penitensiar sahədə çalışan və beynəlxalq səviyyədə tanınmış ekspertlərin iştirak etdikləri tədbirdə ölkəmizi Azərbaycanın ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi Ceyhun Həsənovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Konfransda həbsxanada sıxlıqla bağlı Avropa məkanında mövcud vəziyyət təhlil edilib, məhkum kontingentinin sayının azaldılması məqsədilə vaxtından əvvəl şərti azad olunma institutunun və məhkəmələr tərəfindən alternativ cəza növlərinin tətbiqi, elektron nəzarətin həyata keçirilməsi, əcnəbi məhkum və həbs edilmiş şəxslərin öz ölkələrinə təhvil verilməsi və ekstradisiyası, bununla əlaqədar prosedurların tezləşdirilməsi mövzuları ətrafında ətraflı müzakirələr aparılıb.



Tədbirdə həmçinin məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması və sosial reabilitasiyası, həbsxanaların idarə olunmasının təkmilləşdirilməsi, müasir idarəetmə üsullarının tətbiqi, Avropa konvensiyalarının, xüsusilə məhkum və həbs edilmiş şəxslərin hüquqlarının qorunması, məhkum mübadiləsinə dair beynəlxalq sənədlərin yerli qanunvericiliyə implementasiyası mövzuları ilə bağlı maraqlı fikirlər səsləndirilib. Sessiyalar zamanı cinayət hüququ və həbsxanalarda sıxlıqla bağlı beynəlxalq əməkdaşlıq mövzusunda çıxış edən məruzəçilər öz ölkələrinin təcrübəsi ilə bölüşüblər.

Yekunda konfransda əldə edilmiş əsas nəticələri özündə əks etdirən ümumi sənəd qəbul edilib.

Səfər çərçivəsində C.Həsənov Avropa Şurasının İnformasiya cəmiyyəti və cina-

yətkarlıqla mübarizə idarəsinin direktoru Yan Kleyssen, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) prezidenti Mikola Qnatovski, habelə bir sıra üzv ölkələrin penitensiar xidmət və probasiya xidmət nümayəndələri ilə ikitərəfli görüşlər keçirib. Görüşlər zamanı ölkə Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamı və 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn vəzifələrin icrası, Azərbaycanın ədliyyə sistemində, o cümlədən penitensiar və probasiya sahəsində aparılan mütərəqqi islahatlar, qanunvericiliyin təkmilləşdirilməsi barədə müfəssəl məlumat verilib, qarşılıqlı səmərəli əməkdaşlıq perspektivləri və digər maraq doğuran məsələlər müzakirə edilib.

# Ümumdünya Səhiyyə Təşkilatının nümayəndəsi ilə Penitensiar xidmətdə görüş

**Aprelin 10-da Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosunda Səhiyyə sistemləri və ictimai sağlamlığın qorunması şöbəsinin direktoru, geniş dərmanlara davamlı vərəmlə mübarizə və profilaktika üzrə regional direktorun xüsusi nümayəndəsi Dr.Hans Kluge ilə Ədliyyə Nazirliyi Penitensiar Xidmətində görüş keçirilib.**



Qonaqları salamlayan ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov müxtəlif mötəbər qurumlarla, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlığın tarixindən, görülmüş işlər, əldə edilmiş uğurlu nəticələr barədə danışıb, ikitərəfli əlaqələrə verilən qiymətə və penitensiar sahədə islahatlara göstərilən dəstəyə görə öz minnətdarlığını bildirib. Qeyd olunub ki, Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla birgə bütün istiqamətlərdə, o cümlədən, ədliyyə sistemi üzrə də islahatların həyata keçirilməsini davam etdirir. Son illər ərzində məhkumların hüquqlarının təmin olunması, penitensiar infrastrukturun müasirləşdirilməsi, səmərəli ictimai nəzarət mexanizminin tətbiqi istiqamətində, eləcə də məhkumların tibbi təminatında köklü dəyişikliklər aparılıb. Nazir müavini Prezident İlham Əliyevin və Birinci Vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə səhiyyə sahəsində həyata keçirilən islahatların penitensiar sahəni də əhatə etdiyini, bunun nəticəsi olaraq cəzaçəkmə müəssisələrində vərəmə yoluxma hallarının sayında kəskin enmə müşahidə olunduğunu, vərəmdən ölüm hallarının isə 100 dəfə azaldığını söyləyib.

Bu sahədə 25 illik təcrübəyə malik olduğunu qeyd edən Dr. Hans Kluge bilik və bacarıqlarını, eləcə də idarəetmə xüsusiyyətlərini nəzərə alaraq Belçika dövləti tərəfindən onun Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorluğuna namizədliyinin irəli sürüldüyünü bildirib. H.Kluge Azərbaycanda dövlət başçısı tərəfindən səhiyyəyə göstərilən diqqət və qayğını yüksək dəyərləndirdiyini və qarşılıqlı əməkdaşlıqdan məmnunluğunu qeyd edib.

Nazir müavini sentyabrın 16-19-da Kopenhagendə Avropa Regional Komitəsinin xüsusi iclasında keçiriləcək seçkilərdə Dr. Hans Klugeyə uğurlar arzulayaraq, gələcəkdə əməkdaşlığın davam etdiriləcəyinə əminliyini ifadə edib.

Görüşdə Belçika Krallığının Bakıdakı Səfirliyinin nümayəndəsi, Penitensiar xidmətin və Tibb baş idarəsinin məsul əməkdaşları iştirak ediblər.

# Ədliyyə orqanlarında vətəndaşlara xidmət səviyyəsi yüksəlir






Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, əhaliyə göstərilən hüquqi xidmətlərin səviyyəsinin artırılması və müraciət imkanlarının asanlaşdırılması məqsədilə 14 elektron informasiya sistemləri tətbiq olunur. Həmçinin vətəndaşlara göstərilən 30-dan çox elektron xidmətlərdən istifadənin sayı 11 milyonu ötüb.

Vətəndaşlara daha çox xidmətlərin göstərildiyi notariat fəaliyyətinin müasir tələblərə uyğun təkmilləşdirilməsi, bu sahədə innovasiyaların geniş tətbiqi məqsədi ilə dövlət başçısının təşəbbüsü ilə 15.11.2018-ci ildə "Notariat haqqında" Qanuna əsaslı dəyişikliklər edilib. Yeni Qanuna əsasən məsafədən xidmətlərin göstərilməsini mümkün edən elektron ədliyyə köşkü yaradılıb, təxirə salınmadan ədliyyə xidmətlərinə ehtiyac yarandığı yerlərdə, o cümlədən sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılacaq köşklər notariuslarla videoəlaqə vasitəsi ilə notariat hərəkətlərinin rəsmiləşdirilməsinə və sənədlərin bilavasitə yerində əldə edilməsinə şərait yaradacaq və bu günlərdə Heydər Əliyev Beynəlxalq Aeroportunda elektron ədliyyə köşkü istifadəyə verilib.

Eyni zamanda, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün müasir avadanlıqla təchiz olunan "Elektron notariat" informasiya sisteminə birbaşa çıxışı olan xüsusi çanta və dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan bütün notariat fəaliyyətinə dair mobil telefona yüklənən proqram təminatı hazırlanıb.

Həyata keçirilən tədbirlərin davamı olaraq notariat əməliyyatları ilə bağlı rəsmiləşdirilmiş çoxsaylı sənədlərin vahid məkanda toplanaraq saxlanılmasını təmin edən, habelə bu sənədlərdən yararlanmaq imkanını asanlaşdıran Dövlət notariat arxivi üçün yeni müasir xidmət sahəsi istifadəyə verilib.

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi tərəfindən Ədliyyə Nazirliyi ilə əməkdaşlıq çərçivəsində arxivin yeni infrastrukturu zəruri avadanlıqlarla təchiz edilib. Ötən əsrin 20-ci illərindən başlayaraq son dövrlərədək rəsmiləşdirilməsi aparılmış 1,5 milyona yaxın sənədlərin mühafizəsi üçün daha əlverişli şərait yaradılmış, o cümlədən sənədlərin saxlanılmasını təmin edən 750 stellaj quraşdırılıb.

Aprelin 3-də yeni xidmət sahəsinin istifadəyə verilməsi ilə bağlı təqdimat keçirilib.

Tədbirdə nazirliyin Qeydiyyat və notariat baş idarəsinin rəisi İlqar Məmmədov iki yüz ilə yaxın tarixi olan notariatın keçdiyi inkişaf yolundan və vətəndaşlara mülki hüquq münasibətlərindən irəli gələn məsələlərin həllində mühüm rolundan bəhs edib, bu sahədə aparılan islahatların və tətbiq

olunan yeniliklərin əhaliyə göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, ədliyyə orqanlarına əlçatanlığın asanlaşdırılmasına və şəffaflığın artırılmasına yönəldiyini vurğulayıb, nazirliyin rəhbərliyinin notariat arxivində yaradılan müasir şəraitlə tanış olduğunu və müvafiq tapşırıqlar verdiyini bildirib, göstərilən dəstəyə görə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinə təşəkkürünü ifadə edib.

Tədbirdə iştirak edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral ölkələrimiz arasında dostluq və qardaşlıq ələqələrinin böyük tarixə malik olduğunu vurğulayaraq, vətəndaşların maraqlarının qorunması işində xüsusi əhəmiyyətə malik Dövlət notariat arxivinin işinin müasir tələblər səviyyəsində təşkilini təqdir edib.

Sonda yeni xidmət sahəsində yaradılan şəraitlə tanışlıq olub.

# On milyonuncu vətəndaşa doğum haqqında şəhadətnamə təntənəli təqdim olunub

**2019-cu il aprelin 6-da respublikamızın on milyonuncu vətəndaşının dünyaya gəlməsi ilə Azərbaycan artıq demoqrafik inkişaf baxımından nəinki keçmiş sovet ittifaqı dövlətləri, həmçinin bir çox Avropa dövlətləri arasında liderə çevrilib.**

Bu əlamətdar hadisə münasibəti ilə ölkə başçısı cənab İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Azərbaycan xalqını və körpənin valideynlərini təbrik edərək xeyir-duasını veriblər.

Aprelin 10-da körpənin valideynləri Rauf Həsənov və Nigar Ocaqova Ədliyyə Nazirliyinin Bakı şəhəri Nərimanov rayon qeydiyyat şöbəsinə gələrək ilk övladlarının adını məhz Mehriban xanım Əliyevanın şərəfinə Mehriban adlandırılmasını bildiriblər.

Valideynlər Azərbaycanın birinci xanımının analara və uşaqlara daim həssaslıqla yanaşdığını qeyd edib, onlara göstərilən qayğıya görə dövlətimizin başçısına və xanımına minnətdarlıqlarını ifadə ediblər.

Qeydiyyat şöbəsində on milyonuncu vətəndaşımız Mehriban Həsənovanın doğum haqqında şəhadətnaməsi təntənəli şəraitdə valideynlərinə təqdim edilib.

Sonda valideynlər təbrik edilib, onlara xatirə hədiyyəsi təqdim olunub, övladlarına uzun ömür və uğurlu gələcək arzulanıb.







# Ədliyyə sahəsində innovasiyalara dair brifinq keçirilib






**Ədliyyə və məhkəmə fəaliyyəti barədə ictimaiyyətin daha geniş məlumatlandırılması məqsədilə Ədliyyə Nazirliyinin Azərbaycan Mətbuat Şurası ilə birgə nazirliyin ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə ardıcıl tədbirlər davam etdirilir.**

Aprelin 10-da Bakı Biznes Mərkəzində nazirliyin qeydiyyat və notariat fəaliyyəti, tətbiq olunan informasiya-kommunikasiya texnologiyaları, elektron sistemlər və müxtəlif reyestrlər barədə növbəti brifinq keçirilib.

Tədbirdə nazirliyin aidiyyəti struktur qurumlarının, Mətbuat Şurasının rəhbərliyi, millət vəkilləri, ədliyyə naziri yanında İctimai Komitənin üzvləri və digər vətəndaş cəmiyyəti, eləcə də çoxsaylı KİV nümayəndələri iştirak ediblər.

Brifinqi açan nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini Aynur Sabitova və Mətbuat Şurasının sədri Əflatun Amaşov açıq hökumətin təşviqi prinsipindən irəli gələrək əhalinin mütəmadi maariflərdirilməsi işində vətəndaş cəmiyyəti institutları və

















kütləvi informasiya vasitələrinin mühüm rolunu qeyd edib, tədbirin əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, fəaliyyətini hər zaman şəffaflıq və aşkarlıq prinsipləri əsasında quran Ədliyyə Nazirliyi media orqanları ilə əməkdaşlığa daim xüsusi önəm verir və nazirliyin bütün fəaliyyət istiqamətləri barədə brifinqlərin keçirilməsi mütəmadi xarakter daşıyır.

Sonra nazirliyin Qeydiyyat və notariat baş idarəsinin rəisi İlqar Məmmədov, İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səməd-zadə və digər çıxış edənlər bu sahələrdə fəaliyyətin təşkili, həyata keçirilən islahatlar və yeniliklərdən bəhs ediblər.

Brifinqdə ədliyyə və məhkəmə sahəsində tətbiq olunan innovasiyalarla tanış olan media nümayəndələri notariat hərəkətlərinin rəsmiləşdirilməsində tətbiq olunan rəqəmsal texnologiyalar, o cümlədən notariat ofislərini vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi barədə məlumat verilib. Ölkə Prezidenti cənab İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə ötən ilin noyabrında qəbul edilmiş "Notariat haqqında" Qanuna edilən əsaslı dəyişikliklərin daha müasir texnologiyaların və innovasiyaların tətbiqinə geniş imkan yaratdığı qeyd olunub.

Daha sonra məsafədən xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün müasir avadanlıqla təchiz olunan "Elektron notariat" informasiya sisteminə birbaşa çıxışı olan notariusların xüsusi səyyar çantaları, habelə bu

yaxınlarda istifadəyə verilmiş elektron ədliyyə köşkü barədə məlumat verilib.

Bununla yanaşı, ölkə başçısının rəhbərliyi ilə sahibkarlıq sahəsində həyata keçirilən islahatlar, onların səmərəli fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, bu sahədə yoxlamaların dayandırılması ilə bağlı qəbul etdiyi fərman və sərəncamlar, qanunvericiliyə edilmiş mütərəqqi dəyişikliklərə əsasən iştirakçısı olduqları müqavilələr üzrə öhdəliklərin notariusun icra qeydi əsasında sadələşdirilmiş elektron qaydada həyata keçirilməsi imkanları xüsusilə vurğulanıb.

Həmçinin vətəndaşların ailə və mülki hüquq münasibətlərindən yaranan sənədlərin toplanmasını və mühafizəsini həyata keçirən Dövlət notariat arxivinin və Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin fəaliyyəti işıqlandırılıb. Bildirilib ki, hazırda vətəndaşlıq vəziyyəti haqqında akt qeydlərinin avtomatlaşdırılmış qaydada aparılması 15 milyona yaxın arxiv sənədlərinin rəqəmsallaşdırılması nəticəsində mümkün olub.

Görülən tədbirlər sırasında ailə nikah münasibətlərinin qorunub saxlanmasına xidmət edən, vətəndaş cəmiyyəti institutları ilə birgə layihə çərçivəsində qeydiyyat şöbələrində təşkil olunan psixoloqların mediasiya xidmətlərinin sosial əhəmiyyəti barədə danışılıb.

Qeyd olunub ki, ötən ilin sentyabr ayından verilməsinə başlanılmış yeni nəsil şəxsiyyət vəsiqələrinin elektron daşıyıcısındakı məlumatlar "Əhalinin Dövlət Reyestri" informasiya sistemindən əldə edilir, keçən əsrdə müxtəlif əlifba ilə tərtib edilmiş vətəndaşlıq vəziyyəti aktları barədə milyonlarla məlumatların eyniləşdirilməsi həyata keçirilməklə mötəbərliyi təmin edilir.

Brifinqdə həmçinin, ədliyyə orqanları tərəfindən əhaliyə 30-dan çox elektron xidmətlərin göstərilməsi, onların səmərəliliyinin artırılması və tətbiqinin genişləndirilməsi vurğulanıb.

İnnovativ həllərin tətbiqinin məhkəmələrin fəaliyyətində də geniş vüsət aldığı, "Elektron məhkəmə" informasiya sisteminin vətəndaşların məhkəmələrə elektron müraciət imkanlarını yaratdığı, ədalət mühakiməsinin əlçatanlığını asanlaşdırdığı qeyd olunub.

Çıxış edən millət vəkilləri, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri və kütləvi informasiya vasitələrinin rəhbərləri bildiriblər ki, bu cür tədbirlər dövlət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir. Ədliyyə Nazirliyi ilə Mətbuat Şurasının təşkil etdiyi görüş KİV-lə nazirlik arasında əməkdaşlığın genişləndirilməsi, habelə bu sahədə görülmüş işlər barədə ictimaiyyətin dolğun məlumatlandırılması baxımından vacib əhəmiyyət kəsb edir.

Brifinqdə sual-cavab sessiyası keçirilib, iştirakçılar arasında fikir mübadiləsi aparılıb, media ilə əlaqələrin əhəmiyyəti, qarşılıqlı fəaliyyətin zəruriliyi və əməkdaşlığın prioritet istiqamətləri müzakirə olunub, jurnalistlərin sualları cavablandırılıb.

# Notariat sahəsində beynəlxalq əlaqələr genişlənir

**Azərbaycan-Belarus dostluq və səmərəli əməkdaşlıq münasibətlərində hüquqi əlaqələr xüsusi yer tutur. Belə ki, iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair mühüm sazişlər imzalanaraq uğurla icra olunur, nümayəndə heyətlərinin mübadiləsi aparılır, birgə tədbirlər keçirilir.**

Minsk şəhərində Belarusda notariat sahəsində islahatların 5 illiyi münasibətilə "XXI əsrin notariatı: Qlobal tendensiyalar və milli həllər" mövzusunda beynəlxalq konfrans keçirilib.

Belarus dövlət orqanları təmsilçilərinin, vəkillərin və ali təhsil müəssisələri nümayəndələrinin, eləcə də Rusiya Federasiyası, Almaniya, Fransa, Macarıstan, Litva, Avstriya, Estoniya, Gürcüstan, Serbiya, Bolqarıstan, Ukrayna, Türkiyə və Qazaxıstan notariat palataları rəhbərlərinin və ya üzvlərinin, həmçinin notariusların qatıldığı tədbirdə Azərbaycan Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinin əməkdaşı Zaur Həsənov və Bakı şəhərinin xüsusi notariusu Süleyman Məmmədov iştirak ediblər.




Konfransı giriş sözü ilə açan Belarus Notariat Palatasının sədri Natalya Borisenko notariatın özünüidarəetmə prinsipi əsasında fəaliyyətinin son 5 illik nəticələri, əldə edilmiş nailiyyətlər və gələcək inkişafı perspektivləri barədə məlumat verib.

Belarus Respublikasının Prezidenti Administrasiyasının rəhbərinin müavini Valeriy Mitskeviç, ədliyyə naziri Oleq Slijevski, Ali Məhkəmənin sədr müavini Andrey Zabara və Milli Şuranın Nümayəndələr Palatası Qanunvericilik üzrə Daimi Komitəsinin sədri Natalya Quyvik notariat müasir fəaliyyətini müsbət qiymətləndirib, ötən dövrdə notariat xidmətinin keyfiyyətinin və əlçatanlığının artırıldığını qeyd ediblər.

Tədbirdə ictimai-iqtisadi yeniliklərin ənənəvi notariat sisteminin fəaliyyət və inkişafına təsiri, notariusların işində müasir informasiya texnologiyalarının və innovativ həllərin tətbiqinin genişləndirilməsi, notariat fəaliyyətində hüquqi yeniliklərə dair məsələlər müzakirə olunub. xarici dövlətlərin müsbət təcrübələri barədə məruzələr dinlənilib, səmərəli fikir mübadiləsi aparılıb.

Azərbaycanın nümayəndə heyəti tərəfindən çıxış edilərək son illər ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafı çərçivəsində notariat sahəsində aparılan islahatlar, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi barədə geniş məlumat verilib. Tətbiq olunan yeniliklərə və əldə olunan nailiyyətlərə dair keçirilən təqdimatlar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Bu barədə Belarus notariat palatasının internet səhifəsində xəbərlərdə də xüsusilə vurğulanıb (http://belnotary.by/novosti/novosti-bnp/notariat-xxi-globalnye-tendentsii-i-natsionalnye-resheniya-news/).

Türkiyə, Qazaxıstan, Qırğızıstan, Moldova və Serbiya nümayəndələri Azərbaycanın müsbət təcrübəsinin öyrənilməsinə xüsusi maraq göstərib və bu məqsədlə tanışlıq səfərlərinin həyata keçirilməsi ilə bağlı niyyətlərini ifadə ediblər.

Səfər çərçivəsində əlamətdar hadisə münasibətilə təşkil olunmuş ziyafətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təbriki diqqətə çatdırılıb.

# Ədliyyə Akademiyasının məlumatları

## ◆ İnsan alveri ilə mübarizə üzrə beynəlxalq seminar

**"Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə milli potensialın artırılması" layihəsi çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Nümayəndəliyi və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə aprelin 3-4-də "Hyatt Regency" otelində "Cinayət istintaq orqanlarının insan alveri ilə mübarizə sahəsində rolu" mövzusunda beynəlxalq seminar keçirilib.**

Tədbirin keçirilməsində əsas məqsəd Azərbaycan hökumətinin insan alverinə qarşı mübarizəsinin və insan alveri qurbanlarının müdafiəsinin daha effektiv aparılması üzrə potensialın artırılmasıdır.





Ümumilikdə 40 nəfərdən çox nümayəndənin, o cümlədən bir sıra xarici ölkələrin və beynəlxalq qurumların təmsilçilərinin qatıldığı beynəlxalq seminarda hakimlər, prokurorlar, vəkillər, həmçinin, Ədliyyə və Daxili işlər nazirliklərinin əməkdaşları və media nümayəndələri iştirak ediblər.

Seminarı giriş nitqi ilə Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Heydər Heydərov, Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin müşaviri Simona Qatti və Beynəlxalq Miqrasiya Təşkilatı Azərbaycan üzrə təmsilçisi Vladimir Qjorqjiev açaraq, beynəlxalq, regional və yerli səviyyədə insan alveri ilə mübarizə sahəsində əməkdaşlığın əhəmiyyətindən danışıb, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və tətbiqi məsələlərinin önəmi vurğulayıb, seminarın işinə uğurlar arzulayıblar.

İki gün davam edən tədbirdə Türkiyə, Almaniya, Bolqarıstan, Rumıniya, İsveçrə, Ukrayna, Moldova, Belarus, İnterpolun və Avropa İnsan Hüquqları Məhkəməsinin nümayəndələrinin insan alveri ilə mübarizənin müxtəlif aspektlərinə həsr olunmuş təqdimatları dinlənilib, insan alveri cinayətinin araşdırılmasında rast gəlinən və birgə istintaq qrupunun əməkdaşlığı ilə həll edilə bilən problemlər, insan alverinə məruz qalmış şəxslərin müdafiəsi üzrə Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ və bu mövzuda digər məsələlər ətrafında geniş müzakirələr edilərək, qarşılıqlı təcrübə və fikir mübadiləsi aparılıb.

## Azərbaycan nümayəndə heyətinin Avstriyaya təlim səfəri

**Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin və BMqT-nin regional ofisinin dəstəyi ilə aprelin 14-19-da inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi məqsədilə Ədliyyə Akademiyasının, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyi İnsan alverinə qarşı mübarizə üzrə baş idarəsinin təmsilçilərindən, hakimlərdən və vəkillərdən ibarət nümayəndə heyəti Avstriyanın paytaxtı Vyana şəhərində təlim səfərində olub.**



Səfərin məqsədi insan alverinə qarşı mübarizədə hüquqi qərarların verilməsi, insan alveri qurbanlarının müdafiəsi sahəsində beynəlxalq və Avropa standartlarının tətbiqi, qanunvericiliyin təhlili və Avstriyada insan alveri ilə bağlı cinayətlərin təqibi halları insan alveri sahəsində prosedur və qaydalarla tanış olmaqdan ibarət olub.

Avstriyalı həmkarlar Azərbaycan nümayəndələri ilə insan alveri sahəsində olan bilik və təcrübələrini bölüşüb, insan alveri qurbanlarına yardım gös-

tərilməsi prosedurları, qanunvericilik bazası barədə müzakirələr aparıblar.

Azərbaycan nümayəndə heyətinin üzvləri ölkəmizdə insan alverinə qarşı mübarizə sahəsində görülən işlər, mövcud təcrübə, həmçinin məhkəmə-hüquq islahatları, Avstriya-Azərbaycan hüquq əməkdaşlığı barədə məlumat veriblər. Ölkə Prezidenti İlham Əliyevin məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun həyata keçirilən tədbirlər qeyd olunub, məhkəmə infrastrukturunun müasirləşdirilməsindən və elektron məhkəmə sisteminin tətbiqindən danışılıb.

Səfər zamanı tərəflər üçün maraq kəsb edən məsələlər barədə ətraflı fikir və təcrübə mübadiləsi aparılıb.

Nümayəndə heyəti, həmçinin Vyanadakı əcnəbi azyaşlı miqrantlar üçün Drehscheibe Krizis Mərkəzini, insan alveri qurbanı olan qadınlar üçün Müdaxilə Mərkəzini, Avstriyanın Cinayət Kəşfiyyat Xidmətini ziyarət ediblər. Qaçaqçılıq və insan alveri əleyhinə müştərək əməliyyat idarəsinin rəhbəri Brigadier Gerald Tatzgern Xidmətin inzibati binası ilə nümayəndə heyətini tanış edib və fəaliyyəti barədə geniş məlumat verib.

## ◆ Hakimlər üçün ixtisasartırma kursu



**Aprelin 19-da Avropa Şurası və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" layihəsi çərçivəsində "Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü maddəsi (İşgəncələrin qadağan olunması)" mövzusunda təlim keçirilib.**

30-a yaxın apelyasiya və birinci instansiya məhkəmələrinin hakimlərinin iştirak etdiyi təlimdə Konvensiyanın 3-cü maddəsinin tətbiq sahəsi, minimal qəddarlıq səviyyəsi, işgəncə, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəza anlayışları, dövlətin pozitiv və neqativ öhdəlikləri, və digər mövzularda təqdimatlar dinlənilib, Azərbaycanla bağlı qərarların və kazusların müzakirəsi aparılıb.

Eyni zamanda hakimlər Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzində olaraq azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin, o cümlədən elektron qolbaqların tətbiqi ilə əyani tanış olublar.

## ◆ Ədliyyə və məhkəmə aparatı işçiləri üçün təlimlər

**Aprelin 17 və 25-də Ədliyyə Akademiyasında ədliyyə işçiləri üçün "İKT-nin müasir imkanları və ədliyyə orqanlarında tətbiqi məsələləri" mövzusunda təlimlər keçirilib.**

70-dən çox dinləyicinin iştirak etdiyi təlimlərdə nazirliyin Qeydiyyat və notariat baş idarəsinin və Katibliyin məsul şəxsləri tərəfindən "Elektron imza və onun tətbiqi məsələləri", "Müasir İKT-dən istifadə və ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər. Ədliyyə Nazirliyində tətbiq olunan informasiya sistemləri", "Ədliyyə orqanlarında elektron sənəd dövriyyəsi sisteminin təşkili və tətbiqi məsələləri" mövzuları üzrə mühazirələr oxunub, iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

***

**Aprelin 18 və 26-da Ədliyyə Akademiyasında məhkəmə aparatı işçiləri üçün "Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəlmiş tədbirlər" mövzusunda ixtisasartırma kursları keçirilib.**

Ümumilikdə 60-a yaxın məhkəmə aparatı işçisinin qatıldığı təlimlərdə Mülki Prosessual Mə-

cəlləsində dəyişiklik edilməsi haqqında 2018-ci il 28 dekabr tarixli Qanununun tətbiqi, "Elektron məhkəmə" informasiya sistemindən məhkəmələrdə səmərəli istifadə məsələləri", "Məhkəmə aparatı işçilərinin məhkəmələrin idarə edilməsində rolu və onların davranış prinsipləri" mövzuları üzrə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

Mövzular Bakı Apellyasiya Məhkəməsinin hakimi, Vəkillər Kollegiyasının üzvü və "Mütərəqqi Ədliyyə Xidmətləri və Müasir Məhkəmə İnfrastrukturu Layihəsi"nin nümayəndələri tərəfindən tədris olunub.

***



**Aprelin 30-da Ədliyyə Akademiyasında icra məmurları üçün "Alimentin tutulması, uşaqla ünsiyyətdə olma və uşağın alınıb-verilməsi tələblərinə dair məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi" mövzusunda təlim keçirilib.**

Təlim zamanı "Uşağın alınıb-verilməsi və uşaqla ünsiyyət tələbinə dair icra sənədlərinin icrası zamanı uşağın mənafeyinə zərər vurmadan icranın təmin olunması", "Alimentin tutulması, uşaqla ünsiyyətdə olma və uşağın alınıb-verilməsi tələblərinə dair məhkəmə qərarlarının icrası zamanı icra məmurları tərəfindən yol verilən xarakterik nöqsanlar və onların aradan qaldırılması üzrə görülən tədbirlər", "Alimentin tutulmasına dair icra sənədlərinin icrası qaydası" mövzuları üzrə mühazirələr oxunub.

25 nəfər icra məmurunun cəlb olunduğu tədbirdə dinləyiciləri maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

## ◆ Bələdiyyələr üçün hüquqi maarifləndirmə kursları keçirilib

**Ədliyyə Akademiyası və Bələdiyyələrlə iş mərkəzi tərəfindən aprelin 18-də Bərdə rayonunda, 25-də isə Masallı rayonunda bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə tədris kursu təşkil edilib.**

Ümumilikdə 80-dən çox bələdiyyə nümayəndələrinin cəlb olunduğu kurslarda "Bələdiyyə mülkiyyəti, əmlak təminatı və mülkiyyət toxunulmazlığı. Bələdiyyə mülkiyyətinə dair Avropa Şurasının sənədləri", "Strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı", "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi və bələdiyyə media münasibətlərinin hüquqi tənzimlənməsi", "Bələdiyyələrdə arxiv işinin təşkili", "Bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi, bələdiyyə torpaqlarının qiymətləndirilməsi" mövzuları tədris olunub, müzakirələr aparılıb.

## ◆ "Vəkillərin hüquqi yazı bacarıqlarının təkmilləşdirilməsi məsələləri" mövzusunda təlim

**Aprelin 26-da Ədliyyə Akademiyasında Vəkillər Kollegiyasının üzvləri üçün "Vəkillərin hüquqi yazı bacarıqlarının təkmilləşdirilməsi məsələləri" mövzusunda təlim keçirilib.**

26 nəfər vəkilin iştirak etdiyi təlimdə "Ayrı-ayrı sənəd növləri: tərtibatı və icra olunması", "Vətəndaşların dövlət orqanlarına müraciətlərinin hüquqi tənzimlənməsi", "Hüquqi yazı texnikası" və "İddia ərizələrinin tərtibinin təcrübi məsələləri" mövzularında mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

# Yerli özünüidarəetmə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq genişlənir

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzində vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə görüş keçirilib.**



Görüşdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində, o cümlədən dövlət idarəçiliyinin təkmilləşdirilməsi üzrə mütərəqqi islahatların həyata keçirildiyi, yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, xüsusən əhalinin məşğulluğunun təmin edilməsi, sahibkarlığın dəstəklənməsi ilə bağlı bələdiyyələrin iştirakının aktivləşdirilməsi, bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsinin vacibliyi vurğulanaraq vətəndaş cəmiyyəti qurumları ilə daha sıx əməkdaşlığın önəmi qeyd olunub.

Qeyri-hökumət təşkilatlarının təmsilçilərinə yerli özünüidarəetmə sahəsində nazirliyin Bələdiyyələrlə iş mərkəzinin fəaliyyəti, həyata keçirilən işlər, xüsusilə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər barədə ətraflı məlumat verilib, bu sahədə əməkdaşlıq imkanları müzakirə olunub.

Tədbirdə ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə Ədliyyə Nazirliyinin əsas icraçısı olduğu "Bələdiyyələrin kəndin sosial-iqtisadi inkişafı ilə bağlı öhdəliklərinin artırılması" tədbiri ilə əlaqədar kəndin inkişaf modelinin yaradılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb, bu sahədə qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi məqsədilə bələdiyyə nümayəndələrinin təcrübə səfərlərinin təşkili istiqamətində əməkdaşlıq perspektivlərinə toxunulub.

Vətəndaş cəmiyyəti institutları belə bir görüşün keçirilməsindən məmnunluğu ifadə edərək nazirliyin ictimai iştirakçılığa böyük önəm verməsini təqdirəlayiq hesab edib, qarşılıqlı fəaliyyətin bundan sonra da davam etdiriləcəyinə ümidvar olduqlarını bildiriblər.

# Vətəndaşların bələdiyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib

**Prezident İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, bu məqsədlə vətəndaşların bölgələrdə səyyar qəbulları aparılır.**

Bununla bağlı nazirliyin rəhbərliyinin göstərişinə əsasən Bələdiyyələrlə iş mərkəzi tərəfindən bələdiyyələrin fəaliyyəti barədə müraciətlərin təhlili aparılaraq daha çox şikayət daxil olan rayonlar müəyyənləşdirilib və müvafiq qrafikə uyğun olaraq həmin rayonlarda vətəndaşların səyyar qəbulu davam etdirilir.

Cari ilin aprelində Mərkəzin

rəhbərliyi tərəfindən İmişli və Lənkəran rayonlarında vətəndaşların qəbulu keçirilib. Qəbullar zamanı hər bir vətəndaş diqqətlə dinlənilərək müraciətlərində qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün nəzarətə götürülüb.



Həmçinin fəaliyyətindən daha çox narazılıq olan bələdiyyələrin sədrləri ilə İmişli və Lənkəran regional ədliyyə idarələrində müşavirələr keçirilib, vətəndaşların haqlı narazılığını doğuran səbəblər ətrafında müzakirələr aparılıb, müraciətlərə qayğı və həssaslıqla yanaşılaraq onlara qanunvericiliyin tələblərinə uyğun baxılmasının vacibliyi vurğulanıb. Bələdiyyələrin fəaliyyətində qanunçuluq və şəffaflığın təmin olunması ilə bağlı tövsiyələr verilib.

Regional ədliyyə idarələrinin əməkdaşları ilə keçirilmiş müşavirələrdə isə yerli özünüidarə sahəsində mövcud problemlərə toxunularaq bələdiyyələrin fəaliyyətində qanunçuluğun möhkəmləndirilməsi, onların hüquqi maarifləndirilməsi işinin və metodik köməkliyin gücləndirilməsi barədə müvafiq tapşırıqlar verilib.

# Ədliyyə Nazirliyinin Məhkəmə ekspertizası mərkəzinə qulluğa qəbulla bağlı növbəti müsabiqə elan edilir

**Ədliyyə Nazirliyi Məhkəmə ekspertizası mərkəzinin kadr korpusunun müsabiqə və şəffaflıq əsasında xüsusi biliyə və zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi üzrə tədbirlər davam etdirilir.**

Vakant ştat vahidləri Məhkəmə ekspertizası mərkəzində kimya, fizika, biologiya, yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi (yol hərəkətinin təşkili və təhlükəsizliyi), əmtəəşünaslıq, istehlak mallarının ekspertizası və marketinqi, mühasibat uçotu və audit, iqtisadiyyat, maliyyə, elektrik mühəndisliyi, mexanika mühəndisliyi, yer quruluşu, torpaq və şəhər kadastrı, inşaat mühəndisliyi, informasiya texnologiyaları, sistem mühəndisliyi, kompüter mühəndisliyi, psixologiya ixtisasları üzrədir.

Mərkəzə qulluğa qəbulla bağlı açıq müsabiqədə iştirak etmək istəyən və qanunvericiliyin tələblərinə cavab verən ali təhsilli, yüksək hazırlığa və təcrübəyə malik Azərbaycan Respublikasının vətəndaşları müraciət edə bilərlər.

Arzu edənlər 2019-cu ilin aprel ayının 25-dən etibarən müəyyən olunmuş ərizə formasını və digər zəruri sənədləri aşağıda göstərilən ünvanlarda:

- Məhkəmə ekspertizası mərkəzinin inzibati binasında (Bakı şəhəri, Xəqani küçəsi, 24, tel: (012) 498-09-71);
- Mərkəzin Gəncə regional bölməsində (Gəncə şəhəri, Kəpəz rayonu, V.Xuluflu küçəsi 11, tel: (0222) 65-18-96);
- Mərkəzin Şəki regional bölməsində (Şəki şəhəri, Salman Mümtaz küçəsi 1, tel: (+99470) 229-30-29);
- Mərkəzin Şirvan regional bölməsində (Şirvan şəhəri, 20 yanvar küçəsi 16, tel: (02121) 5-55-91) təqdim edə bilərlər.

Müsahibədə iştirak etmək üçün qanunvericiliyə əsasən tələb olunan sənədlərin siyahısı və imtahana hazırlıqla bağlı "Yaddaş kitabçası" Mərkəzin internet səhifəsində (www.expert.gov.az) "İşə qəbul" bölməsində yerləşdirilmiş, habelə Mərkəzə və onun regional bölmələrinə müraciət edənlərə veriləcəkdir.

Mərkəzin internet səhifəsindən, eləcə də yuxarıda göstərilən telefon nömrələrinə zəng etməklə bütün suallarla bağlı operativ informasiya almaq olar.

# Yerli sosial-iqtisadi inkişafda subvensiyanın rolu

**Təşkili və fəaliyyətinin əsas prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmiş yerli özünüidarəetmə dövlət idarəçiliyinin ayrılmaz hissəsidir. Ölkəmizdə bələdiyyələrin inkişafı, onların fəaliyyətinin beynəlxalq təcrübə əsasında formalaşdırılması, maliyyə-iqtisadi müstəqilliklərinin təmin olunması, o cümlədən bu idarəetmə formasının yerlərdə nüfuzunun və təsirinin artırılması istiqamətində silsilə tədbirlər həyata keçirilir.**

Bələdiyyələrin tərəqqisi istiqamətində aparılan başlıca işlərdən biri də bu orqanların normal fəaliyyəti üçün maliyyə təminatının formalaşdırılmasıdır. Qanunla yerli özünüidarə orqanlarının əsas maliyyə mənbəyi yerli vergi və ödənişlər, əmlakın satılması və icarəyə verilməsindən əldə olunan gəlirlər, bələdiyyə müəssisələrinin ödədiyi mənfəət vergisi, eyni zamanda dövlət büdcəsindən ayrılan dotasiyalar və subvensiyalardır. Bunlarla yanaşı, bələdiyyəyə digər daxilolmalar da onların iqtisadi təminatının formalaşdırılmasında mühüm rol oynayır.

Bələdiyyə büdcəsinin formalaşdırılması, onun mərkəzi büdcədən asılılığının azaldılması prioritet məsələdir. Bələdiyyələrin maliyyələşməsi istiqamətində yeni üsullar araşdırılır və daha optimal vasitələr üzə çıxarılaraq onların tətbiqi genişləndirilir. Son dövrlərdə dövlət büdcəsindən bələdiyyələrə subvensiya vəsaitinin verilməsi məsələsi daha çox diqqət mərkəzində olmuşdur. Bələdiyyələrin fəaliyyətinin səmərəliliyini artırmaq məqsədi ilə Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış layihə əsasında ölkə başçısının qanunvericilik təşəbbüsü ilə "Büdcə sistemi haqqında" Qanuna bələdiyyələrə subvensiyanın ayrılması ilə bağlı yeni norma əlavə edilmişdir. Subvensiyaların ayrılması əvvəllər Qanunda nəzərdə tutulsa da, onun icra mexanizmi müəyyən edilmədiyindən, bələdiyyələrin bu maliyyə resursundan istifadəsi mümkün olmamışdır.

Subvensiya maliyyələşməsi bələdiyyə idarəçiliyində proqramlı yanaşma və əlavə maliyyələşmə imkanlarının formalaşması baxımından böyük önəm daşıyır. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 1.2-ci bəndinə görə yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda, dövlət yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrinin müəyyən edilməsi və ya dövlət büdcəsindən dotasiya və subvensiya ayrılmasına zəmanət verir.

Subvensiya - məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaitidir. Dövlət bələdiyyələrin bu vəsaiti düzgün və təyinatı üzrə xərclənməsinə nəzarət edir.

Qanunun məntiqindən irəli gələrək demək olar ki, subvensiya daha çox məqsədli investisiyalaşdırma üçün nəzərdə tutulur. İnvestisiya məqsədli subvensiya sosial infrastrukturun inkişafına, ətraf mühitin mühafizəsinə, regionların kompleks inkişafına əsaslı vəsait qoyuluşunun maliyyələşdirilməsinə xidmət edir.

"Büdcə sistemi haqqında" Qanunun 32.2.2-ci maddəsinə əsasən yerli sosial müdafiə, ekoloji, həmçinin iqtisadi və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi ilə bağlı layihələrin həyata keçirilməsi, habelə qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrə həvalə edilən əlavə səlahiyyətlərin maliyyələşdirilməsi məqsədi ilə döv-

lət büdcəsindən yerli büdcələrə subvensiya ayrılması üçün müvafiq bələdiyyələrin və onların təmsil olunduqları milli assosiasiyaların cari il martın 15-dək verilən təklifləri müvafiq icra hakimiyyəti orqanı (Maliyyə Nazirliyi) tərəfindən 30 gün müddətində öyrənilir, onların qəbul edilib-edilməməsi barədə aidiyyəti bələdiyyələrə məlumat verilir. İcrası üçün vəsait ayrılmasına razılıq verilmiş layihələrlə bağlı sənədlər və məlumatlar müvafiq maliyyə - iqtisadi əsaslandırmalarla birlikdə mayın 1-dək bələdiyyələr tərəfindən müvafiq icra hakimiyyəti orqanına (Maliyyə Nazirliyinə) təqdim olunur.

Dövlət büdcəsindən ayrılmış subvensiyalar bələdiyyələr tərəfindən təqdim edilmiş layihələrə uyğun olaraq, hər il fevralın 15-dək müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) tərəfindən bölünür. Subvensiya maliyyələşməsini həyata keçirmək məqsədi ilə bələdiyyələr qanunla müəyyən olunmuş müddətlərə əməl etməklə yerli sosial müdafiə, ekoloji, həmçinin iqtisadi və sosial inkişaf proqramlarının icra edilməsi ilə bağlı layihələrin həyata keçirilməsi üçün Maliyyə Nazirliyinə müraciət edə bilərlər.

Yerli özünüidarə orqanlarının subvensiya layihələrinin hazırlanması və idarə olunmasında təcrübəsizliyi nəzərə alınaraq Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzi tərəfindən bir sıra maarifçilik tədbirləri təşkil edilmişdir. Belə ki, 2015-ci ildə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə əməkdaşlıq çərçivəsində Milli Məclisin, Ədliyyə və Maliyyə Nazirliklərinin, bələdiyyələrin milli assosiasiyalarının nümayəndələrinin Almaniya Federativ Respublikasına "Bələdiyyələrin layihələrinin maliyyələşdirilməsi" mövzusu üzrə təcrübə səfəri təşkil edilmişdir.

Qanunun tətbiqində bələdiyyələrə kömək məqsədi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə "Bələdiyyələrdə subvensiya layihələrinin hazırlanması üzrə bələdçi" kitabı 2015-ci ildə böyük tirajla çap edilərək bələdiyyələrə paylanmış və 2016-cı ildə həmin mövzu ilə bağlı bələdiyyələr üçün silsilə təlimlər keçirilmişdir.

Yerli sosial-iqtisadi problemlərin həllində bələdiyyələrin iştirakını gücləndirmək məqsədi ilə hər il üçün dövlət büdcəsində bələdiyyələrə subvensiyaların ayrılmasının ayrıca sətirlə nəzərdə tutulması ilə bağlı Milli Məclisə təklif verilmiş və Maliyyə Nazirliyinə müraciət olunmuşdur.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 9.3.1-ci yarımbəndinin icrası ilə əlaqədar seçilmiş pilot bələdiyyələrə subvensiya ayrılması məqsədi ilə layihələrin hazırlanması işinin sürətləndirilməsi ilə bağlı müraciət edilmişdir.

"2019-cu ilin dövlət büdcəsi haqqında" Qanununda ilk dəfə olaraq bələdiyyələrə subvensiyanın ayrılması nəzərdə tutulduğuna görə, bələdiyyələrə subvensiyanın alınması qaydalarını bir daha izah etmək üçün tövsiyə hazırlanaraq bütün bələdiyyələrə göndərilmişdir.

Görülmüş tədbirlər nəticəsində artıq bir sıra bələdiyyələr subvensiya almaq üçün öz layihələrini hazırlayaraq Maliyyə Nazirliyinə təqdim etmişlər.

Hesab olunur ki, subvensiyaların alınması üçün həyata keçirilən bu tədbirlər yerli sosial-iqtisadi məsələlərin həllində bələdiyyələrin iştirakını gücləndirəcək və yeni təcrübə qazanılmaqla onların fəal və səmərəli fəaliyyətinə kömək edəcəkdir.

**Nigar Səlimli,**
**Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzinin İnzibati nəzarət idarəsinin məsləhətçisi**
**III dərəcəli ədliyyə qulluqçusu**

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220, 222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960; 2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767; 2017, N 6, maddələr 1031, 1048, N 12 (I kitab), maddələr 2187, 2189; 2018, N 1, maddə 13, N 6, maddə 1155, N 7 (I kitab), maddələr 1380, 1408; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1418-VQD və 1448-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü maddənin 5-1-ci hissəsinə "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "mərkəzləşdirilmiş" sözü əlavə edilsin;

1.2. 14-cü maddənin 3-cü hissəsinin üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"əmək münasibətləri sahəsində elektron xidmətləri elektron informasiya sistemi vasitəsilə həyata keçirir.".

Maddə 2. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 586, N 12, maddə 835; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 237, 240, 244, N 8, maddə 463; 2004, N 6, maddə 399; 2005, N 4, maddə 278; 2006, N 11, maddə 929; 2007, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddələr 1197, 1218; 2008, N 6, maddə 462, N 7, maddələr 602, 607; 2010, N 3, maddə 171, N 4, maddə 275, N 7, maddə 591; 2011, N 2, maddələr 70, 71, N 6, maddə 473, N 7, maddə 600, N 12, maddə 1107; 2012, N 5, maddə 406, N 11, maddələr 1056, 1063; 2013, N 8, maddə 889; 2015, N 10, maddə 1107, N 11, maddə 1271; 2016, N 6, maddələr 981, 1000; 2017, N 6, maddə 1058, N 12 (I kitab), maddə 2268; 2018, N 5, maddə 881, N 7 (I kitab), maddə 1422, N 10, maddələr 1971, 1978, N 11, maddə 2225) 90-cı maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 90. Müəyyən müddətə azadlıqdan məhrum**

**etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin sosial təminatı**

90.1. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərə əmək pensiyalarının təyin edilməsi şərtləri və qaydası "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

90.2. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərə sosial müavinətlərin təyin edilməsi şərtləri və qaydası "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

90.3. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş işləyən şəxslərin məcburi dövlət sosial sığortasına cəlb edilməsi şərtləri və qaydası, həmçinin qadın məhkumların hamiləliyə və doğuşa görə müavinətlə təmin olunması "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

90.4. Əmək pensiyalarının və sosial müavinətlərin təyin edilməsi məqsədilə cəzaçəkmə müəssisəsinin müdiriyyəti müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məlumatları həmin şəxslərin bu Məcəllənin 71.1-ci maddəsinə uyğun olaraq cəzaçəkmə müəssisəsinə qəbul edildiyi gündən 10 gün müddətində müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sisteminə ötürür və həmin məlumatların mütəmadi yenilənməsini təmin edir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 19 fevral 2019-cu il*
*N 1507-VQD*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə

884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 697, 700, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441, N 10, maddə 1972, N 11, maddə 2213, N 12, (I kitab), maddə 2472) aşağıdakı məzmunda 233-4-cü maddə əlavə edilsin:

**"Maddə 233-4. Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili**

233-4.1. Telekommunikasiya operatorunun və ya provayderinin telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkil edilməsi əhəmiyyətli zərər vurulmasına səbəb olduqda -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

233-4.2. Eyni əməllər:

233-4.2.1. təkrar törədildikdə;

233-4.2.2. xeyli miqdarda ziyan vurmaqla törədildikdə;

233-4.2.3. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə və ya iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

233-4.3. Bu Məcəllənin 233-4.1-ci və 233-4.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

233-4.3.1. külli miqdarda ziyan vurmaqla törədildikdə;

233-4.3.2. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən dörd mislinədək miqdarda cərimə və ya üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya dörd ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Qeyd:**

1. Bu Məcəllənin 233-4.1-ci maddəsində "müvafiq qurğu" dedikdə, mobil nömrə sim-kartları quraşdırılan və internet vasitəsilə qəbul edilən beynəlxalq telefon trafikinin ümumistifadəli telekommunikasiya şəbəkəsinə dolayı yolla istiqamətləndirilməsini təmin edən qurğu başa düşülür.

2. Bu Məcəllənin 233-4.1-ci maddəsində "əhəmiyyətli zərər" dedikdə, dövlət təhlükəsizliyinə təhdid yaradan zərərin vurulması, yaxud fiziki və ya hüquqi şəxslərə on min manatdan yuxarı, lakin əlli min manatdan artıq olmayan məbləğdə ziyan vurulması başa düşülür.

3. Bu Məcəllənin 233-4.2.2-ci maddəsində "xeyli miqdar" dedikdə, əlli min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, 233-4.3.1-ci maddəsində "külli miqdar" dedikdə yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 mart 2019-cu il*
*N 1537-VQD*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli, 28 dekabr tarixli 1406-VQD, 1427-VQD, 1432-VQD nömrəli, 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli, 19 fevral tarixli 1516-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddəyə "363," rəqəmlərindən sonra "363-1, 363-2," rəqəmləri əlavə edilsin.

2. 360-cı maddənin dispozisiyasında "Abonentə" sözü "Abunəçiyə" sözü ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 363-1-ci və 363-2-ci maddələr əlavə edilsin:

**"Maddə 363-1. Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili**

363-1.1. Telekommunikasiya operatorunun və ya provayderinin telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkil edilməsinə görə -

inzibati xətanın törədilməsində istifadə olunan avadanlıqlar və vasitələr müsadirə edilməklə fiziki şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə, vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

363-1.2. Bu Məcəllənin 363-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

inzibati xətanın törədilməsində istifadə olunan avadanlıqlar və vasitələr müsadirə edilməklə fiziki şəxslər üç min beş yüz manatdan dörd min manatadək məbləğdə, vəzifəli şəxslər altı min manatdan yeddi min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:**

1. Bu Məcəllənin 363-1-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Mə-

cəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

2. Bu Məcəllənin 363-1 və 363-2-ci maddələrində "müvafiq qurğu" dedikdə, mobil nömrə sim-kartları quraşdırılan və internet vasitəsilə qəbul edilən beynəlxalq telefon trafikinin ümumistifadəli telekommunikasiya şəbəkəsinə dolayı yolla istiqamətləndirilməsini təmin edən qurğu başa düşülür.

**Maddə 363-2. Qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin qarşısının alınması üçün tədbirlərin görülməməsi**

Telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla təşkil edilən qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin texniki vasitələrdən, avadanlıqlardan və ya proqram təminatından istifadə etməklə qarşısının alınması üçün telekommunikasiya operatoru və ya provayderi tərəfindən tədbirlərin görülməməsinə görə -

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on min manatadək məbləğdə cərimə edilir.".

4. 368-ci maddə üzrə:

4.1. adında "Abonentin" sözü "Abunəçinin" sözü ilə əvəz edilsin;

4.2. dispozisiyasında "abonentin" sözü "abunəçinin" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 29 mart 2019-cu il*
*N 1538-VQD*

Mediasiya haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərinə uyğun olaraq, mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləyir, mediasiyanın məqsədlərini, prinsiplərini, həyata keçirilməsi qaydalarını və mediatorların statusunu müəyyən edir.

## 1-ci fəsil. Ümumi müddəalar

### Maddə 1. Əsas anlayışlar

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. mediasiya - mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı bu Qanunla müəyyən olunan proses;

1.0.2. tərəflər - hüquqi və fiziki şəxslər (o cümlədən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər), habelə mediasiya prosesinin tətbiqinə razılıq vermiş inzibati orqanlar;

1.0.3. mediator - peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin olunmuş, bu Qanunun tələblərinə cavab verən fiziki şəxs;

1.0.4. mediasiya təşkilatı - bu Qanunun 11.1-ci maddəsində müəyyən edilmiş hüquqi şəxs;

1.0.5. mediasiya iştirakçıları - mediator və tərəflər;

1.0.6. mediasiyada iştirak edən digər şəxslər - mediasiya prosesində iştirak edən vəkillər, nümayəndələr, tərcüməçilər, ekspert və mütəxəssislər, mediasiya təşkilatının əməkdaşları, habelə tərəflərin razılığı ilə mediasiya prosesində iştirak edən digər şəxslər;

1.0.7. barışıq sazişi - tərəflər arasında mediasiya prosesi nə-

ticəsində əldə edilən yazılı razılaşma;

1.0.8. mediasiya prosesinin tətbiqi barədə müqavilə - mübahisənin (mövcud və ya gələcəkdə yarana biləcək) mediasiya prosesi vasitəsilə həlli üçün tərəflər arasında bağlanan yazılı razılaşma;

1.0.9. mediasiyaya dair qeyd-şərt - tərəflərin hər hansı mübahisə ilə bağlı məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsinə) müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakını tələb edən müqavilə, müqavilə şərti, yaxud hər hansı digər sənəddə olan şərt;

1.0.10. mediasiya xidmətlərinin göstərilməsinə dair müqavilə - mediator və ya mediasiya təşkilatı ilə tərəflər arasında mediasiya xidmətlərinin göstərilməsi üçün imzalanan yazılı müqavilə;

1.0.11. mübahisə - tərəflər arasında yaranmış (və ya yarana biləcək) bu Qanunun 3.1-ci maddəsində nəzərdə tutulmuş mübahisə.

**Maddə 2. Mediasiya haqqında qanunvericilik**

2.1. Mediasiya haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

2.2. Ələt azad iqtisadi zonasında mediasiya sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 3. Mediasiyanın tətbiq dairəsi**

3.1. Mediasiya aşağıdakılar üzrə tətbiq edilir:

3.1.1. mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla);

3.1.2. ailə münasibətlərindən irəli gələn mübahisələr;

3.1.3. əmək münasibətlərindən irəli gələn mübahisələr;

3.1.4. inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr.

3.2. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə bu Qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur.

3.3. Bu Qanunun 3.1-ci maddəsində nəzərdə tutulan mübahisələr mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunduqda belə mübahisələr üzrə mediasiya keçirilə bilməz. Həmin hallar aşkar edildikdə mediator (mediasiya təşkilatı), tərəflər və ya onlardan biri həmin mübahisələr üzrə mediasiya prosesindən imtina edirlər.

3.4. Mediasiya prosesinin nəticəsində barışıq sazişi bağlanmadığı hallarda məhkəmədən əvvəl mediasiya prosesi ilə bağlı xərclərin öz üzərinə düşən hissəsini ödəmiş tərəfin və ya bu Qanunun 36.2-ci maddəsinə uyğun olaraq mediasiya xərclərini ödəmiş tərəfin məhkəməyə müraciət edərkən dövlət rüsumundan azad olunması məsələsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Məhkəməyə müraciət etdikdən sonra tərəflər arasında mediasiya prosesinin nəticəsində barışıq sazişi imzalanarsa, ödənilmiş dövlət rüsumu Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq geri qaytarılır.

3.5. Məhkəmələrin inzibati binalarında onların yerləşdikləri ərazilərə yaxın yerlərdə fəaliyyət göstərən mediatorlar və mediasiya təşkilatları barədə məlumat lövhələri yerləşdirilməlidir. Mediasiya Şurası mediasiya reyestrində dəyişikliklər baş verdikcə həmin məlumat lövhələrindəki informasiyanın müvafiq məhkəmələr tərəfindən daim yenilənməsinin həyata keçirilməsini təmin etməlidir.

**Maddə 4. Mediasiyanın məqsəd və prinsipləri**

4.1. Mediasiya tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədini daşıyır.

4.2. Mediasiya aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

4.2.1. könüllülük;

4.2.2. tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı;

4.2.3. mediatorların qərəzsizliyi və müstəqilliyi;

4.2.4. mediasiya prosesinə müdaxilənin yolverilməzliyi;

4.2.5. konfidensiallıq.

**Maddə 5. Könüllülük**

5.1. Mediasiya könüllü (bu Qanunun 28-ci və 29-cu maddələri nəzərə alınmaqla) xarakter daşıyır və tərəflər mediatorun seçilməsində sərbəstdirlər.

5.2. Mediasiya tərəflərin qarşılıqlı razılığı ilə bağlanan "mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında (bu Qanunun 21.1-ci maddəsi nəzərə alınmaqla) həyata keçirilir.

5.3. Mediasiya zamanı tərəflər öz mülahizələrinə əsasən maddi və prosessual hüquqlarından istifadə edirlər, habelə tələblərinin həcmini artırmaq və ya azaltmaq, bu Qanunun 28-ci və 29-cu maddələrinin tələbləri nəzərə alınmaqla mediasiyanın istənilən mərhələsində mediasiyadan imtina etmək hüquqlarına malikdirlər.

**Maddə 6. Tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı**

6.1. Tərəflər mediasiya zamanı bütün məsələlərdə, o cümlədən mediatorun seçilməsində bərabər hüquqlardan istifadə edirlər və bərabər vəzifələr daşıyırlar.

6.2. Tərəflər mediasiyanın məqsədləri naminə əməkdaşlıq etməli və qarşılıqlı şəkildə fəaliyyət göstərməlidirlər.

6.3. Mediasiya mübahisənin həllində tərəflərin əməkdaşlığına, habelə ünsiyyət və danışıqlara əsaslanır.

**Maddə 7. Mediatorların müstəqilliyi, qərəzsizliyi və mediasiya prosesinə müdaxilənin yolverilməzliyi**

7.1. Mediasiya zamanı mediator müstəqil və qərəzsiz olmalıdır. Mediator mediasiya prosesini həyata keçirən zaman tərəflərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən asılı olmamalıdır və mediasiya zamanı adıçəkilən orqanların və şəxslərin mediatorun fəaliyyətinə müdaxiləsinə yol verilmir.

7.2. Mediator mediasiya zamanı hər iki tərəfə bərabər yanaşmalı, tərəflərin mediasiya zamanı bərabər iştirakını təmin etməli və hər iki tərəfə proses zamanı tələblərini təqdim etmək üçün bərabər imkanlar yaratmalıdır. Mediatorun qərəzsizliyinə mane olan hallar olduqda mediator mediasiyanı aparmaqdan imtina etməlidir.

**Maddə 8. Konfidensiallıq**

8.1. Tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, mediasiya qapalı keçirilir.

8.2. Tərəflər arasında ayrı şərt müəyyən edilməyibsə, həmçinin barışıq sazişinin təsdiqi və icrası məqsədilə tələb olunan hallar istisna olmaqla, mediasiya zamanı əldə olunan bütün məlumatların (o cümlədən, tərəflərdən birinin mediasiyanın həyata keçirilməsi barədə təşəbbüsü, mediasiyaya və mübahisənin mümkün həll variantına razılıq verməsi, tərəflərdən birinin və ya mediatorun mübahisənin mümkün həllinə dair rəy və ya təklifləri, mediasiya zamanı tərəflərdən birinin verdiyi bəyanatları və ya etdiyi etirafları, mediasiyanın həyata keçirilməsi məqsədi ilə tərtib olunmuş sənədlər və s.) konfidensiallığı mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən qorunur.

8.3. Mediasiya iştirakçılarının və mediasiyada iştirak edən digər şəxslərin onlara mediasiya zamanı məlum olan məlumatları məhkəmə və arbitraj (münsiflər məhkəməsi) proseslərində, başqa mediasiya zamanı və ya hər hansı digər hallarda açıqlamaq və ya onlara istinad etmək hüququ yoxdur (həmin məlumatı verən tərəfin yazılı razılığı olduğu hallar istisna olmaqla) və belə məlumatlarla bağlı həmin şəxslər şahid qismində iştirak edə bilməzlər.

8.4. Bu Qanunun 8.2-ci, 8.3-cü və 8.5-ci maddələri mediasiya zamanı ağır və xüsusilə ağır cinayət hadisələri haqqında əldə olunan məlumatların verilməsi, habelə cinayət mühakimə icraatı zamanı mediasiyaya aid məlumatların açıqlanması vəzifəsinin məhkəmə qərarı ilə müəyyən edilməsi hallarına şamil olunmur.

8.5. Mediatorun və mediasiya təşkilatının müvafiq fəaliyyətini həyata keçirmək hüququ dayandırıldıqdan və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılmasından sonra da mediasiya zamanı əldə olunmuş məlumatların konfidensiallığının qorunması təmin olunmalıdır.

8.6. Mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş konfidensiallıqla bağlı qaydaların pozulması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 9. Tərəflərin hüquq və vəzifələri**

9.1. Tərəflərin aşağıdakı hüquqları vardır:

9.1.1. bu Qanunun 5-ci və 6.1-ci maddələrində nəzərdə tutulan hüquqlar;

9.1.2. mediasiya təşkilatını və ya mediatoru seçmək və onlardan imtina etmək;

9.1.3. mediasiyanın aparılmasında şəxsən və ya etibar-

namə əsasında təmsilçi vasitəsilə iştirak etmək;

9.1.4. mediasiya prosesi və onun mümkün nəticələri barədə məlumat almaq;

9.1.5. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

9.2. Tərəflər qarşılıqlı razılaşma əsasında bu Qanuna uyğun olaraq, mediasiya prosesinin tətbiqinin, onun həyata keçirilməsinin və başa çatdırılmasının bütün şərtlərini sərbəst şəkildə müəyyən edə bilərlər.

9.3. Tərəflərin aşağıdakı vəzifələri vardır:

9.3.1. barışıq sazişinin icrasını təmin etmək;

9.3.2. mediasiya prosesinin konfidensiallığını qorumaq;

9.3.3. bu Qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

**2-ci fəsil. Mediatorun fəaliyyəti**

**Maddə 10. Mediatora dair tələblər**

10.1. Mediator olmaq istəyən fiziki şəxs aşağıdakı tələblərə cavab verməlidir:

10.1.1. ali təhsilə malik olmalıdır;

10.1.2. 25 yaşı tamam olmalıdır;

10.1.3. ən azı 3 illik iş stajına malik olmalıdır;

10.1.4. mediatorların ilkin hazırlığı üzrə təlimi bitirərək bu Qanunun 14.2-ci maddəsində nəzərdə tutulmuş sertifikatı əldə etməlidir;

10.1.5. bu Qanunun 17.5-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq müddətin keçməsi gözlənilməlidir.

10.2. Aşağıdakı fiziki şəxslər mediator ola bilməzlər:

10.2.1. məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş şəxslər;

10.2.2. barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər;

10.2.3. məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər.

10.3. Bu Qanunun 10.2-ci maddəsində göstərilən hallar olmadıqda, bu Qanunun 10.1-ci maddəsində göstərilən tələblərə cavab verən fiziki şəxs Mediasiya Şurasının üzvlüyünə qəbul edildiyi andan mediator fəaliyyəti ilə məşğul olmaq hüququ əldə edir.

10.4. Mediator qanunla qadağan olunmayan istənilən digər fəaliyyətlə məşğul ola bilər.

**Maddə 11. Mediasiya təşkilatı**

11.1. Mediasiya təşkilatı mediasiyanın inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə, mediasiya xidmətlərinin marketinqini, əmək müqaviləsi və ya müvafiq mülki-hüquqi müqavilə bağladığı mediatorların xidmətləri üçün haqqın və digər xərclərin ödənilməsinə dair qaydanı müəyyən edən, mediasiya zamanı danışıqların aparılması üçün şərait yaradan, bu Qanunla və ya tərəflərin razılığı ilə müəyyən edildiyi hallarda mediasiya prosesini aparmaq üçün mediatorları təyin edən, habelə mediatorların effektiv fəaliyyətinə yönələn digər tədbirlər həyata keçirən hüquqi şəxsdir.

11.2. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınmış hüquqi şəxs mediasiya təşkilatı ola bilər.

11.3. Hüquqi şəxs Mediasiya Şurasının üzvlüyünə qəbul edildiyi andan mediasiya təşkilatı kimi fəaliyyət göstərmək hüququ əldə edir. Mediasiya Şurasının üzvlüyünə qəbul edilməsi üçün hüquqi şəxs aşağıdakı tələblərə cavab verməlidir:

11.3.1. ən azı iki mediatorla (onlardan əz azı biri ali hüquq təhsilli olmalıdır) əmək müqaviləsi olmalıdır;

11.3.2. mediator tərəfindən göstərilən mediasiya xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi üçün təsdiq olunmuş qaydaya malik olmalıdır;

11.3.3. istifadəsində ən azı iki otaqdan ibarət ofisi olmalıdır;

11.3.4. bu Qanunun 11.8-ci maddəsində nəzərdə tutulmuş hallar olduğu halda, müvafiq müddətin keçməsi gözlənilməlidir.

11.4. Mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququ aşağıdakı hallarda dayandırılır:

11.4.1. mediasiya təşkilatı tərəfindən ərizə təqdim edildikdə (o cümlədən mediasiya təşkilatının hüquqi şəxs kimi fəaliyyəti dayandırıldığı halda);

11.4.2. bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasına dair Mediasiya Şurasının qərarını yerinə yetirmədikdə (pozuntunun aradan qaldırılması üçün zəruri olan müddət nəzərə alınmaqla 1 aydan 6 ayadək müddətə).

11.5. Mediasiya təşkilatı Mediasiya Şurasının üzvlüyündən aşağıdakı hallarda çıxarılır:

11.5.1. mediasiya təşkilatı tərəfindən müvafiq ərizə təqdim edildikdə;

11.5.2. mediasiya təşkilatı ləğv edildikdə;

11.5.3. hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayılması ilə bağlı məhkəmənin müvafiq qərarı olduqda;

11.5.4. Mediasiya Şurasının üzvlüyünə daxil olmaq məqsədilə təqdim etdiyi sənədlərdə və məlumatlarda sonradan düzgün olmayan məlumatlar aşkar edildikdə;

11.5.5. mediasiya fəaliyyətini həyata keçirmək hüququnun dayandırıldığı müddətin bitməsinə ən azı 1 iş günü qalmış bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasının nəticəsi barədə Mediasiya Şurasına yazılı məlumat vermədikdə;

11.5.6. üzvlük haqqını altı aydan artıq müddətdə üzrsüz səbəbdən ödəmədikdə.

11.6. Mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılması Mediasiya Şurasının qərarı (bu Qanunun 11.5.5-ci və 11.5.6-cı maddələrinə əsasən çıxarılması isə yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı) ilə həyata keçirilir və belə qərarlar qüvvəyə mindiyi tarixdən həmin mediasiya təşkilatı barəsində mediasiya reyestrində müvafiq qeydlər aparılır.

11.7. Mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququnun dayandırılmasına əsas olmuş bu Qanunun 11.4.2-ci maddəsində göstərilmiş hallar aradan qalxdıqda mediasiya təşkilatının bu Qanunun 11.5.5-ci maddəsində müəyyən edilmiş müddət ərzində etdiyi yazılı müraciət əsasında Mediasiya Şurası tərəfindən onun fəaliyyətinin bərpa olunması haqqında 5 gün müddətində qərar qəbul olunur.

11.8. Mediasiya Şurasının üzvlüyündən bu Qanunun 11.5.4-cü və 11.5.6-cı maddələrinə əsasən çıxarılmış hüquqi şəxs və ya həmin hüquqi şəxsin təsisçisinin təsis etdiyi digər hüquqi şəxs bu qərar qüvvəyə mindiyi tarixdən 1 il keçdikdən sonra Mediasiya Şurasının üzvlüyünə qəbul olunmaq üçün bu Qanunla müəyyən edilmiş qaydada Mediasiya Şurasına müraciət edə bilər.

**Maddə 12. Mediatorun hüquq və vəzifələri**

12.1. Mediatorun aşağıdakı hüquqları vardır:

12.1.1. öz istəyi əsasında fərdi qaydada və ya mediasiya təşkilatı vasitəsilə mediasiya fəaliyyətini həyata keçirmək;

12.1.2. tərəflərlə razılaşdırılmış xidmət haqqı almaq;

12.1.3. mediasiya prosesində hər iki tərəflə birgə və ya ayrı-ayrılıqda görüşlər keçirmək, əməkdaşlıq etmək, onlara şifahi və yazılı tövsiyələr vermək;

12.1.4. konfidensiallıq prinsipini gözləməklə ictimaiyyəti öz fəaliyyəti haqqında məlumatlandırmaq;

12.1.5. nümayəndə ilə təmsil olunan tərəflə nümayəndəni məlumatlandırmaqla birbaşa əlaqə saxlamaq;

12.1.6. bu Qanunla müəyyən olunmuş digər hüquqları həyata keçirmək.

12.2. Mediatorun aşağıdakı vəzifələri vardır:

12.2.1. bu Qanunla müəyyən olunan mediasiya prinsiplərinə riayət etmək;

12.2.2. iki ildə bir dəfədən az olmayaraq təşkil olunan ixtisasartırma kurslarında iştirak edərək müvafiq sertifikat almaq;

12.2.3. mediasiya zamanı tərəflərin razılığı çərçivəsində hərəkət etmək;

12.2.4. mediasiya başlanana qədər tərəflərə mediasiyanın məqsədlərini, onların hüquq və vəzifələrini izah etmək;

12.2.5. mediasiya bitdikdən sonra tərəflərin ona verdiyi sənədləri geri qaytarmaq;

12.2.6. bu Qanunun 20.1.5-ci maddəsində nəzərdə tutulmuş qaydalara əməl etmək;

12.2.7. Mediasiya Şurası tərəfindən bu Qanuna uyğun olaraq qəbul olunan qərarları icra etmək;

12.2.8. bu Qanunla müəyyən olunmuş digər vəzifələri yerinə yetirmək.

12.3. Mediator tərəflərə hüquqi və ya digər xidmət göstərə və ya mediasiya predmeti olan mübahisə üzrə məhkəmə və ya arbitraj (münsiflər məhkəməsi) prosesində tərəflərdən hər hansı birini təmsil edə və arbitr (münsif) qismində çıxış edə bilməz.

**Maddə 13. Mediatora etiraz**

13.1. Mediasiya zamanı tərəflər qarşılıqlı razılıq əsasında mediatoru başqa mediator ilə əvəz etmək hüququna malikdirlər.

13.2. Mediator bu Qanunla müəyyən olunan mediasiya prinsipləri əsasında mediasiyanı həyata keçirə bilmədikdə dərhal özü-özünə etiraz etməlidir.

13.3. Mediator mediasiyanın davam etdirilməsinin mübahisənin həllinə gətirməyəcəyi qənaətinə gələrsə, mediasiyanı aparmaqdan imtina edə və ya tərəflərin yazılı razılığı ilə mediasiyanın prosesinə xitam verə bilər.

**Maddə 14. Mediatorların ilkin hazırlığı və ixtisasının artırılması**

14.1. Mediator olmaq istəyən şəxslərin ilkin hazırlığı, həmçinin mediatorların ixtisasının artırılması mediasiya təlimi qurumunda həyata keçirilir.

14.2. Mediatorların ilkin hazırlığı üzrə təlimi bitirmiş şəxslərə, həmçinin ixtisasartırma kursunu bitirmiş mediatorlara mediasiya təlimi qurumu tərəfindən müvafiq sertifikat verilir.

14.3. Mediasiya təlimi qurumunda təlim mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasına uyğun olaraq həyata keçirilir.

14.4. Mediasiya təlimi quruмuna bu Qanunun 11.2-ci və 11.4-11.8-ci maddələrin tələbləri şamil olunur. Bu Qanunun 14.5-ci maddəsinin tələblərinə cavab verdiyi halda mediasiya təlimi qurumu qismində mediasiya təşkilatı da çıxış edə bilər.

14.5. Hüquqi şəxs Mediasiya Şurasının üzvlüyünə qəbul edildiyi andan mediasiya təlimi sahəsində fəaliyyət göstərmək hüququ əldə edir. Mediasiya Şurasının üzvlüyünə mediasiya təlimi qurumu qismində qəbul edilməsi üçün hüquqi şəxs aşağıdakı tələblərə cavab verməlidir:

14.5.1. aşağıdakı göstərilən şəxslər kateqoriyasından ən azı ikisi ilə əmək müqaviləsi və ya müvafiq mülki-hüquqi müqaviləsi olmalıdır:

14.5.1.1. son 2 il ərzində ən azı 10 mediasiya işi aparmış ən azı 1 mediatorla;

14.5.1.2. son 6 ildə mediasiya üzrə (o cümlədən, mübahisələrin alternativ həlli fənninin tərkib hissəsi olaraq) azı 2 il pedaqoji staja malik və ya son 3 il ərzində beynəlxalq layihələr çərçivəsində ən azı 2 mediasiya təlimi aparmış 1 təlimçi ilə;

14.5.1.3. beynəlxalq mediasiya qurumlarının mediasiya sahəsində təşkil etdiyi mediasiya təlimçilərinin təlimindən keçməsi barədə müvafiq sertifikatı olan ən azı 1 təlimçi ilə;

14.5.2. ilkin hazırlıq və ixtisasartırma mediasiya dərsləri üzrə təfsilatlı proqrama malik olmalıdır;

14.5.3. bu Qanunun 11.8-ci maddəsində nəzərdə tutulmuş hallar olduğu halda, müvafiq müddətin keçməsi gözlənilməlidir.

14.6. Xarici ölkələrdə bu Qanunun 14.5.1.1-14.5.1.3-cü maddələrinə uyğun olaraq əldə edilmiş iş təcrübəsinin və ya sertifikatların tanınması məsələsi mediasiya reyestrinin aparılması qaydası ilə tənzimlənir.

**Maddə 15. Mediasiya reyestri**

15.1. Mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının siyahısının müəyyən edilməsi məqsədi ilə Mediasiya Şurası tərəfindən mediasiya reyestri aparılır.

15.2. Mediasiya təşkilatları, mediatorlar və mediasiya təlimi qurumları mediasiya reyestrində onlar barədə olan məlumatlarda baş vermiş dəyişikliklər barədə 30 gün müddətində Mediasiya Şurasına məlumat verməlidirlər.

15.3. Mediasiya təşkilatları, mediatorlar və mediasiya təlimi qurumları haqqında məlumatların mediasiya reyestrinə daxil edilməsi, həmin məlumatlarda dəyişikliklər edilməsi, həmçinin bu Qanunun 14.6-cı maddəsində nəzərdə tutulmuş məsələləri özündə əks etdirən mediasiya reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

15.4. Mediasiya reyestri açıqdır və Mediasiya Şurasının rəsmi internet səhifəsində yerləşdirilir və məlumatlar daim yenilənir.

**Maddə 16. Mediatorun intizam məsuliyyəti**

16.1. Mediator bu Qanunun 12.2-ci və 12.3-cü maddələrində nəzərdə tutulan vəzifələrin pozulmasına görə intizam məsuliyyəti daşıyır. Mediatorun intizam məsuliyyətinə cəlb edilməsi barədə məlumat mediasiya reyestrinə daxil edilir və daxil edildiyi gündən 6 ay ərzində reyestrdə saxlanılır.

16.2. Yol verilmiş pozuntunun ağırlıq dərəcəsindən asılı olaraq mediatora qarşı aşağıdakı intizam məsuliyyəti tədbirləri tətbiq edilir:

16.2.1. xəbərdarlıq;

16.2.2. töhmət;

16.2.3. 1 aydan 6 ayadək müddətə mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması.

16.3. Mediatora qarşı intizam tədbirləri Mediasiya Şurasının qərarı ilə tətbiq edilir. Mediatora qarşı intizam tədbirləri pozuntunun baş verdiyi tarixdən 1 il müddətində tətbiq edilir. İntizam icraatının həyata keçirilməsi qaydası Mediasiya Şurası tərəfindən müəyyən olunur.

16.4. Mediator tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həll olunmamasına və ya barışıq sazişinin icra edilməməsinə görə məsuliyyət daşımır.

16.5. İntizam məsuliyyəti mediatoru bu Qanunla müəyyən olunan vəzifələri pozması nəticəsində vurduğu zərərə görə mülki, inzibati və cinayət məsuliyyətindən, həmçinin işlədiyi mediasiya təşkilatı tərəfindən tətbiq edilən intizam məsuliyyətindən azad etmir.

**Maddə 17. Mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya mediatorun Mediasiya Şurasının üzvlüyündən çıxarılması**

17.1. Mediator fəaliyyətini həyata keçirmək hüququ aşağıdakı hallarda dayandırılır:

17.1.1. öz arzusu ilə müvafiq ərizə təqdim etdikdə;

17.1.2. bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasına dair Mediasiya Şurasının qərarını yerinə yetirmədikdə (pozuntunun aradan qaldırılması üçün zəruri olan müddət nəzərə alınmaqla 1 aydan 6 ayadək müddətə);

17.1.3. bu Qanunun 16.2.3-cü maddəsində nəzərdə tutulmuş halda.

17.2. Mediator Mediasiya Şurasının üzvlüyündən aşağıdakı hallarda çıxarılır:

17.2.1. öz arzusu ilə müvafiq ərizə təqdim etdikdə;

17.2.2. barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

17.2.3. qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunması məhkəmə tərəfindən müəyyən edildikdə;

17.2.4. vəfat etdikdə;

17.2.5. məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

17.2.6. bu Qanunun 12.2.2-ci maddəsinə uyğun olaraq ixtisasartırma kursunu müvafiq qaydada keçmədikdə;

17.2.7. bir il ərzində bu Qanunun 16.2-ci maddəsində nəzərdə tutulan intizam məsuliyyəti tədbirləri azı 3 dəfə tətbiq edildikdə;

17.2.8. Mediasiya Şurasının üzvlüyünə daxil olmaq məqsədi ilə təqdim etdiyi sənədlərdə və məlumatlarda sonradan düzgün olmayan məlumatlar aşkar edildikdə;

17.2.9. mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırıldığı müddətin bitməsinə ən azı 1 iş günü qalmış bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasının nəticəsi barədə Mediasiya Şurasına yazılı məlumat vermədikdə;

17.2.10. üzvlük haqqını altı aydan artıq müddətdə üzrsüz səbəbdən ödəmədikdə.

17.3. Mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılma Mediasiya Şurasının qərarı (bu Qanunun 17.2.7-ci, 17.2.9-cu və 17.2.10-cu maddələrinə əsasən çıxarılma isə yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı) ilə həyata keçirilir və belə qərarlar qüvvəyə mindiyi tarixdən həmin mediator barəsində mediasiya reyestrində müvafiq qeydlər aparılır.

17.4. Mediator fəaliyyətini həyata keçirmək hüququnun dayandırılmasına əsas olmuş bu Qanunun 17.1.2-ci maddəsində göstərilmiş hallar aradan qalxdıqda mediatorun bu Qanunun 17.2.9-cu maddəsində müəyyən edilmiş müddət ərzində etdiyi yazılı müraciət əsasında, həmçinin bu Qanunun 16.2.3-cü maddəsində nəzərdə tutulmuş müddət bitdikdə Mediasiya Şurası tərəfindən mediatorun fəaliyyətinin bərpa olunması haqqında 5 gün müddətində qərar qəbul olunur.

17.5. Mediasiya Şurasının üzvlüyündən bu Qanunun 17.2.2-ci, 17.2.7-ci, 17.2.8-ci və 17.2.10-cu maddələrinə əsasən çıxarılmış fiziki şəxs bu qərar qüvvəyə mindiyi tarixdən 1 il keçdikdən sonra (bu Qanunun 17.2.2-ci maddəsində nəzərdə tutulmuş halda isə həmçinin məhkumluğun ödənilməsi və ya götürülməsi şərti ilə) Mediasiya Şurasının üzvlüyünə qəbul olunmaq üçün bu Qanunla müəyyən edilmiş qaydada Mediasiya Şurasına

müraciət edə bilər.

3-cü fəsil. Mediasiya Şurasının fəaliyyəti

**Maddə 18. Mediasiya Şurası**

18.1. Mediasiya Şurası bu Qanunun 20.1-ci maddəsində nəzərdə tutulmuş funksiyaların həyata keçirilməsi məqsədilə, mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının məcburi üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən qeyri-kommersiya hüquqi şəxsdir.

18.2. Mediasiya Şurası bu Qanuna, digər normativ hüquqi aktlara və nizamnaməsinə uyğun olaraq təşkil olunur və fəaliyyət göstərir.

**Maddə 19. Mediasiya Şurasının əmlakı**

19.1. Mediasiya Şurasının mülkiyyətində (istifadəsində) qanunla qadağan olunmayan növlərdə əmlak ola bilər.

19.2. Mediasiya Şurasının əmlakı üzvlük haqlarından, qrantlardan, ianələrdən və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşır.

19.3. Mediasiya Şurasının üzvləri üçün üzvlük haqqının məbləği, bu məbləğin ödənilməsi müddəti və qaydaları Şuranın nizamnaməsi ilə müəyyən olunur.

**Maddə 20. Mediasiya Şurasının funksiyaları**

20.1. Mediasiya Şurası aşağıdakı funksiyaları həyata keçirir:

20.1.1. mediasiya sahəsində tənzimləməni və nəzarəti həyata keçirir;

20.1.2. mediasiyanın inkişafı ilə bağlı tədbirlər görür, bu sahədə dövlət proqramlarının və normativ hüquqi aktların layihələrinin hazırlanmasını təşkil edir və ya hazırlanmasında iştirak edir;

20.1.3. mediator fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərin ilkin hazırlığı üzrə təlimin və mediatorların ixtisasartırma kurslarının mediasiya təlimi qurumları tərəfindən keçirilməsi ilə bağlı tədbirlər görür;

20.1.4. mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının reyestrini aparır;

20.1.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasına, mediasiya reyestrinin aparılması qaydasına, mediatorların peşəkar etik davranış qaydasına, mediasiya prosesinin həyata keçirilməsi qaydasına dair təkliflər hazırlayır;

20.1.6. mediasiya prosesi ilə bağlı sənədlərin, o cümlədən protokol və arayışların formalarını hazırlayır və təsdiq edir;

20.1.7. mediasiya təşkilatlarından, mediatorlardan və mediasiya təlimi qurumlarından statistik məlumatları toplayır və təhlil edir;

20.1.8. üç ildə bir dəfədən az olmayaraq mediasiya sisteminin səmərəliliyini təhlil edir, bundan irəli gələrək müvafiq təkliflər verir və digər tədbirlər görür;

20.1.9. mediasiya sahəsində konfranslar və təşviqat tədbirlərinin keçirilməsini təşkil edir;

20.1.10. mediasiya təşkilatlarının, mediatorların və mediasiya təlimi qurumlarının fəaliyyəti ilə əlaqədar daxil olan müraciətlərə baxır;

20.1.11. mediasiya təşkilatı, mediator və mediasiya təlimi qurumu tərəfindən bu Qanunla müəyyən olunan vəzifələrin pozulması hallarının aradan qaldırılmasına dair qərar qəbul edir;

20.1.12. mediatorların intizam məsuliyyətinə cəlb olunması barədə qərar qəbul edir;

20.1.13. mediatorların, mediasiya təşkilatlarının və mediasiya təlimi qurumlarının müvafiq fəaliyyətini həyata keçirmək hüququnun dayandırılması və Mediasiya Şurasının üzvlüyündən çıxarılması barədə qərarlar qəbul edir, bu Qanunun 11.6-cı və 17.3-cü maddələrində nəzərdə tutulmuş hallarda isə məhkəmə qarşısında müvafiq məsələ qaldırır;

20.1.14. intizam icraatının həyata keçirilməsi qaydasını müəyyən edir;

20.1.15. mediasiya fəaliyyəti haqqında informasiya və statistik xarakterli hesabatı rübdə bir dəfə ictimaiyyətə açıqlayır;

20.1.16. bu Qanunla və nizamnaməsi ilə müəyyən olunmuş digər funksiyaları həyata keçirir.

20.2. Mediasiya təşkilatı, mediator və mediasiya təlimi qurumu Mediasiya Şurasının qərarlarından, digər hərəkət və hərəkətsizliyindən məhkəməyə şikayət verə bilərlər.

**4-cü fəsil. Mediasiya prosesi**

**Maddə 21. Mediasiya prosesinin tətbiqi üçün əsaslar**

21.1. Mediasiya prosesi tərəflər arasında bağlanan "mediasiya prosesinin tətbiqi

barədə müqavilə" əsasında və ya bu Qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq ilkin mediasiya sessiyasında iştirak etməklə həyata keçirilir.

21.2. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" tərəflər arasında yaranmış mübahisənin məhkəməyə verilməsinə qədər və ya məhkəmədə işə baxılan zaman tətbiq edilə bilər.

21.3. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin bağlanması təşəbbüsü ilə tərəflər və ya onlardan biri çıxış edə bilər. Məhkəmələr də tərəflərə aralarında yaranmış mübahisənin mediasiya yolu ilə həllinə dair təkliflər verirlər. Bu Qanunun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallarda isə müvafiq orqanlar (qurumlar) tərəflərə bu Qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq ilkin mediasiya sessiyasında iştirak etmək vəzifələrini izah edirlər.

21.4. Bu Qanunla müəyyən edilmiş qaydada "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin bağlanması məhkəmədə tərəflər arasında baxılan mülki, inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə icraatın dayandırılmasına səbəb olur.

21.5. Mediasiya prosesi bu Qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş təklifin göndərildiyi andan, belə təklif olmadıqda isə bu Qanunun 28-ci və 29-cu maddələrinə nəzərdə tutulmuş hallarda tərəflərin ilkin mediasiya sessiyasında iştirak etdiyi, digər hallarda isə bu Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı andan başlanmış sayılır.

21.6. Tərəflərdən biri mediasiya prosesinin tətbiqi barədə yazılı formada digər tərəfə bu Qanunun 22-ci (22.1.1-ci, 22.1.4-cü, 22.1.7-ci və 22.1.8-ci maddələr istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları, həmçinin tərəflərin qarşılıqlı razılaşdığı mediator (mediatorlar) və ya mediasiya təşkilatı varsa, bu barədə məlumatı, olmadıqda isə bu barədə təklifləri əks etdirən təklifi göndərir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin birinci cümləsində qeyd edilən təklif tərəfə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

21.7. Bu Qanunun 21.8-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, bu Qanunun 21.6-cı maddəsinə uyğun olaraq göndərilmiş təklifə 10 gün ərzində cavab verilmədikdə mediasiya prosesinə bu Qanunun 32.1.4-cü maddəsinə əsasən, həmin təklif 10 gün ərzində hər hansı formada rədd edildikdə isə mediasiya prosesinə bu Qanunun 32.1.3-cü maddəsinə əsasən avtomatik xitam verilir.

21.8. Tərəflər arasında mediasiyaya dair qeyd-şərtdə mediatorun (mediasiya təşkilatının) adı müəyyən edildiyi halda və bu Qanunun 21.6-cı maddəsinə uyğun olaraq göndərilmiş təklifə 10 gün ərzində cavab verilmədikdə və ya təklif rədd edildikdə, təklifi göndərən tərəf mediasiyaya dair qeyd-şərtdə nəzərdə tutulmuş mediatora (mediasiya təşkilatına) müraciət edir. Həmin mediatorun (mediasiya təşkilatının) bu Qanunun 22-ci (22.1.1-ci maddə istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları və mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən mediasiya sessiyası barədə bildirişi tərəflərə təqdim etməsindən sonra tərəflər və ya onlardan biri mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, yaxud "mediasiya prosesinin tətbiqi barədə müqavilə"ni imzalamağa razı olmadıqda, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "Mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin ikinci cümləsində qeyd edilən bildiriş tərəflərə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

21.9. Aşağıdakı tələblərin birinə əməl edilmədən məhkəməyə müraciət edildikdə müraciət məhkəmə tərəfindən baxılmamış saxlanılır:

21.9.1. bu Qanunun 28-ci və 29-cu maddələrində nəzərdə tutulmuş hallarda tərəf bu Qanunun 29.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq arayışı və ya protokolu məhkəməyə etdiyi müraciətinə əlavə etmədikdə;

21.9.2. tərəflər arasında "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı halda bu Qanunun 32.2-ci maddəsində nəzərdə tutulmuş protokol məhkəməyə edilmiş müraciətə əlavə edilmədikdə;

21.9.3. tərəflər arasında

mediasiyaya dair qeyd-şərt olduğu halda bu Qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş təklifin göndərilməsi ilə əlaqədar başlamış mediasiya prosesinə bu Qanunun 21.7-ci maddəsində müəyyən edilmiş qaydada xitam verilmədikdə;

21.9.4. bu Qanunun 21.8-ci maddəsində nəzərdə tutulmuş hallarda tərəf həmin maddədə nəzərdə tutulmuş arayışı məhkəməyə etdiyi müraciətə əlavə etmədikdə.

21.10. Tərəfin mediasiyaya dair qeyd-şərtə və ya "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin şərtlərinə zidd olaraq mediasiyada üzrsüz səbəbdən iştirak etməməsi qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 22. Mediasiya prosesinin tətbiqi barədə müqavilə**

22.1. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" yazılı şəkildə bağlanır və həmin müqavilədə aşağıdakılar göstərilir:

22.1.1. müqavilənin tarixi, vaxtı və tərtib olunduğu yer;

22.1.2. tərəflərin adları və rekvizitləri;

22.1.3. mübahisənin predmeti;

22.1.4. tərəflərin seçdiyi mediator (mediatorlar) və ya mediasiya təşkilatı haqqında məlumatlar;

22.1.5. mediasiya prosesi ilə əlaqədar xərclərin ödənilməsi şərtləri və qaydası;

22.1.6. əgər tərəflər arasında digər razılaşma yoxdursa, mediasiyanın keçirilməsinin məxfiliyi haqqında tərəflərin öhdəlikləri və həmin öhdəliyə əməl etməməyə görə məsuliyyət;

22.1.7. mediasiya prosesinin keçirilmə müddəti;

22.1.8. mediasiya prosesinin keçirilmə qaydası;

22.1.9. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, bu Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq başqa şərtlər.

22.2. Tərəflərin qarşılıqlı razılaşması ilə "mediasiya prosesinin tətbiqi barədə müqavilə"yə əlavə və dəyişikliklər edilə bilər.

22.3. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" təmsilçi vasitəsilə bağlanıla, ona əlavə və dəyişikliklər edilə bilər. Təmsilçiyə verilən etibarnamədə bu Qanunun 22.1-ci və 22.2-ci maddələrində göstərilən səlahiyyətlər xüsusi olaraq göstərilməlidir.

**Maddə 23. Mediatorun və ya mediasiya təşkilatının seçilməsi, mediasiyanın keçirilmə yeri və vaxtı**

23.1. Mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflər qarşılıqlı razılaşma əsasında bir və ya bir neçə mediator seçir. Tərəflər mediatorun seçilməsi üçün mediasiya təşkilatına da müraciət edə bilərlər.

23.2. Tərəflər mediatorun seçilməsi üçün mediasiya təşkilatına müraciət etdikdə mediasiya təşkilatı tərəflərə bir və ya bir neçə mediatorun namizədliyini təklif edir və ya tərəflər arasında bağlanmış "mediasiya prosesinin tətbiqi barədə müqavilə"də nəzərdə tutulduğu, həmçinin tərəflərin qarşılıqlı razılaşmasına əsasən və ya bu Qanunun 28.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş hallarda mediatoru (mediatorları) bilavasitə təyin edir.

23.3. Mediator və ya mediasiya təşkilatı "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı ana qədər tərəflərə mediasiyanın məqsədlərini, onların hüquq və vəzifələrini ödənişsiz izah etməlidir.

23.4. Mediator və ya mediasiya təşkilatı ilə tərəflər arasında münasibətlər mediasiya xidmətlərinin göstərilməsinə dair müqavilə ilə tənzimlənir. Mediasiya xidmətlərinin göstərilməsinə dair bağlanan müqavilədə mediatorun və ya mediasiya təşkilatının, tərəflərin hüquq və vəzifələri, məsuliyyəti, konfidensiallıq, mediasiya xərcləri, bu Qanuna və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq digər şərtlər müəyyən olunur.

23.5. Mediator tərəflərin qarşılıqlı razılığı ilə mediasiya prosesinin keçirilmə yerini və vaxtını müəyyənləşdirir.

**Maddə 24. Mediasiya prosesinin həyata keçirilməsi qaydaları**

24.1. Mediasiya prosesi bu Qanuna, mediasiya prosesinin həyata keçirilməsi qaydasına və bu qaydaya uyğun olaraq hazırlanmış mediasiya təşkilatının daxili qaydasına (olduğu halda), mediatorların peşəkar etik davranış qaydasına uyğun olaraq həyata keçirilir.

24.2. Mediasiya prosesində mediator bütün tərəflərlə birlikdə və ya ayrı-ayrılıqda görüşlər keçirə, əməkdaşlıq edə, şifahi və yazılı tövsiyələr verə bilər. Bu zaman mediator tərəflərdən birini üstün mövqeyə qoyan və ya hüquq və vəzifələrini məhdud-

laşdıran hərəkətlərə yol verməməlidir.

24.3. Bu Qanunun 28-ci və 29-cu maddələri nəzərə alınmaqla, tərəflər mediasiya prosesinin istənilən anında mediasiyadan imtina edə bilərlər.

24.4. Tərəflər mediasiya prosesində bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak edə bilərlər. Tərəflər mediasiya prosesində vəkillərin, tərcüməçilərin, müvafiq sahədə ekspert və mütəxəssislərin köməyindən istifadə edə bilərlər. Tərəflərin razılaşması ilə mediasiya prosesində digər şəxslər də iştirak edə bilər.

24.5. Mediasiya prosesində tərəflər öz mövqelərinə və mübahisənin həlli şərtlərinə dair təkliflərini yazılı və ya şifahi şəkildə bildirirlər. Mediasiya prosesində tərəflər mübahisənin həlli şərtlərinə dair razılığa gəlirlər.

24.6. Mediasiya prosesinin hər hansı mərhələsində mediator mübahisənin həlli məqsədilə tərəflər üçün öhdəlik nəzərdə tutmayan şifahi və ya yazılı təklifi irəli sürə bilər. Barışıq təklifi tərəflərin razılığı ilə verilir.

24.7. Bu Qanunun 21.5-ci maddəsinə uyğun olaraq, mediasiya prosesinin ümumi müddəti 30 gündən artıq olmayaraq davam edə bilər. Mübahisənin mürəkkəbliyi nəzərə alınaraq tərəflərin razılaşması ilə mediasiya prosesinin müddəti daha 30 gün müddətinə qədər uzadıla bilər. Mediasiya prosesinin keçirilməsinin konkret müddəti ümumi müddət nəzərə alınmaqla "mediasiya prosesinin tətbiqi barədə müqavilə" ilə müəyyən olunur.

**Maddə 25. Mülki işlər və iqtisadi mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

25.1. Tərəflərin qarşılıqlı razılaşması ilə həlli mümkün olan istənilən mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla) mediasiya vasitəsilə həll oluna bilər.

25.2. İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 26. Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

26.1. Ailə münasibətlərindən irəli gələn aşağıdakı mübahisələr bu Qanuna uyğun olaraq mediasiya vasitəsilə həll oluna bilər:

26.1.1. nikahın davam etdirilməsi şərtləri;

26.1.2. valideynlik hüquq və vəzifələrinin həyata keçirilməsi qaydası;

26.1.3. uşağın yaşayış yerinin müəyyən edilməsi;

26.1.4. uşağın və əmək qabiliyyəti olmayan digər ailə üzvlərinin saxlanılması qaydası;

26.1.5. ailə münasibətlərindən irəli gələn digər mübahisələr.

26.2. Nikah müqaviləsinə mediasiyaya dair şərtlər daxil edilə bilər.

26.3. Uşağın maraqlarına toxunan ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediator müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyini alır.

26.4. Əgər ailə münasibətlərindən irəli gələn mübahisələr zamanı uşağın normal böyüməsinə və inkişafına təhlükə yaradan, yaxud onun maraqlarına zərər vura bilən hallar mövcuddursa və ya belə halların yaranma ehtimalı olarsa, mediator bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməyə borcludur və mediator göstərilən işlər üzrə mediasiya prosesinin həyata keçirilməsindən imtina edə bilər.

26.5. Tərəflər uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etməyə borcludurlar.

26.6. Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 27. Əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

27.1. Əmək münasibətlərindən irəli gələn aşağıdakı mübahisələr bu Qanuna uyğun olaraq, mediasiya vasitəsilə həll oluna bilər:

27.1.1. fərdi əmək mübahisələri;

27.1.2. kollektiv əmək mübahisələri.

27.2. Əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müvafiq

icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

**Maddə 28. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin mediasiya sessiyasında iştirak**

28.1. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflər ilkin mediasiya sessiyasında iştirak etməlidirlər.

28.2. Bu Qanunun 28.1-ci maddəsində qeyd edilən mübahisələr üzrə ilkin mediasiya sessiyasını tərəflərin qarşılıqlı razılaşdırdığı mediator və ya mediator təşkilatı aparır.

28.3. Tərəfin bu Qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş mediasiya prosesinin tətbiqi barədə təklifi digər tərəfə təqdim edildikdən sonra 10 iş günü ərzində qəbul edilmədikdə və ya tərəflər bu Qanunun 28.2-ci maddəsinə əsasən mediator və ya mediasiya təşkilatı barədə razılığa gəlmədikdə, ilkin mediasiya sessiyası tərəflərdən hər hansı birinin ilkin müraciət etdiyi, mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə (bu Qanunun 28.4-cü maddəsi nəzərə alınmaqla) həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatı tərəfindən aparılır. Bu halda tərəflər mediator barədə razılığa gəlmədikdə, mediatoru mediasiya təşkilatı təyin edir.

28.4. Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilkin mediasiya sessiyasının aparılması üçün mediator müəyyən edə bilər.

**Maddə 29. İqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin və sonrakı mediasiya sessiyaları**

29.1. Mediator ilkin mediasiya sessiyasında iştirak etmək üçün müraciət edən tərəflərə mediasiya prosesinin mahiyyətini, üstünlüklərini və qaydalarını izah edir, tərəflərlə birgə və ayrılıqda görüşlər keçirir. Həmin gün və ya tərəflərin müraciəti ilə mediatorun təyin etdiyi başqa gün tərəflər sonrakı mediasiya sessiyalarında iştirak etmək istəyib-istəmədiklərinə dair qərar verməlidirlər.

29.2. Tərəflər və ya onlardan biri onlara mediatorun (mediasiya təşkilatının) və ya digər tərəfin bu Qanunun 22-ci (22.1.1-ci maddə istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları və ilkin mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən ilkin mediasiya sessiyası barədə bildirişi təqdim etməsindən sonra tərəflər və ya onlardan biri ilkin mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "İlkin mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin birinci cümləsində qeyd edilən bildiriş tərəflərə ilkin mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

29.3. Tərəflərdən biri və ya hər ikisi mediasiya prosesini davam etdirməyə razılıq vermədikdə, habelə bu Qanunun 3.3-cü və 26.4-cü maddələrinə əsasən mediator mediasiya prosesinin həyata keçirilməsindən imtina etdikdə, mediator mediasiya prosesinə xitam verir və "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" ilə bağlı arayışı tərəflərə təqdim edir.

29.4. Tərəfin ilkin mediasiya sessiyasında üzrsüz səbəbdən iştirak etməməsi qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

29.5. Tərəflər mediasiya prosesini davam etdirməyə qərar verdikdə isə tərəflər arasında "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanılır və bu Qanunun 24-cü maddəsinə uyğun olaraq mediasiya prosesi həyata keçirilir.

29.6. Tərəflər mediasiya prosesinin yekununda barışıq sazişi bağlamadıqda, habelə bu Qanunun 3.3-cü və 26.4-cü maddələrinə əsasən mediator mediasiya prosesinin həyata keçirilməsindən imtina etdikdə, mediator mediasiya prosesinə xitam verir və bu

barədə müvafiq protokolu tərəflərə təqdim edir.

29.7. Bu Qanunun 29.2-ci, 29.3-cü və 29.6-cı maddələrində göstərilən arayışı və ya protokolu əldə etdikdən sonra tərəf məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsinə) müraciət edə bilər. Müraciətə müvafiq arayış və ya protokol əlavə edilməlidir.

**Maddə 30. İnzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, inzibati orqanlar tərəfindən inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi, yaxud inzibati orqanın digər hərəkət və ya hərəkətsizliyindən irəli gələn mübahisələr (həmin Qanunun 4.3-cü maddəsində nəzərdə tutulmuş mübahisələr (o cümlədən "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati ərazi vahidləri arasında ərazi məsələləri ilə bağlı mübahisələr) istisna olmaqla) bu Qanuna uyğun olaraq, mediasiya vasitəsilə həll oluna bilər.

**Maddə 31. Məhkəmə mediasiyası**

31.1. Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü və tərəflərin razılığı ilə, yaxud tərəflərdən birinin müraciəti və digər tərəfin razılığı ilə onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Belə halda məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.

31.2. Tərəflər qarşılıqlı razılıq əsasında mübahisəyə baxacaq mediasiya təşkilatı və ya mediator barədə razılığa gələ bilərlər. Belə razılıq olmadıqda, mübahisəyə həmin məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə (bu maddənin üçüncü cümləsi nəzərə alınmaqla) həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatında baxılır. Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə mediasiyanın aparılması üçün mediator müəyyən edə bilər.

31.3. Mediasiya prosesində iştirak edən, lakin müsbət nəticə əldə etməyən tərəflər və ya onlardan biri mediasiya prosesinin nəticələri barədə protokolu təqdim etməklə növbəti dəfə məhkəməyə müraciət etdikdə dayandırılmış icraat təzələnir və işə məhkəmə tərəfindən baxılır.

31.4. Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə isə barışıq sazişi və ya bu barədə mediator tərəfindən tərtib olunmuş protokol məhkəməyə təqdim olunur. Məhkəmə bununla bağlı tərəflərin iştirakı ilə keçirilmiş iclasda onların razılığı ilə iş üzrə icraata xitam verir.

31.5. Hakimin fəaliyyətinin qiymətləndirilməsi zamanı mediasiyaya yönəldilən (bu Qanunun 28.1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) işlərin sayı və bu Qanuna uyğun olaraq barışıq sazişinin əldə edilməsi əsasında icraata xitam verilən məhkəmə işlərinin sayı nəzərə alınır.

**Maddə 32. Mediasiya prosesinə xitam verilməsi**

32.1. Mediasiya prosesinə aşağıdakı hallarda xitam verilir:

32.1.1. tərəflər arasında barışıq sazişi bağlandıqda;

32.1.2. mübahisənin tərəflərin qarşılıqlı razılaşması ilə həllinin mümkünsüzlüyü mediator tərəfindən müəyyən edildikdə;

32.1.3. tərəflər və ya onlardan biri mediasiya prosesindən imtina etdikdə;

32.1.4. tərəflərin mediasiya prosesinin müddətinin uzadılmasına dair müraciətləri olmamışsa, bu Qanunun 24.7-ci maddəsinə uyğun olaraq mediasiya prosesinin müddəti bitdikdə;

32.1.5. tərəf olan fiziki şəxs öldükdə, hüquqi şəxs ləğv edildikdə və ya fəaliyyəti dayandırıldıqda;

32.1.6. tərəflərdən biri məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

32.1.7. tərəflərdən birinin fəaliyyət qabiliyyətli olmaması və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmə tərəfindən müəyyən edildikdə;

32.1.8. mediator və ya mediasiya təşkilatı Mediasiya Şurasının üzvlüyündən çıxarıldıqda, həmçinin mediator və ya mediasiya təşkilatı mediasiya prosesindən imtina etdik-

də (bu Qanunun 28.1-ci maddəsində nəzərdə tutulmuş mübahisələr üzrə isə yalnız sonrakı mediasiya sessiyasında imtina etdikdə);

32.1.9. bu Qanunun 21.8-ci, 29.2-ci və 29.3-cü maddələrində göstərilən arayış tərtib olunduqda.

32.2. Bu Qanunun 32.1.2-32.1.8-ci maddələrində nəzərdə tutulan halların mediatora məlum olduğu tarixdən 3 gün müddətində mediasiya prosesinə xitam verilməsi haqqında mediator tərəfindən protokol tərtib olunur və imzalanır. Mediasiya prosesinə xitam verilməsi haqqında protokol mediator tərəfindən tərtib olunaraq imzalandığı tarixdən 1 gün müddətində tərəflərə (nümayəndələrinə) təqdim edilməlidir. Protokola mediasiyaya dair konfidensial məlumatların daxil edilməsinə yol verilmir. Protokolun forması Mediasiya Şurası tərəfindən müəyyən olunur.

32.3. Protokolun nüsxələri tərəflərin və təqdim ediləcəyi orqanların (qurumların) sayına uyğun olaraq tərtib olunur. Protokolun müvafiq orqana (quruma) təqdim edilməli olan nüsxəsini tərəflərdən biri həmin nüsxənin ona təqdim edildiyi tarixdən 1 iş günü müddətində müvafiq orqana (quruma) təqdim edir.

32.4. Mediasiya prosesinə aşağıdakı gündən xitam verilir:

32.4.1. barışıq sazişinin imzalandığı gündən;

32.4.2. bu Qanunun 32.1.9-cu maddəsində nəzərdə tutulan arayışın, 29.6-cı və ya 32.2-ci maddələrində nəzərdə tutulan protokolun tərəflərə təqdim edildiyi gündən.

32.5. Mediasiya prosesi bu Qanunun 21-ci maddəsinə uyğun olaraq bərpa oluna bilər.

**Maddə 33. Barışıq sazişi**

33.1. Barışıq sazişi tərəflər arasında yazılı formada bağlanır. Barışıq sazişində aşağıdakı məlumatlar göstərilir:

33.1.1. müqavilənin tarixi və tərtib olunduğu yer;

33.1.2. tərəflər haqqında məlumat;

33.1.3. mübahisənin predmeti;

33.1.4. mediator (mediatorlar) və mediasiya prosesi mediasiya təşkilatı vasitəsilə həyata keçirildikdə mediasiya təşkilatı haqqında məlumatlar;

33.1.5. mübahisənin həlli istiqamətində tərəflərin qəbul etdiyi şərtlər, həmin şərtlərin yerinə yetirilməsinin üsul və müddətləri;

33.1.6. barışıq sazişinin şərtlərinin icra edilməməsinin və ya düzgün icra edilməməsinin nəticələri;

33.1.7. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, bu Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq başqa şərtlər.

33.2. Barışıq sazişi tərəflər və mediator (mediatorlar) tərəfindən imzalanır. Barışıq sazişinin nüsxələri tərəflərin və təqdim ediləcəyi orqanların (qurumların) sayına uyğun olaraq tərtib olunur.

33.3. Barışıq sazişi qüvvədə olan qanunvericiliyə və bu Qanunun 3.3-cü maddəsinin birinci cümləsinin müddəalarına zidd olmamalıdır.

33.4. Barışıq sazişi imzalandığı gündə tərəflərə təqdim edilməlidir. Barışıq sazişinin müvafiq orqana (quruma) təqdim edilməli olan nüsxəsini tərəflərdən biri həmin nüsxənin ona təqdim edildiyi tarixdən 1 iş günü müddətində müvafiq orqana (quruma) təqdim edir.

**Maddə 34. Barışıq sazişinin icrası**

34.1. Barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində könüllü şəkildə icra olunmalıdır.

34.2. Barışıq sazişinin könüllü icrasından boyun qaçırma Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən olunan məsuliyyətə səbəb olur.

34.3. Əgər barışıq sazişinin könüllü icrasından imtina olunsa, tərəf (o cümlədən məhkəmə baxışında olan işlər üzrə tərəf) barışıq sazişinin məcburi icrası üçün məhkəməyə və ya notariusa müraciət edə bilər.

34.4. Barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə və ya notarius tərəfindən müvafiq qaydada təsdiq olunur (bu Qanunun 34.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla).

34.5. Barışıq sazişi bu Qanunun 33.3-cü maddəsinə zidd olduqda, onun təsdiq edilməsindən imtina olunur.

**Maddə 35. İddia müddətlərinin axımının dayandırılması**

35.1. Mediasiya prosesinin tətbiqi tərəflər arasında müba-

hisə üzrə qanunla nəzərdə tutulan iddia müddətinin axımının dayandırılmasına səbəb olur.

35.2. Mediasiya prosesi nəticəsində tərəflər arasında barışıq sazişi imzalanmazsa, mübahisə üzrə iddia müddətinin axımı bu Qanunun 32.4.2-ci maddəsində nəzərdə tutulan tarixdən bərpa olunmuş hesab olunur.

**Maddə 36. Mediasiya xərcləri**

36.1. Mediasiya prosesinə dair xərclərə daxildir:

36.1.1. mediatora və ya mediasiya təşkilatına ödənilən haqq, o cümlədən mübahisə mediasiya vasitəsilə müsbət həll olunduqda mediatora və ya mediasiya təşkilatına ödənilən mükafat;

36.1.2. mediasiyanın keçirilməsi ilə əlaqədar mediatorun və ya mediasiya təşkilatının çəkdiyi xərclər, o cümlədən mübahisənin baxıldığı yerə getmək üçün yol, yaşayış və yemək xərcləri.

36.2. Bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş ilkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

36.3. Mediator və ya mediasiya təşkilatı mediasiyanı ödənişli əsaslarla həyata keçirir. Mediator və ya mediasiya təşkilatı öz razılığı ilə mediasiyanı ödənişsiz əsaslarla da həyata keçirə bilər.

36.4. Mediatora və ya mediasiya təşkilatına ödənilən haqqın məbləği mediasiya sessiyası başlanana qədər (bu Qanunun 28-ci və 29-cu maddələrində nəzərdə tutulan hallarda isə bu Qanunun 29.5-ci maddəsi nəzərə alınmaqla sonrakı mediasiya sessiyası başlanana qədər) tərəflərlə mediator və ya mediasiya təşkilatı arasında bu Qanunun 23.4-cü maddəsinə uyğun olaraq bağlanan müqavilədə müəyyən olunur.

36.5. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"də və mediasiyaya dair qeyd-şərtdə başqa şərt nəzərdə tutulmayıbsa, həmçinin ilkin mediasiya sessiyasında tərəfin üzrsüz səbəbdən iştirak etməməsi halında digər tərəfin bütün mediasiya xərclərini ödədiyi hallar istisna olmaqla, mediasiyaya çəkilən xərclər tərəflər arasında bərabər şəkildə bölüşdürülür. Mediasiyaya dair qeyd-şərtə və ya "mediasiya prosesinin tətbiqi barədə müqavilə"nin şərtlərinə zidd olaraq mediasiyada, həmçinin ilkin mediasiya sessiyasında üzrsüz səbəbdən iştirak etməyən tərəf mediasiya ilə bağlı digər tərəfin çəkdiyi bütün mediasiya xərclərini ona ödəməlidir.

36.6. Mediator onun qərəzsizliyinə mane olan şərtlər səbəbindən mediasiyanın keçirilməsindən imtina edərsə, tərəflərin ödədiyi məbləği (faktiki çəkilmiş xərclər çıxılmaqla) geri qaytarmalıdır.

36.7. Mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan hər hansı tərəfin mediasiya xərclərinin ödənilməsi dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir. Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

36.8. Barışıq sazişi imzalandıqdan sonra mediator tərəflərə çəkilmiş xərclər barədə hesabat verir və xərclənməmiş qalıq məbləği onlara qaytarır.

5-ci fəsil. Yekun müddəalar

**Maddə 37. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə mediator, mediasiya təşkilatı, tərəflər və mediasiyada iştirak edən digər şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 38. Keçid müddəa**

İlk mediasiya təlimi qurumu Mediasiya Şurasının üzvlüyünə qəbul edilənədək bu Qanunun 10.1.1-10.1.3-cü və 10.2-ci maddələrinin tələblərinə cavab verən mediator, həmçinin bu Qanunun 11.2-ci və 11.3.1-11.3.3-cü maddələrinin tələblərinə cavab verən mediasiya təşkilatı bu Qanuna uyğun olaraq mediasiya xidmətlərini göstərə bilər.

**Maddə 39. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanunun 3.2-ci, 28-ci və 29-cu maddələri və həmin maddələrlə bağlı olan müddəalar 2020-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 29 mart 2019-cu il*
*N 1555-VQ*

"Azərbaycan dilinin Orfoqrafiya Normaları"nın təsdiq edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 yanvar tarixli 835 nömrəli Fərmanının 2.1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan dilinin Orfoqrafiya Normaları" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan dilinin orfoqrafiya qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 avqust tarixli 108 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 8, maddə 654; 2015, N 6, maddə 775) 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"-nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

*Bakı şəhəri, 16 aprel 2019-cu il*
*N 174*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

## Azərbaycan dilinin Orfoqrafiya Normaları

### 1. Azərbaycan mənşəli sözlərin yazılışı

1.1. Azərbaycan dilinin lüğət tərkibindəki Azərbaycan mənşəli sözlər, əsasən, tələffüz edildiyi kimi yazılır: *addım, dəniz, gəlin, günəş, qoşun, oğul, qaranquş* və s.

1.2. Son səsi [**x**], bəzən də [**ğ**] kimi tələffüz olunan Azərbaycan mənşəli sözlər **q** hərfi ilə yazılır: *ayaq, barmaq, bulaq, dayanacaq, qatıq, qonaq, qorxaq* və s. Bu qəbildən olan sözlərə saitlə başlanan şəkilçi qoşulduqda **q~ğ** əvəzlənməsi baş verir: *otağa, bulağın, qonağımız* və s.

1.3. Son səsi [**x´**] kimi tələffüz olunan çoxhecalı Azərbaycan mənşəli sözlər **k** hərfi ilə yazılır: *bilək, birlik, külək, ürək, üzərlik, üzük* və s. Bu qəbildən olan sözlərə saitlə başlanan şəkilçi qoşulduqda **k~y** əvəzlənməsi baş verir: *biləyi, birliyimiz, ürəyim, üzüyün* və s.

**Qeyd.** Son səsi [**k**] kimi tələffüz olunan alınma sözlərə saitlə başlanan şəkilçi qoşulduqda heç bir dəyişiklik baş vermir: *əmlak - əmlaka, iştirak - iştirakımız, şərik - şəriki* və s.

1.4. Son səsi [**t**], bəzən də [**d**] kimi tələffüz olunan çoxhecalı Azərbaycan mənşəli sözlər **d** hərfi ilə yazılır: *bulud, palıd, söyüd* və s.

1.5. Son səsi [**ç**], bəzən də [**c**] kimi tələffüz olunan sözlər **c** hərfi ilə yazılır: *qılınc, ülgüc, kərpic* və s.

### 2. Alınma sözlərdə saitlərin yazılışı

2.1. Tərkibində o hərfi olan alınma sözlər [**a**] və ya [**o**] ilə tələffüz edilməsindən asılı olmayaraq, **o** ilə yazılır: *avt**o**mat, k**o**llec, k**o**llektiv, lab**o**rant, M**o**skva, m**o**tor, **o**byekt, **O**dessa, p**o**ema, p**o**eziya, pr**o**blem, pr**o**fessor, s**o**list, vel**o**siped* və s.

2.2. İkinci hecasındakı saiti [**i**], bəzən də [**ü**] kimi tələffüz olunan ərəb mənşəli sözlər tarixi-ənənəvi prinsipə əsasən **i** ilə yazılır: *külli, müdir, müdrik, müflis, müxbir, müxlis, münbit, münsif, mürid, mürşid, müsibət* və s.

**Qeyd.** *Mühüm, müşkül* və *üfüq* sözlərindəki ikinci heca **ü** hərfi ilə yazılır.

2.3. Mənbə dildə [**u**] saitli alınma sözlər **ü** hərfi ilə yazılır: *b**ü**lleten, b**ü**ro, j**ü**ri, karb**ü**rator, komp**ü**ter, paraş**ü**t, s**ü**jet, şl**ü**z* və s.

2.4. Mənbə dildə **a** hərfi ilə bitən alınma sözlər iki cür yazılır:

2.4.1. *aksiom, anket, aptek, atmosfer, diaqram, diaspor, fabrik, fonem, kaset, kayut, konfet, kontor, qəzet, qrafem, qravür, leksem, lent, maşın, perspektiv, planet, proqram, pyes, reklam, rezin, sistem, sistern, sitat, teorem, vitrin* və s. kimi sözlərin sonunda **a** hərfi yazılmır;

Mənbə dildə tərkibində qoşa **b, p, n** və **m** samitləri olan aşağıdakı sözlərin sonunda **a** ilə yanaşı, qoşa samitlərdən biri də atılır: *abreviatur, qrup, ton, diaqram, stenoqram* və s.

2.4.2. *botanika, doktrina, forma, kamera, qrammatika, norma, poetika, poeziya, respublika, taktika* və s. kimi sözlərin sonunda **a** yazılır.

2.5. Mənbə dildə birhecalı sözlər iki cür yazılır:

2.5.1. iki saitlə yazılanlar: *cisim, eyib, ətir, feil, fəsil, fikir, heyif, isim, izin, qəbir, qədir, qisim, meyil, nəsil, ömür, səbir, sətir, sinif, şeir, şəkil, zehin* və s.;

2.5.2. bir saitlə yazılanlar: *cəbr, əmr, həbs, həsr, hökm, hüsn, hüzn, kəsr, qəbz, qəhr, qəsr, nəbz, nəfs, nəsr, sehr, sədr, üzr, üzv, zülm* və s.

### 3. Alınma sözlərdə samitlərin yazılışı

3.1. Rus dilində tərkibində **ц** hərfi olan alınma sözlərin yazılışında aşağıdakı qaydalar əsas götürülür:

3.1.1. ümumi isimlər **s** hərfi ilə yazılır: *aseton, dosent, konsert, lisey, kulminasiya, aksiya, sement, sirk* və s.;

**Qeyd.** *Metso, vitse* morfemləri və *blits, ratsiya* və s. sözlər istisnadır.

3.1.2. xüsusi isimlərdə sözün əvvəlində **s** (*Setkin, Siolkovski* və s.), sözün ortasında və axırında isə **ts** (*Motsart, Muromets, Vorontsov* və s.) yazılır.

3.2. Rus dilində tərkibində **щ** hərfi olan alınma sözlərin yazılışında aşağıdakı qaydalar əsas götürülür:

3.2.1. sözün əvvəlində və sonunda işlənən **щ** hərfi əvəzinə **ş** yazılır: *Şedrin, Şerba, Şors, borş* və s.;

3.2.2. ortasında **щ** hərfi olan sözlər qoşa **ş** ilə yazılır: *meşşan, Vereşşagin* və s.

3.3. **H** samiti ilə başlanan alınma sözlər **h** ilə yazılır: *Haaqa, Hamburq, harmoniya, Havana, Hegel, hektar, Heyne, hidrogen, hippodrom, hospital, humanizm* və s.

3.4. Birinci və ikinci hecasındakı samiti həm [**m**], həm də [**n**] kimi tələffüz olunan alınma sözlər **n** ilə yazılır: *anbar, günbəz, İstanbul, qənbər, sünbül, şənbə, tənbəl, zanbaq, zənbil* və s.

3.5. **-iy, -skiy** ilə bitən xüsusi isimlərin sonundakı **y** yazılmır: *Qordlevski, Qorki, Mayakovski, Yaroslavski* və s.

3.6. Kimyəvi element adları əslinə uyğun olaraq yazılır: *kalium, maqnezium, natrium* və s.

3.7. Əsli [**c**] samitli alınma sözlər **c** ilə də yazılır: *Cek London, cemper, Siciliya* və s.

3.8. Əsli [**q**] samitli alınma sözlər incə saitli hecalarda **g** ilə yazılır: *biologiya, dialektologiya, general, genezis, geologiya, gigiyena, etimologiya, gitara* və s.

3.9. Əsli **w** samitli alınma sözlər **v** hərfi ilə yazılır: *veb-sayt, Vilyam, vörd* və s.

3.10. Son səsi [**k´**] kimi tələffüz olunan bir qrup alınma sözlər **q** hərfi ilə yazılır: *filoloq, ittifaq, müstəntiq, natiq, şəfəq, üfüq, vərəq* və s. Bu qəbildən olan sözlərin sonuna saitlə başlanan şəkilçi qoşulduqda, yazıda heç bir dəyişiklik baş vermir: *filoloqa, şəfəqi, üfüqə* və s.

### 4. Qoşasaitli və qoşasamitli sözlərin yazılışı

4.1. Kökündə eynicinsli qoşa və müxtəlifcinsli sait işlənən alınma sözlər qoşa saitlə yazılır: *ailə, bədii, camaat, əcaib, əmtəə, ideal, maaş, müalicə, okean, saat, stadion, zəif* və s.

4.2. Hecalarından biri [**p**] samiti ilə bitən, sonrakı hecası-

nın ilk samiti [**b**] kimi tələffüz olunan sözlər qoşa **p** ilə yazılır: *guppultu, hoppanmaq, şappıltı, tappıltı, toppuz* və s.

4.3. Hecalarından biri [**k**] samiti ilə bitən, sonrakı hecasının ilk samiti [**g**] kimi tələffüz olunan sözlər qoşa **k** ilə yazılır: *mürəkkəb, mütəkkə, səkkiz* və s.

4.4. Hecalarından biri [**t**] samiti ilə bitən, sonrakı hecasının ilk samiti [**d**] kimi tələffüz olunan sözlər qoşa **t** ilə yazılır: *əlbəttə, hətta, Səttar* və s.

4.5. Hecalarından biri [**k´**] samiti ilə bitən, sonrakı hecasının ilk samiti [**q**] kimi tələffüz olunan sözlər qoşa **q** ilə yazılır: *diqqət, doqquz, nəqqaş, saqqal* və s.

4.6. Mənbə dildə tərkibində **qq, ll, mm, pp, tt** samitləri olan Avropa mənşəli aşağıdakı alınma sözlər bir samitlə yazılır: *aqlütinativ, paralel, teleqram, aparat, apelyasiya, vat* və s.

4.7. Təkhecalı sözlərin sonunda qoşa samitin hər ikisi yazılır: *fənn, haqq, hiss, xətt, küll, rədd, sirr, zənn, zidd* və s.

Belə sözlərə samitlə başlanan şəkilçi artırıldıqda, qoşa samitlərdən biri düşür: *fənn - fənlər, haqq - haqsız, xətt - xətdən, sirr - sirlər* və s.

**Qeyd.** *Hiss* və *küll* sözləri istisnadır. *Hiss* sözünə yalnız **-siz** şəkilçisi artırıldıqda, kökdəki **s** samitlərindən biri ixtisar olunur.

4.8. Mənbə dildə qoşa samitlə bitən iki və ya çoxhecalı sözlər bir samitlə yazılır: *hüsnxət, kilovat, mühüm, rəsmxət* və s.

4.9. Söz ortasında qoşa **s** samiti olan aşağıdakı alınma sözlər bir **s** ilə yazılır: *aksesuar, kaset, masaj, pasaj, şose.*

4.10. Söz sonunda qoşa **s** samitli aşağıdakı alınma sözlər bir **s** ilə yazılır: *ekspres, konqres, kros, bras, stres.*

**Qeyd.** *Press (mətbuat)* sözü istisnadır.

### 5. Şəkilçilərin yazılışı

5.1. Tərkibində **a-, anti-, ba-, bi-, na-, pre-** ön şəkilçiləri olan sözlər bitişik yazılır: *anormal, antivirus, baməzə, bisavad, nalayiq, prepozisiya* və s.

**Qeyd. Anti** şəkilçisindən sonra xüsusi isim gəldikdə, defis işarəsi qoyulur: *Anti-Azərbaycan, Anti-Rusiya* və s.

5.2. Sözdüzəldici şəkilçilər aşağıdakı üç qaydaya əsasən yazılır:

5.2.1. ahəng qanununa tabe olmayan və **bir cür** yazılan şəkilçilər:

**-i** şəkilçisi: samitlə bitən sözlərdə **-i;** *cənubi, daxili, elmi, həyati, Naxçıvani, şimali, Şirvani, tarixi* və s; saitlə bitən sözlərdə isə şəkilçinin əvvəlinə **v** samiti artırılır: *ailəvi, dairəvi, Gəncəvi, kütləvi* və s.;

**-vari** şəkilçisi: *buynuzvari, qalxanvari, üzükvari, yüngülvari* və s.;

**-keş** şəkilçisi: *qayğıkeş, zəhmətkeş, cəfakeş;*

**-daş** şəkilçisi: *yoldaş, əməkdaş, yurddaş, soydaş;*

**-stan** şəkilçisi: samitlə bitən sözlərdə şəkilçinin əvvəlinə ahəng qanununa uyğun olaraq **ı, i, u, ü** saitlərindən biri artırılır: *Dağıstan, Türkmənistan, Monqolustan, Türküstan;* saitlə bitən sözlərdə isə şəkilçi olduğu kimi qalır: *Gürcüstan;*

**-gil** şəkilçisi: *bacımgil, xalamgil, Əhmədgil* və s.;

**-zadə** şəkilçisi: *xanzadə, bəyzadə, Axundzadə* və s.;

5.2.2. **iki cür** yazılan şəkilçilər:

kar samitlə bitən sözlərdə: **-qan, -kən;** cingiltili samitlə bitən sözlərdə **-ğan, -gən** şəkilçisi: *çalışqan, yapışqan, döyüşkən, sürüşkən, deyingən* və s.;

**-ağan, -əyən** şəkilçisi: *qaçağan, güləyən, küsəyən* və s.;

5.2.3. **dörd cür** yazılan şəkilçilər:

**-kı, -ki, -ku, -kü** şəkilçisi: *axşamkı, bildirki, səhərki, gündüzkü* və s.;

sifət və isim düzəldən **-ı, -i, -u, -ü** şəkilçisi: *darçını, badımcanı, narıncı, çərkəzi, armudu, gümüşü* və s.;

saitlə bitən sözlərdə bu şəkilçinin əvvəlinə **y** samiti artırılır: *bənövşəyi, buğdayı, xurmayı, sürməyi* və s.

5.3. Feil köklərindən isim və sifət düzəldən şəkilçilər:

5.3.1. **kar samitlə bitən sözlərdə:**

**-qı, -ki, -qu, -kü** şəkilçisi: *asqı, seçki, pusqu, sürtkü* və s.;

**-qın, -kin, -qun, -kün** şəkilçisi: *satqın, bitkin, tutqun, ötkün* və s.;

5.3.2. **cingiltili samitlə bitən sözlərdə:**

**-ğı, -gi, -ğu -gü** şəkilçisi: *çalğı, vergi, vurğu, bölgü* və s.;

**-ğın, -gin, -ğun, -gün** şəkilçisi: *qırğın, əzgin, yorğun, süzgün* və s.

5.4. Rəqəmlə yazılan miqdar saylarına mənsubiyyət və hal şəkilçiləri əlavə edildikdə, şəkilçidən əvvəl defis qoyulur: *2-yə, 3-də, 5-i, 6-nın, 17-si, 20-dən.* Rəqəmlərdən sonra ahəng qanununa görə sıra sayının şəkilçisi ixtisarla (**-cı, -ci, -cu, -cü**) yazılır: *2-ci, 3-cü, 6-cı, 10-cu.*

5.5. Roma rəqəmlərindən sonra şəkilçi yazılmır: *beşinci - V, onuncu - X* və s.

### 6. Mürəkkəb sözlərin yazılışı

6.1. Aşağıdakı hallarda sözlər bitişik yazılır:

6.1.1. bir vurğu ilə deyilən müxtəlifmənalı sözlər: *arabir, balacaboy, beşillik, beşmərtəbəli, bugünkü, dilucu, əmioğlu, bacıoğlu, xalaoğlu, gülərüz, günəbaxan, hərgecəki, köhnəfikirli, qalxanabənzər, qanunvericilik, qarasaçlı, qurultayqabağı, müxtəliftərəfli, özbaşınalıq, soyuqqanlı, ucdantutma, ümumbəşəri, yenifikirli* və s.;

6.1.2. eyni feil kökünün təkrarı və **a, ə, ha** bitişdiriciləri vasitəsilə yaranan mürəkkəb isimlər: *qaçaqaç, kəsəkəs, gəlhagəl, tutatut, vurhavur* və s.;

**Qeyd.** Sözün kökü kar samitlə bitdikdə, ahəng qanununa görə **a, ə,** cingiltili samitlə bitdikdə isə **ha** bitişdiricisi yazılır. *Gethaget* sözü istisnadır.

6.1.3. eyni sözün təkrarı və **ba, bə** bitişdiriciləri vasitəsilə yaranan mürəkkəb zərflər: *addımbaaddım, aybaay, günbəgün, ilbəil* və s.

6.2. Tərkibində **aero-, aqro-, audio-, avia-, avto-, ekzo-, endo-, elektro-, foto-, makro-, mikro-, mini-, mono-, multi-, nano-, neo-, oksi-, oliqo-, paleo-, para-, post-, proto-, psevdo-, psixo-, stereo-, super-, tele-, termo-, trans-, ultra-, ümum-** morfemləri olan mürəkkəb sözlər bitişik yazılır: *aeroklub, aqromüxtəliflik, audioəlaqə, aviasalon, avtopark, endoplazma, mikrocərrahiyyə, elektromaqnit, fotoçəkiliş, miniavtobus, monopredikativ, monokristal, multimilyonçu, nanotexnologiya, nanohissəcik, neofaşizm, neorealizm, oksitetrasiklin, oliqofreniya, paleoxaritə, paramaqnetizm, postsovet, psixonevroloji, postmodernizm, prototürk, stereotəsvir, superdövlət, supermarket, teletamaşa, termoaçar, transmilli, ultrasəs, ümumbəşəri* və s.

**Qeyd.** Bu morfemlərin bəziləri xüsusi isimlərə qoşulduqda, defislə yazılır: *trans-Asiya, trans-Avropa, trans-Avrasiya, trans-Qafqaz, paleo-Azərbaycan, proto-Azərbaycan, ümum-Azərbaycan, ümum-Avropa* və s.

6.3. Tərkibindəki sözlərin səciyyəsindən asılı olaraq aşağıdakı mürəkkəb sözlər defislə yazılır:

6.3.1. qoşa sözlər: *adda-budda, aşıq-aşıq, az-maz, dedi-qodu, əzik-üzük, həlləm-qəlləm, kağız-kuğuz, qara-qura, qonaq-qara, sür-sümük* və s.;

6.3.2. tərkibində **art-, eks-, əks-, kontr-, qeyri-, ober-, veb-, vitse-** morfemləri olan mürəkkəb sözlər: *art-obyekt, eks-prezident, əks-səda, kontr-admiral, qeyri-adi, qeyri-iradi, ober-leytenant, veb-dizayner, veb-səhifə, vitse-admiral*;

6.3.3. izafət birləşmələri: *həddi-büluğ, külli-aləm, külli-ixtiyar, nöqteyi-nəzər, tərcümeyi-hal, tərzi-hərəkət* və s.;

6.3.4. mürəkkəb coğrafi sözlər: *cənub-qərb, şərq-qərb, şimal-şərq* və s.;

6.3.5. tərkibində mənaca bir-birinə yaxın və ya əks anlayışları bildirən sözlər: *ab-hava, adlı-sanlı, ağıllı-kamallı, az-çox, baş-ayaq, dərə-təpə, dinməz-söyləməz, elə-belə, gec-tez, iki-üç, naz-qəmzə, nəvə-nəticə, ölüm-itim, pis-yaxşı, söz-söhbət, təhvil-təslim, ucsuz-bucaqsız* və s.;

6.3.6. ölçü vahidlərini bildirən isimlər: *kiloelektron-volt, kilovat-saat, qram-kalori* və s.;

6.3.7. birinci tərəfi sifətin dərəcə əlaməti kimi işlənən **açıq** və **tünd** sözlərinin, eləcə də müəyyən məna çaları bildirən **ala** sözünün iştirakı ilə yaranan mürəkkəb sifətlər: *açıq-sarı, tünd-göy, ala-seyrək* və s.

**Qeyd.** Tərkibində **təhər** morfemi olan sifətlər istisnadır: bu cür sözlər bitişik yazılır: *göytəhər, sarıtəhər* və s.

### 7. Köməkçi sözlərin yazılışı

7.1. **İdi, imiş, ikən** köməkçi sözləri adlardan (isim, sifət, say, əvəzlik), saitlə bitən zərflərdən və feillərdən sonra ayrı, samitlə bitən feillərdən sonra həm ayrı, həm də ilk saiti buraxılaraq, şəkilçiləşmiş variantlarda bitişik yazılır: *uşaq idi, uşaq ikən, uşaq imiş, gəlirkən, gəlirmiş, gəlməli idi, gəlməli ikən, gecə idi, gecə ikən, gəlməli imiş, gəlmiş imiş, gəlmişdi* və s.

**Qeyd.** Saitlə bitən feillərdən sonra gələn bu köməkçi sözlər ilk saiti buraxılaraq, **y** bitişdiricisinin əlavəsi ilə bitişik də yazıla bilər: *almalıydı, gəlməliymiş, alaydı, alasıydı, gəlməliydi* və s.

7.2. Qoşmalar iki cür yazılır:

7.2.1. təkhecalı qoşmalar **(-can, -cən, -dək, -tək)** aid olduqları sözə bitişik yazılır: *dağacan, evəcən, küçəyədək, quştək* və s.;

7.2.2. ikihecalı qoşmalar **(ilə, kimi, qədər, ötrü, təki, üçün)** aid olduqları sözdən ayrı yazılır: *gəmi ilə, adam kimi, ondan öt-*

*rü, sənin təki, şagird üçün* və s.

**Qeyd. 1. İlə** qoşması samitlə bitən sözlərdə ahəng qanununa uyğun olaraq **-la, -lə** şəklində bitişik yazıla bilər: *qatarla, qələmlə* və s.

2. *Etibarilə, məqsədilə, münasibətilə, vasitəsilə* sözləri bitişik yazılır.

7.3. Mənşəcə mürəkkəb olan bağlayıcılar bitişik yazılır: *çünki, habelə, halbuki, həmçinin, hərçənd, hərgah, nəinki, yaxud, yainki* və s.

7.4. Tərkibi bağlayıcılar və bağlayıcı sözlər ayrı yazılır: *belə ki, buna görə, buna görə də, bunun üçün, bununla da, daha da, guya ki, həm də, odur ki, ona görə də, ona görə, onun üçün də, tutaq ki, və ya, və yaxud, kim ki, o zaman ki, onda ki* və s.

7.5. Ədatlar aid olduqları sözlərdən ayrı yazılır: *daha gözəl, dedim də, di get, ən yaxşı, gör ha, lap pis, sən ki* və s.

**-mı, -mi, -mu, -mü; -sana, -sənə, -ca, -cə** ədatları aid olduqları sözlərə bitişik yazılır: *Qəşəngdir**mi**? Oxudu**mu**? A kos-kosa, gəl**sənə**, torbanı doldur**sana**! Yaxşı**ca** dincəldim. İndi**cə** gəlmişik* və s.

7.6. Eyni nidanın təkrarından əmələ gələn nidalar defislə yazılır: *bəh-bəh, ha-ha-ha, pəh-pəh, uy-uy, vay-vay* və s.

7.7. Müxtəlif sözlərdən əmələ gələn nidalar ayrı yazılır: *ay aman, ay haray.*

## 8. Birinci hərfi böyük yazılan sözlər

8.1. Ad, soyad, təxəllüs və ləqəb bildirən sözlərin *(bəy, oğlu* və *qızı* sözlərindən başqa) birinci hərfi böyük yazılır: *Nizami Gəncəvi, İmadəddin Nəsimi, Uzun Həsən, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Xan qızı Natəvan, Süleyman Sani Axundov, Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli, Mehdi Hüseynzadə, Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə* və s.

**Qeyd.** Xüsusi isimlər cəm şəkilçisi qəbul etdikdə də böyük hərflə yazılır: *Nizamilər, Füzulilər, Hacı Qaralar, Həzi Aslanovlar, Mehdi Hüseynzadələr* və s.

8.2. Bədii əsərlərdə heyvanlara və cansız əşyalara verilən adlar böyük hərflə yazılır: *Alapaça, Badə, Bəng, Bozdar, Qırat, Məstan* və s.

8.3. Tarixi hadisələrin, dövrlərin, sülalələrin, eləcə də qədim yazılı abidələrin və s. adlarının birinci sözünün ilk hərfi böyük yazılır: *Azadlıq meydanı, Çaldıran döyüşü, Dəmir dövrü, Orxon-Yenisey abidələri, Sasanilər dövrü, Səfəvilər sülaləsi, Şuşa qalası, Versal sülhü, Vətən müharibəsi, Yeddiillik müharibə* və s. Belə mürəkkəb adlara fərqləndirici söz əlavə olunduqda, onun da birinci hərfi böyük yazılır: *Orta Paleolit dövrü, Son Paleolit dövrü.*

8.4. Ölkələrin, muxtar respublikaların, vilayət və diyarların rəsmi adlarının tərkibindəki bütün sözlərin ilk hərfi böyük yazılır: *Azərbaycan Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, İran İslam Respublikası, Naxçıvan Muxtar Respublikası* və s.

8.5. Səmavi kitabların, fəza cisimlərinin adları böyük hərflə yazılır: *Quran, Bibliya, Əhdicədid, Əhdi-ətiq, İncil, Tövrat, Zəbur, Ülkər, Günəş, Ay, Yupiter, Saturn, Venera* və s.

8.6. Yüksək dövlət vəzifələri *(Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan Respublikası Milli Məclisinin Sədri)*, nazirlik, komitə, birlik, cəmiyyət, qurum, akademiya, universitet, texnikum, teatr, filarmoniya, siyasi partiya, eləcə də tarixi günlərin və s. mürəkkəb adların tərkibindəki bütün sözlərin *(adına, üzrə, yanında, qarşı* kimi yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır: *Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Yeni Azərbaycan Partiyası, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı Şəhər İcra Hakimiyyəti, Ağstafa Rayon Təhsil Şöbəsi* və s.

**Qeyd. 1.** Tərkibində *gün* sözü olan və təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər böyük hərflə yazılır: *Beynəlxalq Ana Dili Günü, Beynəlxalq Qadınlar Günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü* və s.

2. Məşhur tarixi gün və bayram adlarında yalnız birinci sözün ilk hərfi böyük yazılır: *İyirmi yanvar, İyirmi səkkiz may, Səkkiz mart, Qurban bayramı, Novruz bayramı* və s. Həmin günlər rəqəmlə göstərilərsə, *20 Yanvar, 28 May, 8 Mart* və s. rəqəmdən sonrakı

birinci sözün ilk hərfi böyük yazılır.

3. *Azərbaycan Respublikasının Səhiyyə naziri, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri* tipli mürəkkəb adlarda sahə bildirən söz *(Səhiyyə)* böyük, vəzifə bildirən söz *(nazir)* kiçik hərflə yazılır.

4. Tərkibində *lisey, gimnaziya, vəqf, məktəb, fakültə, şöbə* sözləri olan mürəkkəb adlarda ilk söz böyük, sonrakı sözlər kiçik hərflə yazılır: *Avropa liseyi, Dəyanət vəqfi, Humanitar fənlər gimnaziyası, Humanitar siyasət məsələləri şöbəsi, Uşaq-gənclər şahmat məktəbi, BDU-nun Filologiya fakültəsi, Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsi* və s.

5. Tərkibində *okean, dəniz, çay, göl, şəhər, rayon, qəsəbə, kənd, prospekt, meydan, küçə, xiyaban, saray, qala, türbə, qoruq, boğaz, düz, ada, burun, körpü, düzənlik, dağ, səhra, dərə* sözləri olan adlarda ilk söz böyük hərflə yazılır: *Sakit okean, Xəzər dənizi, Qara dəniz, Kür çayı, Baykal gölü, Bakı şəhəri, Salyan rayonu, Şüvəlan qəsəbəsi, Hökməli kəndi, Neftçilər prospekti, Azadlıq meydanı, Əhməd Cavad küçəsi, Şəhidlər xiyabanı, Səadət sarayı, Ramana qalası, Möminə xatun türbəsi, Şirvan qoruğu, Dardanel boğazı, Mil düzü, Nargin adası, Xudafərin körpüsü, Culfa düzənliyi, Kəpəz dağı, Qaraqum səhrası, İynə burnu.*

8.7. Fəxri adların özək hissəsini təşkil edən ilk söz böyük hərflə, sonrakı sözlər kiçik hərflə yazılır: *Əməkdar müəllim, Əməkdar incəsənət xadimi, Xalq şairi* və s.

**Qeyd.** *Azərbaycanın Milli Qəhrəmanı, Sovet İttifaqı Qəhrəmanı* mürəkkəb adlarında hər üç söz böyük hərflə yazılır.

8.8. *Orden, medal, bədii əsər, opera, balet, kinofilm, qəzet, jurnal, kinoteatr, mehmanxana, nəşriyyat, kafe, restoran* və s. adları dırnaqda və böyük hərflə yazılır: *"İstiqlal" ordeni, "Azərbaycan Bayrağı" ordeni, "Ata və oğul" povesti, "Yeddi gözəl" baleti, "Uzaq sahillərdə" filmi, "Azərbaycan" qəzeti, "Cücələrim" kafesi, "Bahar" mağazası, "Badamlı" mineral suyu* və s.

**Qeyd.** Dırnaqda yazılan belə adlara artırılan şəkilçi dırnaqdan kənarda yazılır: *"Xalq qəzeti"nin bugünkü nömrəsi, "Yeddi gözəl"in ilk tamaşası* və s.

8.9. *Mirzə, hacı, şeyx, seyid, şah, sultan, bəyim və s. sözlər rütbə, ləqəb* və *titul* bildirib, aid olduğu sözlərdən əvvəl gəldikdə böyük hərflə, sonra gəldikdə isə kiçik hərflə yazılır: *Hacı Qara, Mirzə Fətəli, Nadir şah, Seyid Əzim, Sultan Süleyman, Şah İsmayıl, Şeyx Nəsrullah* və s.

**Qeyd.** *Ağa, bəy, xan, xanım* sözləri insan adlarının tərkib hissəsi kimi işləndikdə bitişik yazılır: *Ağacavad, Ağabəy, Əlibəy, Xanoğlan, Böyükxanım* və s. Həmin sözlər adlara qoşularaq titul kimi və ya hörmət məqsədilə işləndikdə isə ayrı yazılır: *Abbasqulu ağa Bakıxanov, Nəcəf bəy Vəzirov, Fətəli xan Xoyski, Fatma xanım Kəminə* və s.

## 9. İxtisar və qısaltmalar

9.1. İxtisar və qısaltmalar aşağıdakı kimi yazılır:

9.1.1. tam ixtisarlar və qısaltmalar aid olduqları sözlərə uyğun olaraq böyük hərflə yazılır: *Azərbaycan Respublikası - AR, Birləşmiş Millətlər Təşkilatı - BMT, Milli Məclis - MM* və s.;

9.1.2. tam ixtisarlar ümumi isimlərə aid olduqda kiçik hərflə yazılır: *metr - m, cild - c, və sairə - və s., və başqaları - və b.;*

9.1.3. yarımçıq ixtisarlar aid olduqları sözlərə uyğun olaraq, böyük və kiçik hərflərlə, mürəkkəb adların tərkib hissələri isə bitişik yazılır: *akademik - akad., doktor - dok., dosent - dos., professor - prof., Azərbaycan Nəşriyyatı - Azərnəşr* və s.

9.2. İxtisarlara əlavə edilən şəkilçilər son səsin tələffüzünə uyğun olaraq yazılır: *AMEA-dan, MDB-nin, UNESKO-nun, İSESKO-da, BDU-ya* və s.

## 10. Sözün sətirdən sətrə keçirilməsi

10.1. Sözlər sətirdən sətrə hecalarla keçirilir: *və-tən, mək-təb-li-lər* və s.

Sözün bir saitdən ibarət olan hecasını sətrin sonunda saxlamaq və ya yeni sətrə keçirmək olmaz: *a-ilə, a-zadlıq, iddi-a* və s. Bu qəbildən olan sözlər sətirdən sətrə bu şəkildə keçirilir: *ai-lə, azad-lıq, id-dia* və s.

10.2. Saylar rəqəmlə yazıldıqda, onlara artırılan şəkilçilər sətirdən sətrə keçirilmir: *5-cilər, 7-ci, 9-da* və s.

10.3. Mürəkkəb ixtisarlar və onlara artırılan şəkilçilər sətirdən sətrə keçirilmir.

10.4. Ad və ata adlarının bir hərfdən ibarət qısaltmalarını *(M.F.Axundzadə, M.S.Ordubadi, Y.V.Çəmənzəminli* və s.) sətrin sonunda saxlamaq olmaz.

10.5. Durğu işarələri yeni sətrə keçirilmir.